Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Orqanı

# QANUNÇULUQ

## HÜQUQ JURNALI




№ 06 iyun 2017

*Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik hüquqi cəmiyyət qurmaq yoludur!*

*Heydər ƏLİYEV,*
*Azərbaycan xalqının ümummilli lideri*



***Ölkəmizin hərtərəfli inkişafı üçün, demokratik, hüquqi dövlətin əsaslarının möhkəmlənməsi üçün məhkəmə-hüquq sisteminin təkmilləşməsi başlıca şərtdir***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



QANUNÇULUQ
HÜQUQ JURNALI
№ 06 İYUN 2017

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Faiq Qurbanov**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**




Qeydiyyat tarixi: 18.04.2003,
Reyestr №-si: 439. İndeks 1032

“Qanunçuluq” jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş,
“Ədliyyə Nəşriyyat Evi” MMC-də çap olunmuşdur.
Ədliyyə Nəşriyyat Evi MMC-nin ünvanı: Xaqani küç., 14,
tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri:
“Ədliyyə Nəşriyyat Evi” MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701;

Azərbaycan Beynəlxalq Bankın Səbail filialı, kod 805551,
VÖEN 9900001881, M/h 0137010002031,
SWİFT/Bik İBAZAZ-2X.

# Bu sayımızda:


**RƏSMİ MƏLUMAT**

Moldova Respublikasının Prezidenti İqor Dodonun Azərbaycana rəsmi səfəri ....5
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Polşa Respublikasına rəsmi səfəri ....7
Bakıda Formula-1 Azərbaycan Qran-Prisi keçirilib....10

**MƏHKƏMƏ-HÜQUQ İSLAHATLARI**

Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin yeni inzibati binası istifadəyə verilib ....12
Avropalı ekspertlər: Azərbaycanın məhkəmə sistemində apardığı səmərəli islahatlar bir çox ölkələrə nümunə ola bilər (Ədliyyə naziri Fikrət Məmmədovun AzərTAc-a müsahibəsi)....16

**ƏDLİYYƏ NAZİRLİYİNDƏ**

Milli Qurtuluş günü ədliyyə orqanlarında qeyd olunub ....20
Ədliyyə naziri Lerik rayonunda vətəndaşları qəbul edib....20
Ədliyyə Nazirliyinin Kollegiya iclası keçirilib ....21

**BEYNƏLXALQ ƏMƏKDAŞLIQ**

Azərbaycan-Ukrayna: hüquqi əməkdaşlıq genişlənir ....23
Ədliyyə nazirinin ECO təşkilatının iclası çərçivəsində görüşləri olub....25
Azərbaycan və Bolqarıstan hüquqi sahədə səmərəli əməkdaşlıq edir....26
AŞPA-nın həmməruzəçiləri ilə Ədliyyə Nazirliyində görüş....27
Azərbaycan və Belarus arasında ədliyyə sahəsində əlaqələr genişlənir....28
Avropa İttifaqı ilə mediasiya sahəsində layihə təşviq olunur ....29
Türkiyə ilə məhkəmə ekspertizası sahəsində əməkdaşlıq edilir ....29
Avropa ölkələri penitensiar və probasiya xidmətləri rəhbərlərinin 22-ci konfransı....30

**18 İYUN - İNSAN HÜQUQLARI GÜNÜDÜR!**

Ədliyyə Akademiyasında "İnsan Hüquqları Aylığı" çərçivəsində dəyirmi masa keçirilib ....32
Regional ədliyyə idarələri tərəfindən insan hüquq və azadlıqları mövzusunda tədbirlər təşkil edilib....33
Faiq Qurbanov. İnsan hüquqlarının qorunması demokratik inkişafın ayrılmaz hissəsidir ....34

**MÜSAHİBƏ**

Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi daim diqqətdədir (Məhkəmə-Hüquq Şurası aparatının rəhbəri Cavid Hüseynovun "Ədalət" qəzetinə müsahibəsi) ....39
Avropa Məhkəməsinin presedentlərinin milli səviyyələrdə öyrənilməsi və tətbiqi olduqca əhəmiyyətlidir (Ədliyyə Nazirliyi Beynəlxalq əməkdaşlıq idarəsinin rəisi Adil Əbilovun "525-ci qəzet"ə müsahibəsi) ....42









## MƏLUMATLAR, ELANLAR...

Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı növbəti test imtahanı keçirilib ....45
Vərəmlə mübarizədə Azərbaycanın müsbət təcrübəsi öyrənilir ....45
Ədliyyə naziri yanında İctimai Komitənin hesabat yığıncağı ....47
Uşaqların Beynəlxalq Müdafiə Günü ədliyyə orqanlarında qeyd olunub ....49
Ədliyyə Nazirliyi tərəfindən göstərilən elektron xidmətlərə dair ictimai təqdimat ....49
Ədliyyə Akademiyasının məlumatları ....50





## YENİ QANUNLAR, FƏRMANLAR...

”Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu ....54
”Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu ....54
“Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu ....55
“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu ....56
”Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu ....56
”İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu ....57
“Bələdiyyə üzvlərinin etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanunu ....57



# Moldova Respublikasının Prezidenti İqor Dodonun Azərbaycana rəsmi səfəri

**İyunun 22-23-də Moldova Respublikasının Prezidenti İqor Dodon ölkəmizdə rəsmi səfərdə olub. Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Moldova Respublikasının Prezidenti İqor Dodon ilə əvvəlcə təkbətək, sonra geniş tərkibdə görüşü olub.**



*Təkbətək görüş*

Görüşdə Azərbaycan və Moldova arasında ikitərəfli münasibətlərin mühüm məsələlərinə, regional problemlərə dair fikir mübadiləsi aparılıb, Moldova Prezidentinin Azərbaycana səfərinin əməkdaşlığımızın möh-



*Geniş tərkibdə görüş*

kəmləndirilməsində çox mühüm addım olacağına əminlik ifadə olunub, əlaqələrimizin müxtəlif sahələrdə, o cümlədən siyasi, ticari-iqtisadi, energetika və nəqliyyat sahələrində inkişaf etdirilməsi üçün böyük perspektivlərin olduğu vurğulanıb. Söhbət zamanı həmçinin, regionlararası əlaqələr, humanitar əməkdaşlıqla bağlı məsələlər müzakirə edilib.

Sonra dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər.

Səfər çərçivəsində Moldova Prezidenti İqor Dodon Fəxri xiyabanda xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarı önünə əklil qoyub, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad edib. Ali qonaq Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Moldova Prezidenti İqor Dodon ilə Milli Məclisin sədri Oqtay Əsədovun görüşü olub. Görüşdə Azərbaycan ilə Moldova arasında münasibətlərin müxtəlif istiqamətləri, o cümlədən qanunvericilik orqanları arasında əlaqələrin inkişaf perspektivlərinə dair faydalı fikir mübadiləsi aparılıb, Moldova dövlət başçısı Milli Məclisin təcrübəsinə maraq göstərib, Parlamentin əsas iclas zalı, deputatlar üçün yaradılmış iş şəraiti ilə tanış olub.

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə və Moldova Respublikasının Prezidenti İqor Dodon birgə işçi nahar ediblər. Söhbət zamanı Azərbaycan ilə Moldova arasında iqtisadi sahədə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində Moldova Prezidenti Heydər Əliyev Mərkəzi, "Azər-İlmə" Xalçaçılıq Mərkəzi ilə tanış olub, həmin ərəfədə Bakıda keçirilən Formula-1 Azərbaycan Qran-Prisinin birinci sərbəst yürüşlərinə baxıb.

Moldova Respublikasının Prezidenti İqor Dodonun Azərbaycan Respublikasına rəsmi səfəri iyunun 23-də başa çatıb.



# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Polşa Respublikasına rəsmi səfəri

**İyunun 26-28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Polşa Respublikasında rəsmi səfərdə olub. Varşavada rəsmi qarşılanma mərasimi zamanı Polşa Prezidenti Andjey Duda Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb, birgə foto çəkdirilib.**

Sonra dövlət başçılarının təkbətək görüşü keçirilib. Görüşdə Azərbaycan ilə Polşa arasında əməkdaşlığın uğurla inkişaf etdiyi qeyd olunub. Azərbaycan Prezidenti İlham Əliyevin Polşaya rəsmi səfərinin münasibətlərimizin inkişafı baxımından önəmi xüsusi vurğulanıb. Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətlərinin iştirakı ilə keçirilmiş geniş tərkibdə görüşdə Polşa Prezidenti ölkələrimiz arasında siyasi sahədə əlaqələrin uğurla inkişaf etdiyini bildirib, qarşılıqlı ticarət dövriyyəsinin daha da artırılmasının vacibliyini qeyd edib. İqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu bildirən Prezident Andjey Duda bu sahədə imkanların araşdırılması baxımından Azərbaycan-Polşa biznes forumunun və imzalanan sənədlərin əhəmiyyətini vurğulayıb. Polşa Prezidenti bildirib ki, Polşa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT Təhlükəsizlik Şurasının dörd



*Təkbətək görüş*



*Azərbaycan-Polşa sənədlərinin imzalanması*

qətnaməsi əsasında həll olunmasını dəstəkləyir.

Dövlətimizin başçısı Azərbaycan-Polşa siyasi əlaqələrinin yüksək səviyyədə olduğunu bildirib, bu səfərin ikitərəfli münasibətlərin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını söyləyib. Həmçinin, ölkələrimiz arasında iqtisadi sahədə əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğulayıb, bu baxımdan Azərbaycan-Polşa biznes forumunun əhəmiyyətini qeyd edib.

Söhbət zamanı, həmçinin nəqliyyat, dəmir yolu, energetika, infrastruktur, kənd təsərrüfatı, maşınqayırma, turizm, ərzaq, tikinti, əczaçılıq sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Polşa Prezidenti Andjey Dudanın iştirakı ilə sənədlərin imzalanması mərasimi olub. Prezidentlər "Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında Strateji Tərəfdaşlıq və İqtisadi Əməkdaşlığa dair Yol Xəritəsi haqqında Birgə Bəyannamə"ni imzalayıblar.

Həmçinin, 2005-ci il martın 30-da Varşava şəhərində imzalanmış iki ölkənin hökumətləri arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Sazişdə dəyişikliklər edilməsi barədə Protokol, Energetika nazirlikləri arasında energetika sahəsində, Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Polşanın İnfrastruktur və Tikinti Nazirliyi və Dəniz İqtisadiyyatı və Daxili Naviqasiya Nazirliyi arasında nəqliyyat və nəqliyyat infrastrukturu sahəsində, Dövlət Neft Şirkətinin Bakı Ali Neft Məktəbi ilə AGH Elm və



*Polşa-Azərbaycan biznes forumu*

Texnologiya Universiteti arasında, Azərbaycan və Polşa Dəmir Yolları Səhmdar cəmiyyətləri arasında dəmir yolları sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma memorandumları imzalanıb.

İmzalanma mərasimi başa çatdıqdan sonra Polşa Respublikasının Prezidenti Andjey Duda və Prezident İlham Əliyev mətbuata bəyanatlarla çıxış ediblər.

Səfər zamanı dövlətimizin başçısı Varşavada "Naməlum əsgər" abidəsini ziyarət edib, "Əbədi məşəl"in önünə əklil qoyub.

Varşavada Azərbaycan-Polşa biznes forumu keçirilib. Prezident İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Duda biznes forumun açılış mərasimində çıxış ediblər. Sonra biznes forum işini müzakirələrlə davam etdirib. Biznes forumda iqtisadiyyatın müxtəlif sahələrini təmsil edən 150-dən çox, o cümlədən Azərbaycandan 60-dan artıq iş adamı iştirak edib.

Forum çərçivəsində Azərbaycanın və Polşanın müxtəlif biznes qurumları və şirkətləri arasında ümumilikdə beş müqavilə və əməkdaşlıq memorandumu imzalanıb.

Səfər çərçivəsində Prezident İlham Əliyev Polşa Respublikası Senatının marşalı Stanislav Karçevski ilə görüşüb. Görüşdə xalqlarımız arasındakı dostluq münasibətlərindən məmnunluq ifadə olunub, parlamentlərarası əməkdaşlıqdan bəhs edilib, Azərbaycan ilə Polşa arasında siyasi, iqtisadi, humanitar, nəqliyyat, turizm və digər sahələrdə əməkdaşlıq əlaqələri ətrafında fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısının Polşa Respublikasının Baş naziri xanım Beata Şidlo ilə görüşündə ölkələrimiz arasında əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulanıb. Beata Şidlo Polşanın Azərbaycanın regionda rolunu yüksək qiymətləndirdiyini, ölkəmizin Avropa İttifaqı ilə əlaqələrinin genişlənməsi istiqamətində səylərini dəstəklədiyini və bu dəstəyin gələcəkdə də davam etdiriləcəyini söyləyib. O, ölkələrimiz arasında qarşılıqlı ticarət dövriyyəsinin həcminin artırılmasında maraqlı olduqlarını, hökumətlərarası komissiyanın işinin daha da fəallaşdırılmasının əlaqələrimizin inkişafında önəmini qeyd edib.

İkitərəfli əməkdaşlığın uğurla inkişaf etdiyini deyən Prezident İlham Əliyev Polşanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi münasibətilə təbriklərini çatdırıb. Qeyd edib ki, Azərbaycan və Polşa beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də və Avropa strukturlarında uğurla əməkdaşlıq edirlər. Dövlətimizin başçısı beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılmasında Azərbaycanın fəal iştirak etdiyini və bu istiqamətdə Polşa ilə əməkdaşlığın yaxşı perspektivlərə malik olduğunu vurğulayıb.



*Polşa Respublikası Senatının marşalı Stanislav Karçevski ilə görüş*



*Polşa Respublikasının Baş naziri xanım Beata Şidlo ilə görüş*

Görüşdə Azərbaycan ilə Polşa arasında nəqliyyat, energetika, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Bununla da Prezident İlham Əliyevin Polşa Respublikasına rəsmi səfəri başa çatıb.

# Bakıda Formula-1 Azərbaycan Qran-Prisi keçirilib

## *Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Qran-Prisinin açılış mərasiminə və final yarışına baxıb*

**İyunun 23-25-də Bakıda dünyanın ən nüfuzlu idman yarışlarından biri - Formula-1 Azərbaycan Qran-Prisi keçirilib. Odlar yurdunun paytaxtı Bakı öz tarixində növbəti dəfə mötəbər beynəlxalq idman yarışına ev sahibliyi edib. Növbəti dəfə bütün dünyanın idman nəbzi Bakıda - Şərq ilə Qərbin koloritinin cəmləşdiyi bu nadir şəhərdə döyünüb.**




Formula-1 birnəfərlik, açıq təkərli avtomobil yarışları üzrə dünya çempionatıdır. Bu yarışlar 1950-ci ildən etibarən müntəzəm olaraq keçirilir. Qeyri-rəsmi olaraq, Formula-1 sürücüləri pilot, avtomobillər isə bolid adlandırılır. Formula-1 yarışları Beynəlxalq Avtomobil Federasiyasının müəyyən etdiyi qaydalara əsasən təşkil olunur. Yarışlar il ərzində müxtəlif ölkələrdə keçirilən mərhələlərdən ibarət olur. Hər mərhələyə Qran-Pri adı verilir. İlin sonunda bütün Qran-prilərdən toplanan xalların əsasında pilotlar və komandalar arasında qalib müəyyənləşdirilir və mükafatlandırılır. Formula-1 yarışları dünyada ən çox tamaşaçı auditoriyasına sahib yarışlardan biridir. 1950-ci ildə keçirilən ilk yarışda kuboku "Alfa Romeo" komandası və onun italiyalı pilotu Cüzeppe Farina qazanıb. Ən çox çempion adına "Ferrari" komandasının əfsanəvi alman pilotu Mixail Şumaxer sahib olub. O, Formula-1 yarışlarında yeddi dəfə çempion olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Formula-1 üzrə dünya çempionatının səkkizinci mərhələsinin - Azərbaycan Qran-Prisinin açılış mərasiminə və final yarışına baxıblar.

Formula-1 Azərbaycan Qran-Prisinin paytaxtın Azadlıq meydanında keçirilən möhtəşəm açılış mərasimi maraqlı anları ilə yadda qalıb. Milli mədəniyyətimizi Formula-1 dəyərləri ilə birləşdirən açılış mərasimi bir çox milli rəmzlərin vəhdətini yaratmaqla yüzlərlə könüllü, azərbaycanlı sənətçilər, milli qruplar və beynəlxalq ifaçılardan ibarət heyət tərəfindən təqdim edilib. Bu anlar bir daha təsdiqləyib ki, dünyada yarım milyard tamaşaçı auditoriyası olan Formula-1-in Bakıda keçirilməsi ölkəmizin beynəlxalq idman aləmində qazandığı uğurları bir daha əks etdirib. Birinci Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunlarından sonra Formula-1 kimi mühüm yarışın Bakıda keçirilməsi Azərbaycanın idman dövləti olduğunu, bu missiyanın ölkəmizin timsalında hər zaman özünü doğrultduğunu təsdiqləyir. Bütün bunlar Azərbaycanın dünyada getdikcə artan nüfuzundan, siyasi və iqtisadi sahədə qazandığı uğurların yetirincə olmasından qaynaqlanır.

Teatrlaşdırılmış səhnələrlə müşayiət olunan açılış mərasimində Azərbaycan mədəniyyətinin incə koloriti, milli rəqslərimiz və ən əsası da xalqımızın əsrlərdən bəri qoruyub saxladığı simvollar dünya tamaşaçılarına canlı yayımda nümayiş etdirilib. Beynəlxalq idman aləmi müstəqillik yolunda uğurla addımlayan Azərbaycanı bir daha tanıyıb. Qədim tarixə, zəngin mədəniyyətə, milli-mənəvi dəyərlərə, ən əsası da parlaq idman ənənələrinə malik ölkəmizin güclü potensialı dünyaya bir daha

nümayiş etdirilib. Dünya qarşıya qoyulan hər bir məqsədin, hər bir niyyətin sürətli inkişafı ilə örnək olan Azərbaycanda necə uğurla reallaşmasına şahidlik edib.



Formula-1 Azərbaycan Qran-Prisinin qalibi "Red Bull Racing" komandasının üzvü Daniel Rikkiardo olub. Pilot məsafəni 2 saat 3 dəqiqə 55 saniyəyə qət etib. İkinci yerə "Mercedes" komandasının üzvü Valtteri Bottas çıxıb. Üçüncü yerdə isə "Williams" komandasının pilotu kanadalı Lans Strol qərarlaşıb. Konstruktorlar kubokunun sahibi isə "Red Bull Racing" komandası olub.

Qalibin şərəfinə Avstriyanın və Avstraliyanın dövlət himnləri səsləndirilib. Sonra qaliblərə mükafatlar təqdim olunub.

Formula-1 Azərbaycan Qran-Prisinin çempionu Daniel Rikkiardoya kuboku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Konstruktorlar kubokunu "Red Bull Racing" komandasının nümayəndəsinə isə birinci xanım Mehriban Əliyeva təqdim edib.

Bununla da Formula-1 üzrə dünya çempionatının səkkizinci mərhələsi - Azərbaycan Qran-Prisi başa çatıb.



# Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin yeni inzibati binası istifadəyə verilib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib*





**İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nərimanov Rayon Məhkəməsinin yeni inzibati binasının açılışında iştirak edib.**



Ədliyyə naziri Fikrət Məmmədov dövlətimizin başçısına Azərbaycan Hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi və Ədliyyə Nazirliyinin həyata keçirdiyi "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində istifadəyə verilmiş, tikintisi aparılan və layihələndirilən müasir məhkəmə binaları və kompleksləri barədə məlumat verib.

Son illər paytaxtda və bölgələrdə 12 məhkəmə üçün yeni, müasir binalar və komplekslər tikilib. Prezident İlham Əliyev Sabunçu, Şəki Məhkəmə komplekslərinin, eləcə də Yasamal və Oğuz Rayon məhkəmələri üçün yeni binaların açılışlarında şəxsən iştirak edib. Hazırda 9 məhkəmə, o cümlədən Sumqayıt Məhkəmə Kompleksinin, Bakı şəhərinin Binəqədi, Suraxanı, eləcə də Zaqatala, Qəbələ və Masallı Rayon məhkəmələrinin yeni inzibati binalarının inşası aparılır.

Qeyd olunub ki, Nərimanov Rayon Məhkəməsinin yeni inzibati binasının inşasına 2015-ci ilin mayında başlanılıb. Tikinti işləri müasir standartlara uyğun və yüksək keyfiyyətlə aparılıb. BMT-nin "Əlillərin hüquqları haqqında" Konvensiyasına uyğun olaraq, binada onların sərbəst hərəkəti üçün bütün zəruri şərait yaradılmaqla yanaşı, girişdə əlillərin daxil olması üçün qaldırıcı qurğu quraşdırılıb.

Prezident İlham Əliyev Nərimanov Rayon Məhkəməsinin yeni inzibati binasının rəmzi açılışını bildirən lenti kəsib, burada yaradılan şəraitlə tanış olub.

Binanın foyesində ümummilli lider Heydər Əliyevin barelyefi quraşdırılıb. Burada, eyni zamanda, Ulu Öndərin və Prezident İlham Əliyevin ölkəmizdə məhkəmə-hüquq sisteminin inkişafına gös-



tərdikləri diqqət və qayğını əks etdirən fotoguşələr yaradılıb.



Nərimanov Rayon Məhkəməsi təxminən 200 minə yaxın əhaliyə xidmət edəcək. Burada 90 nəfər, o cümlədən 13 hakim, 80-ə yaxın məhkəmə aparatı əməkdaşı və digər hüquqşünaslar işləyəcək. Binada ümumilikdə 8 məhkəmə iclas zalı fəaliyyət göstərir. Azərbaycan Prezidentinin "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında Sərəncamına əsasən burada da bütün zəruri tədbirlər görülüb. Məhkəmə zallarında proseslərin daha dəqiq və sürətlə protokollaşdırılmasına xidmət edən, audio-video yazılışları aparan "Femida" sistemi, videokonfransların, təqdimatların keçirilməsi, elektron sənəd dövriyyəsi və məhkəmə işlərinin idarəetmə sistemi üçün qurğular quraşdırılıb. Təqsirləndirilən şəxslərin zalda vəkillə birbaşa əlaqə saxlamaları üçün müvafiq qurğular var.

Son vaxtlar tikilmiş məhkəmə binalarında olduğu kimi, müasir informasiya-kommunikasiya texnologiyalarının quraşdırıldığı Nərimanov Rayon Məhkəməsinin binası da inzibati və ictimai zonalara bölünür. Hər iki zonanın girişi ayrıdır. İnzibati zona hakimlər və məhkəmə işçiləri, ictimai zona isə vətəndaşlar üçün nəzərdə tutulub. Eyni zamanda, vəkillər, dövlət ittihamçıları və icra məmurları da ictimai zonadan istifadə edəcəklər. Binada hakimlər və vətəndaşlar arasında qeyri-prosessual münasibətlər məhdudlaşdırılır və onlar yalnız məhkəmə iclas zallarında görüşürlər. Bu isə şəffaflığın təmin edilməsində mühüm amildir. Burada gözdən əlil vətəndaşların sərbəst hərəkəti üçün mərtəbələrin döşəməsində xüsusi örtük, otaqların adlarını əks etdirən lövhələrdə və liftlərdə xüsusi yazılar var.

Nərimanov Rayon Məhkəməsinin binasında vətəndaşların müraciət imkanlarının asanlaşdırılması və məlumatlılığın təmin edilməsi məqsədilə məlumat nöqtələri, habelə müasir elektron informasiya daşıyıcıları, o cümlədən köşklər, lövhələr quraşdırılıb. Bunlar vətəndaşlara məhkəmə prosesləri və onların tarixi, vaxtı, məhkəmə zalı, hakimlər və digər məsələlərlə bağlı informasiyanı rahat



əldə etməyə imkan yaradır.



Binada yeməkxana və idman zalı da işçilərin ixtiyarına verilib. Burada işçilərin qidalanmaları, istirahəti və idmanla məşğul olmaları üçün hərtərəfli şərait var.

Prezident İlham Əliyev binanın balkonundan ətraf ərazini seyr edib.

Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev Prezident İlham Əliyevə Təbriz və Əhmədbəy Ağaoğlu küçələrinin kəsişdiyi ərazidə aparılan əsaslı tikinti işləri barədə məlumat verib. Bu ərazidə pilot layihə çərçivəsində 5 müasir yaşayış kompleksi inşa olunacaq. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, icra edilən bu layihələr ilk növbədə vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəlib.

Binanın konfrans zalında həm beynəlxalq, həm də ölkə səviyyəsində tədbirlər keçirmək mümkündür. Müasir avadanlıqla təchiz edilən zalda, həmçinin hakimlərə və məhkəmə işçilərinə Ədliyyə Nazirliyinin iclaslarına, müşavirə və toplantılarına, eləcə də Ali Məhkəmənin Plenumuna birbaşa qoşulmaq imkanı yaradılıb. Burada informasiya-kommunikasiya texnologiyalarının ən son yeniliklərindən istifadə edilir. Eyni zamanda, zalda tədris kurslarının keçirilməsi üçün də zəruri infrastruktur yaradılıb. Buradakı kitabxana məhkəmə-hüquq sahəsinə aid ədəbiyyatla, Azərbaycan həqiqətləri, dünya klassiklərinin əsərləri və digər maraqlı kitablarla zəngindir.

Prezident İlham Əliyevə "Elektron məhkəmə" informasiya sistemi barədə məlumat verilib. Ədalət mühakiməsinin həyata keçirilməsində şəffaflığın, insan və vətəndaş hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təmin edilməsi məqsədilə Prezident İlham Əliyevin 2014-cü il 13 fevral tarixli Sərəncamına əsasən "Elektron məhkəmə" informasiya sisteminin yaradılması üzrə işlər görülür, məhkəmə fəaliyyətinin elektronlaşdırılması və müasir informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi məqsədilə zəruri infrastruktur yaradılır. Dünya Bankı ilə birgə həyata keçirilən "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində elektron məhkəmənin tətbiqi üzrə tədbirlər sürətləndirilib, məhkəmə sisteminin

vahid internet portalı yeniləna-rək zənginləşdirilib, o cümlədən portalda "E-məhkəmə" bölməsi yaradılıb. Yeni inşa olunan müasir məhkəmə binalarında "Elektron məhkəmə" informasiya sisteminin bir çox komponentləri tətbiq edilir. Eyni zamanda, sistemin tərkib hissəsi olan "elektron icra"nın yaradılması üzrə tədbirlər görülərək icra qurumlarında onun bir sıra komponentlərinin tətbiqinə başlanılıb. Bundan başqa, məhkəmələrdə idarəetmənin təkmilləşdirilməsi məqsədilə yeni yaradılmış "Nəzarət pəncərəsi" modulu vasitəsilə məhkəmə sədri işlərin icra vəziyyətinə elektron qaydada nəzarət edəcək, hakimlər isə sənədin icra statusu barədə sistem tərəfindən məlumatlandırılacaqlar. "Elektron məhkəmə" informasiya sistemi üzrə toplanılan məlumatların saxlanılmasını və təhlükəsizliyini təmin etmək məqsədilə Ədliyyə Nazirliyinin əsas və ehtiyat məlumat mərkəzlərinin yaradılması üzrə də işlər aparılır. Avropa Şurası Ədalət Mühakiməsinin səmərəliliyi üzrə Avropa Komissiyasının 22 saylı elmi nəşrində ölkəmizdə tətbiq olunan yeniliklər və nailiyyətlər Avropa Şurası, Dünya Bankı və digər nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də təqdir olunur. Avropa Şurasının ekspertləri Azərbaycan Hökumətinin bu sahədə gördüyü işləri yüksək qiymətləndirərək belə qənaətə gəliblər ki, ədalət mühakiməsi sistemində səmərəli islahatların aparılması, məhkəmələrin mükəmməl infrastrukturunun yaradılması, ən müasir informasiya texnologiyalarının və yeniliklərin tətbiqi sahəsində Azərbaycan bir çox Avropa ölkələrinə nümunə ola bilər.





Məhkəmə binasında müasir gözləmə yerləri quraşdırılıb, körpə uşaqlı valideynlər üçün xüsusi otaqlar ayrılıb, vətəndaşlara tibb xidmətindən istifadə etmək üçün əlverişli şərait yaradılıb. Bir sözlə, burada yaradılan şərait göstərir ki, son illər ölkədə bütün sahələrə olduğu kimi, ədalət mühakiməsinin səmərəsinin artırılmasına da xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, məhkəmə sisteminin müasirləşdirilərək beynəlxalq standartlara tam uyğunlaşdırılması işləri uğurla aparılır.

Son illər yeni müasir məhkəmə komplekslərinin istifadəyə verilməsi dövlətimizin başçısının diqqəti və qayğısı sayəsində məhkəmə-hüquq sistemində aparılan köklü islahatların tərkib hissəsidir. Bütün bu layihələr ədalət mühakiməsinin səmərəliliyinin artırılması, vətəndaşların məhkəmələrə müraciət imkanlarının genişləndirilməsi, şəffaflığın və məhkəmə qərarlarının ədalətliliyinin və icrasının təmin olunmasında özünü aydın göstərir.

# Avropalı ekspertlər: Azərbaycanın məhkəmə sistemində apardığı səmərəli islahatlar bir çox ölkələrə nümunə ola bilər

## *Ədliyyə naziri Fikrət Məmmədovun AzərTAc-a müsahibəsi*

*Ölkəmizdə məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin artırılması ilə bağlı məqsədyönlü islahatlar aparılır, vətəndaşların müraciət imkanlarının asanlaşdırılması, elektron məhkəmə sisteminin tətbiqi üzrə mühüm işlər görülür, məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun yeni müasir infrastruktur yaradılır. Bununla əlaqədar oxucularımıza təfsilatı məlumat vermək üçün ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun fikirlərini bölüşmək istərdik.*









**- Hörmətli Fikrət müəllim, mətbuatda xəbər verildiyi kimi, bu günlərdə ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Bakı şəhəri Nərimanov Rayon Məhkəməsi üçün yeni müasir inzibati binanın açılışı olmuşdur. Bu münasibətlə Sizi, məhkəmə hakimiyyətinin təmsilçilərini təbrik edirik. Bu yeni binanın üstünlükləri barədə oxucularımıza məlumat verməyinizi istərdik.**

- Çox sağ olun. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin məhkəmə hakimiyyətinə verdiyi böyük önəmin təzahürü olaraq Nərimanov Rayon Məhkəməsinin yeni inzibati binasının açılışını şəxsən həyata keçirməsi hər bir məhkəmə və ədliyyə işçisi tərəfindən dərin minnətdarlıq hissi ilə qarşılanmışdır. Bu, dövlət başçısının iştirakı ilə istifadəyə verilən beşinci məhkəmə binasıdır.

Ümumiyyətlə isə, son illər məhkəmə infrastrukturunun müasirləşdirilməsi çərçivəsində ölkəmizdə konseptual baxımdan yeni olan, öz funksionallığı ilə fərqlənən Bakı şəhəri Sabunçu və Şəki Məhkəmə kompleksləri, paytaxtın Yasamal, eləcə də Gəncə, Oğuz, Gədəbəy, Quba və İmişli rayon məhkəmələri üçün yeni binaların və komplekslərin açılışları olmuşdur. Şəki Məhkəmə Kompleksinin açılışı zamanı dövlətimizin başçısı məhkəmə və ədliyyə işçiləri ilə keçirdiyi müşavirədə proqram xarakterli çıxış edərək məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı öz tövsiyə və tapşırıqlarını vermişdir.

Bu sahədə islahatlar davam olunur, hazırda 9 məhkəmə üçün müasir binaların inşası aparılmaqdadır.

Qeyd etməliyəm ki, digər müasir binalarda olduğu kimi, inzibati və ictimai zonalardan ibarət olan Nərimanov Rayon Məhkəməsinin yeni binası da müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunmuşdur. Burada "Elektron məhkəmə" informasiya sisteminin komponentlərinin tətbiqi, o cümlədən məhkəmə zallarında proseslərin dəqiq və sürətlə protokollaşdırılması və

audio-video yazılışların aparılması, elektron sənəd dövriyyəsi və s. ilə bağlı bütün zəruri infrastruktur yaradılmışdır.

Eyni zamanda, vətəndaşların müraciət imkanlarının asanlaşdırılması və məlumatlılığın təmin edilməsi məqsədilə məhkəmə prosesləri və onların keçiriləcəyi tarix, vaxt, məhkəmə zalı, hakimlər və digər məsələlərlə bağlı informasiyanı rahat əldə etməyə imkan yaradan müasir elektron informasiya köşkləri quraşdırılmışdır. Həmçinin, vətəndaşlara tibb, iaşə xidmətlərindən istifadə etmək üçün əlverişli şərait yaradılmış, körpə uşaqlı valideynlər üçün xüsusi otaqlar ayrılmışdır.

Bütün bunlar məhkəmə fəaliyyətinin daha səmərəli təşkil olunmasına, ədalət mühakiməsinə çatımlılığın asanlaşdırılmasına, onun səmərəsinə və keyfiyyətinə əsaslı təsir göstərir, insanlara daha əlverişli və rahat şərait yaradır.

**- Bilirik ki, məhkəmə sistemində aparılan islahatlara beynəlxalq qurumlar tərəfindən də böyük maraq göstərilir. Bu mənada Avropa Şurası, Dünya Bankı xüsusi qeyd olunmalıdır...**

- Doğrudan da insan haqlarının etibarlı təminatına yönəlmiş məhkəmə islahatlarımıza beynəlxalq qurumlar tərəfindən böyük maraq göstərilməsi, əldə olunan nailiyyətlərin təqdir olunması hər birimizdə iftixar hissi doğurur. Avropa Şurasının mühüm təsisatı olan Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) bütün üzv dövlətlərdə yayılan dövrü nəşrində Azərbaycanda həyata keçirilən məhkəmə islahatlarına böyük önəm verərək buna ayrıca bölmə həsr etmişdir. Avropalı ekspertlər Azərbaycan hakimiyyətinin bu sahədə gördüyü işləri yüksək qiymətləndirmiş və belə qənaətə gəlmişlər ki, ədalət mühakiməsi sistemində səmərəli islahatların aparılması, məhkəmələrin unikal infrastrukturunun yaradılması, ən müasir informasiya texnologiyalarının və yeniliklərin tətbiqində Azərbaycan bir çox Avropa ölkələrinə nümunə ola bilər.

Eyni zamanda, bu sahədə islahatların mütərəqqiliyini və uğurlu nəticələrini görən nüfuzlu beynəlxalq maliyyə qurumu olan Dünya Bankı ilə səmərəli əməkdaşlıq qurularaq məhkəmə infrastrukturunun müasirləşdirilməsi, elektron məhkəmə sisteminin tətbiqi, mediasiya, yuvenal ədliyyə və s. üzrə birgə layihələr həyata keçirilir.

Qeyd olunmalıdır ki, Dünya Bankı Azərbaycanda ədliyyə sahəsindəki layihələri ən uğurlu layihələrindən biri kimi qiymətləndirmiş və "Vətəndaşlara yüksək səviyyəli xidmətlərin göstərilməsi məqsədi ilə müasir infrastrukturun yaradılması" nominasiyasının qalibi elan etmişdir.

**- Fikrət müəllim, məhkəmə sistemində aparılan islahatlar, həmçinin məhkəmələrə ictimai etimadı yüksəldir. Bunun təzahürü olaraq, yəqin ki, ədalət mühakiməsini həyata keçirən hakimlərin də iş yükü xeyli artmışdır...**

- Elədir. Görülmüş kompleks tədbirlər nəticəsində cəmiyyətdə məhkəmələrə inam xeyli artmışdır. Artıq insanlar pozulmuş hüquqlarının bərpası üçün məhkəməyə müraciət etməyə daha çox üstünlük verirlər. Dövlət başçısının 2014-cü il 13 fevral tarixli Sərəncamına uyğun olaraq məhkəmə fəaliyyətinin elektronlaşdırılması və bu məqsədlə elektron məhkəmə sisteminin tətbiqi ilə vətəndaşlar məhkəmələrə, həmçinin elektron qaydada müraciət etmək imkanı əldə etmişlər. Eyni zamanda, Dünya Bankı ilə birgə həyata keçirilən "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində məhkəmə sisteminin vahid internet portalı (www.courts.gov.az) yenilənərək zənginləşdirilmiş, o cümlədən portalda "E-məhkəmə" bölməsi yaradılmışdır.

Vətəndaşlar portal vasitəsilə məhkəmələr barədə daha ətraflı məlumatları əldə etmək, "şəxsi kabinetdən" istifadə etmək, iqtisadi mübahisələrlə bağlı elektron qaydada iddia ərizələri vermək, baxılan işlər, keçirilən iclaslar və çıxarılan qərarlar barədə elektron qaydada məlumatları almaq, məhkəmə rüsumlarını elektron qaydada ödəmək və s. imkanı qazanmışlar.

Qeyd etmək istərdim ki, cari ilin sonunadək elektron məhkəmə sistemi ölkə üzrə bütün məhkəmələrin 60 faizini əhatə edəcəkdir. Eyni zamanda, sistemin tərkib hissəsi olan "elektron icra"nın yaradılması üzrə tədbirlər görülərək icra qurumlarında onun bir sıra komponentlərinin tətbiqinə başlanılmışdır. Cari ilin əvvəlindən isə iqtisadi mübahisələr üzrə məhkəmə iclaslarının fasiləsiz video-audio yazısının aparılması təmin olunur.

Sözsüz ki, ədalət mühakiməsinə çıxışın xeyli asanlaşması məhkəmələrdə baxılan işlərin sayının kəskin artmasına gətirib çıxarmışdır. Məhkəmə

statistikasına diqqət yetirsək görərik ki, yeni məhkəmə sisteminin fəaliyyətə başladığı 2000-ci illə müqayisədə məhkəmələrdə baxılan mülki xarakterli işlərin sayı 21 dəfə artaraq 470 mini ötmüşdür. Lakin buna baxmayaraq hakimlərimiz iş yükünün öhdəsindən layiqincə gəlməyə çalışırlar. Təsadüfi deyil ki, birinci instansiya məhkəmələri tərəfindən mülki xarakterli işlər üzrə çıxarılmış qərarların təxminən 98 faizi sabit qalmışdır.

Ötən dövrdə hakimlərin sayının iki dəfə artırılmasına baxmayaraq ölkəmizdə hakimlərin əhaliyə nisbətdə sayı da Avropa dövlətləri ilə müqayisədə daha azdır, hər 100 min nəfərə 6 hakim düşür. Halbuki, bəzi Avropa dövlətlərində bu göstərici 20-dən artıqdır. Hazırda vakant hakim ştatlarının komplektləşdirilməsi üzrə tədbirlər görülür, 126 nəfər hakimliyə namizəd şəffaf seçim əsasında imtahanlardan uğur qazanaraq Ədliyyə Akademiyasında tədris kursundadır.

Sözsüz ki, iş yükünün azaldılmasına təkcə hakimlərin sayının artırılması ilə nail olmaq mümkün deyil. Bununla əlaqədar məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılması, məhkəmələrin iş yükünün azaldılması ilə bağlı təhlillər aparılır, mülki xarakterli işlərin məhkəmədən kənar həlli yolları axtarılır, bu sahədə beynəlxalq təcrübə öyrənilir.

Məhkəmələrin çıxardıqları qərarların icrasına xitam verilməsi səlahiyyətlərinin icra məmurlarına verilməsi məhkəmələrdə iş yükünün azalmasına təsir göstərmiş, həmçinin bu sahədə operativliyə nail olunmuş, əlavə yazışmalara son qoyulmuş, vaxta və dövlət xərclərinə qənaət edilmişdir. Bununla yanaşı, vətəndaşların hüquqlarının etibarlı təmin olunması məqsədilə icra məmurunun qərarından məhkəməyə şikayət vermək hüququ təsbit edilmişdir.

Eyni zamanda, mülki xarakterli işlərin təxminən 60 faizini əmr icraatı qaydasında baxılan mübahisəsiz pul və əmlak tələbləri ilə bağlı işlər təşkil edir. Bu sahədə inkişaf etmiş xarici dövlətlərin təcrübəsi göstərir ki, əmr icraatı ilə bağlı işlərə məhkəmədən kənar mərkəzləşdirilmiş formada elektron qaydada baxılır. Bununla əlaqədar xüsusi proqram təminatı yaradılmış, bu cür işlərə elektron sistemlər tətbiq olunmaqla ən qısa müddətdə baxılması mexanizmləri işlənilir, müvafiq qanun layihələri hazırlanır.

Düşünürəm ki, bu sahədə yeni prosedurun tətbiqi məhkəmələrin iş yükünün azalmasına, məsələnin operativ həllinə, insan resurslarının səmərəli istifadəsinə, işlərə daha qısa müddətdə baxılmasına öz müsbət təsirini göstərəcəkdir.

Mübahisələrin məhkəmədən kənar alternativ həllində mühüm rol oynayan mediasiya institutu xüsusilə əhəmiyyətlidir. Məlumdur ki, bütün dünyada mütərəqqi institut kimi mediasiya geniş tətbiq olunur.

Ölkəmizdə də mediasiya institutunun yaradılması gündəlikdə olmuş, bu məqsədlə ötən dövrdə bir sıra addımlar atılmış, o cümlədən beynəlxalq təcrübə öyrənilmiş və Azərbaycan üçün potensial mediasiya modelinə dair təkliflər hazırlanmışdır. Həmçinin, Avropa Şurası və Avropa İttifaqı ilə bu sahədə birgə layihələrin təşviqinə dair razılığa gəlinmişdir.

Dövlət başçısının ötən ilin dekabrında təsdiq etdiyi "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə cari ildə mediasiya haqqında qanun layihəsinin hazırlanması və Mediasiya Şurasının yaradılması ilə bağlı konkret tapşırıqların verilməsi, şübhəsiz ki, ölkəmizdə bu institutun inkişafına təkan olacaqdır.

**- Ölkəmiz, həmçinin İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin yurisdiksiyasına aiddir. Avropa Məhkəməsinin presedentlərinin tətbiqi üzrə hansı tədbirlər görülür?**

- Qeyd etməliyəm ki, Avropa Məhkəməsinin yurisdiksiyası Azərbaycana 2002-ci ilin aprel ayından şamil olunur. Bununla əlaqədar məhkəmə fəaliyyətinin təkmilləşdirilməsində İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi və tətbiqinə müstəsna əhəmiyyət verilir. Bu məqsədlə tanınmış mütəxəssislərin iştirakı ilə müxtəlif tədris tədbirləri, konvensiyanın tətbiqi problemləri ilə bağlı Ali Məhkəmədə həftəlik seminarlar, ayrıca təlimlər təşkil olunur. Həmçinin bu sahədə Avropa Şurası ilə birgə Ədliyyə Akademiyası tərəfindən hakimlər, hakimliyə namizədlər və digər hüquqşünaslar üçün iki illik xüsusi layihə həyata keçirilir.

Avropa Məhkəməsinin qərarları, o cümlədən Azərbaycanla bağlı qəbul etdiyi qərarlar hakimlər arasında geniş yayılır. Bu məsələnin əhəmiyyəti nəzərə alınaraq Ali Məhkəmənin Plenumunda müzakirə olunmuş, bütün məhkəmələrin diqqəti Avropa Məhkəməsinin presedent hüququnun tətbiqinə cəlb edilmiş və müvafiq tövsiyələr verilmişdir.

Bu sahədə Avropa Məhkəməsinin hakimləri ilə birbaşa təmasların böyük səmərəsi nəzərə alınaraq son illər ərzində Məhkəmənin 20 hakimi, o cümlədən sədrləri ölkəmizə səfərlər etmiş, təlimlər keçirilərək mühazirələr oxumuşlar.

Təhlillər göstərir ki, Avropa Məhkəməsinin özündə hədsiz iş yükü vardır. Bu isə üzv dövlətlərin milli məhkəmə sistemlərində qüsurların olması ilə səciyyələndirilir. Bununla əlaqədar Avropa Məhkəməsinin fəaliyyətinin səmərəliliyinin artırılmasına dair ötən dövrdə bir neçə konfrans keçirilmiş, problemin həlli yolları araşdırılmış, həmçinin üzv dövlətlərdə məhkəmə sistemlərinin təkmilləşdirilməsi ilə bağlı əhatəli sənədlər qəbul olunmuşdur. Həmin konfranslarda ölkəmiz də fəal təmsil olunmuş, Azərbaycanda dövlət başçısının rəhbərliyi ilə məhkəmə sistemində aparılan və məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin olunmasına xidmət edən islahatlar barədə fikir və təcrübə mübadiləsi aparılmışdır. Təsadüfi deyil ki, bu sahədə sürətli islahatların Azərbaycanda həyata keçirilməsi etiraf olunmuş və görülən işlərə böyük maraq göstərilmişdir.

Konfranslar zamanı qəbul olunmuş bəyannamələrin implementasiyasına xüsusi diqqət yetirilərək bu mühüm sənədlərin mahiyyətinin ictimaiyyətə çatdırılması məqsədi ilə bu sənədlər dərhal tərcümə olunaraq nazirliyin və Məhkəmə-Hüquq Şurasının internet saytlarında (www.justice.gov.az, www.jlc.gov.az) yerləşdirilmişdir. Bundan əlavə, qəbuledilmə tələblərinə cavab verməyən şikayətlərin sayının azalmasında mühüm rolu olan Avropa Məhkəməsinin Şikayətlərin qəbul olunması kriteriyalarına dair praktiki bələdçi də nazirlikdə Azərbaycan dilinə tərcümə olunmuş və veb-saytda yerləşdirilmişdir.

Eyni zamanda, hakimlərimizin və digər hüquqşünasların Avropa Məhkəməsində təcrübə keçmələri diqqətdə saxlanılaraq son illər 110 nəfər hakim, prokuror və vəkillər Strasburqda tədris səfərlərində olmuşlar. Yeri gəlmişkən, hazırda hakimliyə namizədlərimiz həmin Məhkəmədə praktiki təlimlərə cəlb olunmuşdur. Bundan əlavə dövlət başçısının təşəbbüsü ilə bir nəfər hakimimiz Strasburq Məhkəməsinə ezam olunmuş və bu təşəbbüs Avropa Məhkəməsinin sədri tərəfindən yüksək qiymətləndirilərək belə bir təcrübənin davam etdirilməsi barədə razılığa gəlinmişdir.

Avropa Məhkəməsinin qərarlarının icrasına da xüsusi önəm verilir. Qeyd etməliyəm ki, bu qərarlar, ilk növbədə, hüquq sisteminin daha da təkmilləşdirilməsi və inkişafı, insan haqlarının etibarlı təminatı naminə əsaslı mənbə kimi qəbul olunur. Elə Məhkəmənin presedent hüququ da məhz buna xidmət edir.

Azərbaycana qarşı Avropa Məhkəməsi tərəfindən çıxarılan qərarların sayı digər ölkələrlə müqayisədə qat-qat azdır. Belə ki, 2016-cı ildə Azərbaycana qarşı çıxarılan qərarların sayı cəmi 16 təşkil etmişdir. Halbuki əhalisinin sayı Azərbaycanla təxminən eyni olan Bolqarıstana qarşı 33, Macarıstana qarşı 40, Yunanıstana qarşı isə 41 qərar çıxarılmışdır. Ümumiyyətlə, Məhkəmənin fəaliyyətinə nəzər yetirsək görərik ki, çıxarılan bütün qərarların təxminən yarısı yalnız 4 ölkəyə: Rusiya, Ukrayna, Türkiyə və Rumıniyaya qarşı olmuşdur.

Avropa Məhkəməsinə Azərbaycandan daxil olan şikayətlərin sayı isə ümumi Avropa göstəricisindən demək olar ki, 2 dəfə azdır. Belə ki, Avropada 10 min əhaliyə orta hesabla 0.64 şikayət düşdüyü halda, bu göstərici Azərbaycan üzrə 0.34 təşkil edir. Ölkəmizlə müqayisədə digər dövlətlərdən, o cümlədən Avropa İttifaqının üzvlərindən olan Macarıstandan 16 dəfə, Rumıniyadan 12 dəfə, habelə Bosniya və Herseqovinadan 8 dəfə çox şikayət daxil olmuşdur.

Amma bu bizdə heç də arxayınlıq yaratmır, Avropa Konvensiyasının və məhkəmə presedentlərinin öyrənilməsi və tətbiqi, habelə hüquq sistemimizin inkişafı naminə istifadəsi işi əzmlə davam etdirilir.

Möhtərəm Prezidentimizin diqqəti və qayğısı sayəsində bütün sahələrdə olduğu kimi, məhkəmə sistemində də islahatlar uğurla həyata keçirilir, insan hüquqlarının etibarlı müdafiəsi, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, məhkəmə qərarlarının ədalətliliyinin və icrasının təmin olunması ilə bağlı məqsədyönlü işlər davam olunur, məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi ilə bağlı qanunvericilik daim təkmilləşdirilir, o cümlədən Milli Məclisin son iclasında daha iki yeni qanun qəbul olunmuşdur.

**-Fikrət müəllim, bizə vaxt ayırdığınıza və dəyərli fikirlərinizlə bölüşdüyünüzə görə dərin minnətdarlığımızı bildirir, bilavasitə insanlara, onların hüquqlarının etibarlı təminatına yönəlmiş məhkəmə islahatlarının həyata keçirilməsində uğurlar arzulayırıq.**

# Milli Qurtuluş günü ədliyyə orqanlarında qeyd olunub



**Azərbaycanın 26 illik müstəqillik tarixində ölkəmizin və xalqımızın bu günü və gələcəyi üçün müstəsna əhəmiyyət daşıyan və hər il geniş qeyd edilən ən əziz bayramlardan olan 15 iyun - Milli Qurtuluş Gününün tarixi önəmi illər ötdükcə daha aydın dərk olunur. Məhz 1993-cü ilin 15 iyununda xalqımızın xilaskar oğlu, ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə respublikamız dərin ictimai-siyasi, iqtisadi böhrandan çıxaraq intibah dövrünə qədəm qoymuşdur. Ulu Öndərin müstəqilliyimizin qorunub möhkəmləndirilməsində, demokratik hüquqi dövlət quruculuğunun inkişafında müstəsna rolu və misilsiz xidmətləri qədirbilən xalqımız tərəfindən daim uca tutulur.**

Milli Qurtuluş Günü Ədliyyə Nazirliyinin bütün struktur qurumlarında geniş qeyd olunub, Ümummilli Liderin nazirlikdəki büstü önünə gül dəstələri düzülüb, əziz xatirəsi dərin ehtiramla yad edilib. Əlamətdar bayram münasibətilə nazirliyin kollektivi ilə yığıncaqlar, o cümlədən gənc ədliyyə işçiləri ilə görüş keçirilərək, əbədiyaşar lider Heydər Əliyevin güclü idarəçilik bacarığı, xilaskarlıq missiyası, titanik fəaliyyəti haqqında ətraflı bəhs olunub.

Tədbirlərdə müstəqilliyimizin bərpasından sonra onu yenidən itirmək təhlükəsi, ictimai-siyasi, sosial-iqtisadi problemlər, vətəndaş müharibəsi ilə üzləşən Azərbaycanı bu ağır vəziyyətdən xilas edərək dirçəliş yoluna çıxaran ulu öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən danışılıb, Ümummilli Liderin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyasının ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi, ölkəmizin gündən-günə çiçəklənməsi, xalqımızın bütün sahələrdə yüksək nailiyyətlər qazanması vurğulanıb.

Ulu Öndərin dövlətçilik amallarına daim sadiq qalan ədliyyə işçiləri ölkəmizin hərtərəfli inkişafı naminə bundan sonra da dövlət başçısına layiqli yardımçı olmaq üçün əllərindən gələni əsirgəməyəcəklərini söyləyiblər.

Bayramla əlaqədar həmçinin, nazirlikdə Heydər Əliyev muzeyində dahi öndərin zəngin həyat və fəaliyyətini əks etdirən ekspozisiyalarla tanış olunub, nazirliyin kinozalında filmlər, eləcə elektron məlumat lövhəsində foto-slaydlar nümayiş etdirilib.

# Ədliyyə naziri Lerik rayonunda vətəndaşları qəbul edib

**Ölkə Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, bu zaman ədalət prinsipinin tam təmin olunması ilə bağlı tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq iyunun 8-də ədliyyə naziri Fikrət Məmmədov Lerik rayonu Mədəniyyət Mərkəzində Lənkəran, Astara, Lerik və digər rayon və şəhərlərdən olan vətəndaşların qəbulunu keçirib.

Qəbuldan əvvəl nazir və Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə qəbulda iştirak edən nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.



Vətəndaşlar bölgə sakinlərinin yerindəcə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Səfər zamanı ədliyyə naziri, həmçinin yerli məhkəmə və ədliyyə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, bölgənin hakimləri və ədliyyə işçiləri ilə müşavirə keçirib.

Nazir ölkə Prezidentinin cari ilin fevralında imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamının müstəsna əhəmiyyətini vurğulayaraq, vətəndaşların azadlıq hüququnun qorunmasına daha məsuliyyətlə yanaşılmasını, habelə şəffaflığın, məhkəmə qərarlarının ədalətliliyinin və icrasının təmin olunmasının vacibliyini, eləcə də qərəzli yanaşmanın, korrupsiyaya şərait yaradan halların yolverilməzliyini qeyd edib, aidiyyəti tövsiyə və tapşırıqlar verib.

Eyni zamanda, məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, rüşvətxorluğa, qanunsuz tələblərə və digər neqativ hallara son qoyulması, hər bir məmurun təvazökar olması ilə bağlı dövlət başçısının tələbləri diqqətə çatdırılaraq etik davranış qaydalarına dönmədən əməl olunması, vətəndaşlara daha həssas və qayğı ilə yanaşılması vurğulanıb.

# Ədliyyə Nazirliyinin Kollegiya iclası keçirilib

**İyunun 29-da ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə nazirliyin kollegiya iclası keçirilib.**

İclasda ümummilli lider Heydər Əliyevin siyasi kursunun möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi, respublikamızın hərtərəfli inkişafının, sabitliyin və təhlükəsizliyin təmin olunması vurğulanıb, demokratik hüquqi dövlət quruculuğunda, xüsusilə məhkəmə-hüquq islahatlarında nailiyyətlər qeyd olunub.

Bildirilib ki, dövlət başçısının rəhbərliyi ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılması, vətəndaşların məhkəmələrə müraciət imkanlarının genişləndirilməsi, şəffaflığın və məhkəmə qərarlarının ədalətliliyinin və icrasının təmin olunması üzrə məqsədyönlü tədbirlər görülür, məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi ilə bağlı qanunvericilik daim təkmilləşdirilir, o cümlədən təzəlikcə daha iki yeni qanun qəbul olunub.

Həmçinin, məhkəmə infrastrukturun təkmilləşdirilməsi üzrə Dünya Bankı ilə birgə, habelə dövlət büdcəsi hesabına tədbirlər görülür, məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun yeni müasir binalar inşa olunur. Ötən həftə Dünya Bankı ilə birgə layihə çərçivəsində inşa olunmuş Nərimanov Rayon Məhkəməsinin yeni müasir binasının ölkə Prezidentinin şəxsən açılışını etməsi hər bir məhkəmə və ədliyyə işçisi tərəfindən yüksək iftixar hissi ilə qarşılanıb.

Azərbaycan dövlətinin bu sahədə gördüyü işlər, o cümlədən ədalət mühakiməsi sistemində səmərəli islahatların aparılması, məhkəmələrin unikal infrastrukturunun yaradılması, ən müasir informasiya texnologiyalarının tətbiqi beynəlxalq aləmdə yüksək dəyərləndirilir.

Hazırda bu sahədə islahatlar davam olunur, hakimliyə namizədlərin seçimi aparılaraq tədrisi həyata keçirilir, hakimlərin fəaliyyəti qiymətləndirilir, məhkəmələrdə iş yükünün azaldılması ilə bağlı



təhlillər aparılır, bu sahədə beynəlxalq təcrübə öyrənilir, mövcud mexanizmlər və qanunvericilik təkmilləşdirilir, vətəndaşlara elektron xidmətlərin göstərilməsi üzrə davamlı tədbirlər görülür. Kollegiyada məhkəmə-hüquq sahəsində həyata keçirilən işlərə dair geniş prezentasiya nümayiş etdirilib.

İclasda ədliyyə orqanlarının fəaliyyət istiqamətləri üzrə cari ilin ötən dövründə görülmüş işlər müzakirə olunub, açıq hökumətin təşviqi, məhkəmə qərarlarının icrası, qeydiyyat və notariat, informasiya-kommunikasiya texnologiyaları sahəsində, məhkumların hüquqlarının təmin olunması, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi, beynəlxalq əməkdaşlıq üzrə görülmüş önəmli tədbirlər qeyd olunub.

Eyni zamanda növbəti yarım il üçün əsas prioritetlər, o cümlədən dövlət başçısının cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası üzrə tədbirlərin davam etdirilməsi, azadlıqdan məhrum edilmiş şəxslərin ictimai faydalı əməyə cəlb olunmasının stimullaşdırılması üçün əlavə tədbirlərin görülməsi, hüquqi aktların layihələrinin ekspertizasının təkmilləşdirilməsi, ədliyyə orqanlarında şəffaflığın və vətəndaş məmnunluğunun artırılması, elektron sənəd dövriyyəsinin tam təmin olunması, Ədliyyə Akademiyasının elmi fəaliyyətinin genişləndirilməsi, kadr işinin təkmilləşdirilməsi və digər konkret tədbirlər müəyyən edilib.

İclasda həmçinin, məhkəmə ekspertizası fəaliyyətinə dair hesabat əyani təqdimatla müşayiət olunmaqla dinlənilib. Qeyd olunub ki, ölkəmizdə ədliyyə sisteminin inkişafı üzrə görülən tədbirlər çərçivəsində Məhkəmə ekspertizası mərkəzinin fəaliyyəti təkmilləşdirilib, maddi-texniki bazası möhkəmləndirilib, yeni növ ekspertizaların aparılmasına və akkreditasiya nəticəsində ekspert rəylərinin beynəlxalq miqyasda tanınmasına nail olunub. Eyni zamanda məhkəmə-istintaq orqanlarına köməklik və ekspert araşdırmalarının operativliyini təmin etmək məqsədi ilə Mərkəzin Gəncə, Şirvan və Şəki regional filialları yaradılıb.



Təkcə ötən il ərzində Mərkəzə 41 ekspert ixtisası üzrə 31 minə yaxın iş daxil olub, ekspertlər 578 mindən çox suala cavab verməklə qaldırılmış məsələlərin 99,7 %-ni həll ediblər. Həmçinin, ekspertizaların təyini, aparılması və ekspert rəylərinin qiymətləndirilməsi ilə bağlı məhkəmə və hüquq mühafizə orqanlarına 110-dək metodik məsləhət, habelə cinayətin baş verməsinə səbəb olan şəraiti və halları aşkar etmək, onların qarşısının alınması üçün 900-dən

çox profilaktik tövsiyə verilib, 30 mövzu üzrə elmi-tədqiqat işləri aparılıb və 7 metodik vəsait hazırlanıb.

Həmçinin, ekspertiza sahəsində beynəlxalq əlaqələr genişlənib, Mərkəz Avropa Məhkəmə Ekspertizası İnstitutları Birliyinə (ENFSI) üzv qəbul edilib. Ötən il dövlət başçısının Türkiyəyə səfəri zamanı məhkəmə ekspertizası sahəsində əməkdaşlıq haqqında Saziş imzalanıb, Sazişin implementasiyası çərçivəsində Türkiyə Daxili İşlər Nazirliyinin nümayəndə heyəti bu ayın əvvəlində Azərbaycana səfər edərək, ölkəmizin təcrübəsi ilə tanış olublar.

Kollegiyada bu sahədə görülmüş işlərlə yanaşı, qarşıda duran vəzifələr müzakirə olunub, o cümlədən ekspertiza tədqiqatlarının keyfiyyətinin və mötəbərliyinin artırılması, yeni ekspertiza növlərinin tətbiqi, habelə mərkəzin maddi-texniki bazasının gücləndirilməsi, elmi-tədqiqat işinin səmərəliliyinin yüksəldilməsi, kadr potensialının möhkəmləndirilməsi, mövcud vakansiyaların doldurulması və s. ilə bağlı aidiyyəti tapşırıqlar verilib.

Bununla yanaşı, ədliyyə fəaliyyətini tənzimləyən bəzi normativ-hüquqi akt layihələrinə baxılıb, bir sıra qeyri-kommersiya hüquqi şəxslər dövlət qeydiyyatına alınıb.

# Azərbaycan-Ukrayna: hüquqi əməkdaşlıq genişlənir



**Azərbaycan-Ukrayna əlaqələri müxtəlif sahələrdə uğurla inkişaf edir. Zəngin müqavilə bazasına söykənən bu münasibətlərdə hüquq əməkdaşlığı da xüsusi yer tutur. İki ölkə arasında bağlanmış dövlətlərarası müqavilələr, həmçinin Ədliyyə nazirlikləri arasında imzalanmış əməkdaşlığa dair Saziş çərçivəsində səmərəli qarşılıqlı fəaliyyət həyata keçirilir.**



Əməkdaşlığın genişləndirilməsi məqsədilə cari il iyunun 23-də Ukraynanın ədliyyə naziri Pavlo Petrenko və nazir müavini Qiya Qesadze ölkəmizə səfərə gəliblər.

Səfər zamanı qonaqlar əvvəlcə Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad edərək məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılaraq, məzarı üzərinə tər çiçəklər düzülüb. Qonaqlar həmçinin, Şəhidlər Xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin



*Ədliyyə Nazirliyində görüş*



*Ali Məhkəmədə görüş*



*"ASAN xidmət"lə tanışlıq*

məzarlarını ziyarət edərək Əbədi məşəl abidəsi önünə əklil qoyublar.

Sonra Ədliyyə Nazirliyində respublikamızın ədliyyə naziri Fikrət Məmmədovun və Ukraynanın ədliyyə naziri Pavlo Petrenkonun görüşü keçirilib.

Görüşdə ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı qeyd olunaraq bu əlaqələrin möhkəmlənməsində dövlət başçılarının xüsusi rolu vurğulanıb. Həmçinin hüquqi sahədə əməkdaşlığa toxunularaq qarşılıqlı fəaliyyətin genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirilib, hər iki dövlətdə ədliyyə və məhkəmə sahəsində aparılan islahatlar barədə faydalı fikir mübadiləsi aparılıb.

Nazir F.Məmmədov ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə sistemində aparılan islahatlar, o cümlədən məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi ilə bağlı qanunvericiliyin daim təkmilləşdirilməsi, elektron məhkəmənin tətbiqi, hakimlərin Avropa Şurası və Avropa İttifaqı tərəfindən örnək kimi dəyərləndirilən ən şəffaf seçimi barədə məlumat verib, məhkəmə infrastrukturunun müasirləşdirilməsi üzrə tədbirlərdən bəhs edərək dövlət başçısının iştirakı ilə Nərimanov Rayon Məhkəməsinin müasir inzibati binasının yenicə açılışını xüsusi vurğulayıb. Həmçinin, Azərbaycan brendi olan və ədliyyənin də müvafiq xidmətlər göstərdiyi "ASAN xidmət"in vətəndaş məmnunluğunu təmin edən fəaliyyətindən bəhs olunub.

Azərbaycana ilk dəfə səfərindən məmnunluğunu bildirən ukraynalı nazir bir-birinə yaxın və dost olan ölkələrimizin bütün sahələrdə uğurla əməkdaşlıq etdiyini vurğulayıb, respublikamızda aparılan məhkəmə-hüquq islahatlarına böyük maraq göstərərək təqdir edib, öz ölkəsində də bu sahədə köklü islahatların aparıldığını bildirib. Nazir P.Petrenko hüquqi sahədə təcrübə mübadiləsinin əhəmiyyətini qeyd edərək bunun üçün qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsində maraqlı olduğunu söyləyib.

Söhbət zamanı həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı həqiqətləri diqqətə çatdırılıb, Ukrayna tərəfi Azərbaycanın ərazi bütövlüyünü və beynəlxalq təşkilatlarda haqlı

mövqeyini daim dəstəklədiyini bildirib.

Görüşdə əməkdaşlığın perspektivləri müzakirə olunub, probasiya və mediasiya institutunun tətbiqi, əhaliyə hüquqi xidmətlərin göstərilməsi, notariat institutunun fəaliyyəti, korrupsiyaya qarşı mübarizə və digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

Tədbirdə Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev və ədliyyə nazirinin müavini Toğrul Musayev iştirak ediblər.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olub, nümayəndə heyətinə müasir ədliyyə fəaliyyətinə, ölkədə həyata keçirilən məhkəmə-hüquq islahatlarına dair, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı materialları əks etdirən xüsusi broşürlər təqdim edilib.

Həmin gün nazir P.Petrenkonun Ali Məhkəmədə görüşü olub, qonaqlar həmçinin, "ASAN" xidmətin fəaliyyəti, eləcə də Bakının tarixi və mədəni abidələri, o cümlədən Heydər Əliyev Mərkəzi ilə tanış olublar. Ukraynalı nazir səfər zamanı in eyni vaxta təsadüf edgn Bakıda keçirilən dünyanın ən nüfuzlu idman yarışlarından olan Formula-1 Azərbaycan Qran-Prisini də izləyib.

# Ədliyyə nazirinin ECO təşkilatının iclası çərçivəsində görüşləri olub



**İyunun 6-da Bakıda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv dövlətlərin prokurorluq, ixtisaslaşdırılmış korrupsiyaya qarşı mübarizə qurumlarının rəhbərlərinin və ombudsmanlarının üçüncü iclasında iştirak edən ədliyyə naziri, Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının vitse-prezidenti Fikrət Məmmədov tədbir çərçivəsində bir sıra görüşlər keçirib.**



*İranın Dövlət Baş Müfəttişliyinin sədri Naser Seraj ilə görüş*

İran İslam Respublikasının Dövlət Baş Müfəttişliyinin sədri Naser Seraj ilə keçirilmiş görüşdə xalqlarımız arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olunaraq bu əlaqələrin dərinləşməsində dövlət başçılarının xüsusi rolu və qarşılıqlı səfərlərinin mühüm əhəmiyyəti vurğulanıb. Həmçinin, ölkələrimizin zəngin müqavilə bazasına söykənən hüquqi sahədə əməkdaşlığına toxunularaq qarşılıqlı fəaliyyətin perspektivləri barədə faydalı fikir mübadiləsi aparılıb.

Nazir ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunması çərçivəsində İslam dünyası ilə əlaqələrə xüsusi əhəmiyyət verildiyini, bunun təzahürü olaraq cari ilin fevralında İranın ədliyyə nazirinin ölkəmizə məhsuldar səfərini qeyd edib, N.Serajla bir sıra qlobal antikorrupsiya tədbirlərində faydalı görüşlərini xatırladıb.

Səfər zamanı ölkəmizin hərtərəfli inkişafının şahidi olduğunu söyləyən qonaq 400 milyon əhalini birləşdirən ECO təşkilatının əhəmiyyəti və fəaliy-



Beynəlxalq Antikorrupsiya Akademiyasının rəhbəri Martin Kreutner ilə görüş

yəti barədə məlumat verib, ölkəsində həyata keçirilən antikorrupsiya tədbirlərindən, habelə İranda yaradılmış Beynəlxalq Ombudsman Akademiyasının fəaliyyətindən bəhs edib. O, həmçinin hüquqi sahədə əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu söyləyib, İranın ədliyyə nazirinin salamlarını çatdırıb.

Tədbir çərçivəsində ədliyyə naziri Beynəlxalq Antikorrupsiya Akademiyasının rəhbəri, Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası İcraiyyə Komitəsinin üzvü Martin Kreutner ilə görüşüb.

Görüşdə M.Kreutner Azərbaycan və Beynəlxalq Antikorrupsiya Akademiyasının uğurlu əməkdaşlığını qeyd edib, ölkəmizin qurumun işinə dəstəyini təqdir edərək onun davam etdirilməsinin əhəmiyyətini, habelə azərbaycanlı məzunların Akademiyada yüksək nəticələr əldə etməsini vurğulayıb. Həmçinin, F.Məmmədovun və M.Kreutnerin rəhbərliyində təmsil olunduğu Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının korrupsiyaya qarşı aparılan qlobal mübarizədə rolu qeyd olunub, qurumun inkişaf perspektivləri, növbəti konfransın keçirilməsi və digər məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb.



Türkiyənin Baş Prokurorunun müavini Halil Adıgözəl ilə görüş

Eyni zamanda, Türkiyənin Baş Prokurorunun müavini Halil Adıgözəl ilə görüş keçirilərək dost və qardaş ölkələrimiz arasında bütün istiqamətlərdə, o cümlədən hüquqi sahədə əməkdaşlığa dair danışıqlar aparılıb, Türkiyədə bu sahədə islahatların həyata keçirildiyi nəzərə alınaraq Azərbaycanın nailiyyətlərinə maraq göstərilib, təcrübə mübadiləsinin əhəmiyyəti qeyd edilib.

# Azərbaycan və Bolqarıstan hüquqi sahədə səmərəli əməkdaşlıq edir

**İyunun 12-də ədliyyə naziri Fikrət Məmmədov respublikamızda səfərdə olan Bolqarıstanın Baş prokuroru Sotir Tsatsarovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə Azərbaycan və Bolqarıstan arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, bu əlaqələrin dərinləşməsində dövlət başçılarının xüsusi rolu və qarşılıqlı səfərlərin mühüm əhəmiyyəti vurğulanıb. Həmçinin ölkələrimizin zəngin müqavilə bazasına söykənən hüquqi sahədə əməkdaşlığına toxunularaq qarşılıqlı fəaliyyətin perspektivləri, hər iki dövlətdə məhkəmə-hüquq sistemində aparılan islahatlar barədə fikir mübadiləsi aparılıb.

Nazir 2012-ci ildə Bolqarıstana edilmiş ikitərəfli məhsuldar səfərini və keçirilmiş görüşlərini, ötən il isə Sofiyada Avropa ədliyyə nazirlərinin konfransında iştirakını xatırladıb, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatları, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi, Məhkəmə-Hüquq Şurasının fəaliyyəti, məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmləndirilməsi baxımından Şuranın səlahiyyətlərinin genişləndirilməsi, hakimlərin ən şəffaf seçimi və tədrisi, elektron məhkəmənin tətbiqi, infrastrukturun müasirləşdirilməsi üzrə görülən tədbirlər barədə məlumat verib.

Ölkələrimiz arasında tarixi dostluq əlaqələrinin inkişafını qeyd edən qonaq Azərbaycana səfərindən məmnunluğunu ifadə edərək səfərin yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlığını bildirib, Azərbaycan Prezidentinin siyasi iradəsi ilə respublikamızın, o cümlədən paytaxt Bakının sürətli tərəqqisini təqdir edib. S.Tsatsarov ölkəmizin məhkəmə-hüquq sistemindəki nailiyyətlərini maraqla qarşılayaraq, öz ölkəsində bu sahədə islahatların aparıldığını söyləyib, Azərbaycanın bir çox sahələrdə müsbət təcrübəsinin Bolqarıstan üçün faydasını vurğulayıb.

Söhbət zamanı inzibati ədliyyənin fəaliyyəti, hakimliyə namizədlərin tədrisi, probasiya institutunun tətbiqi, korrupsiyaya qarşı mübarizə və di-

gər qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

Tədbirdə Bolqarıstanın Azərbaycandakı səfiri Maya Xristova, ölkəmizin Bolqarıstandakı səfiri Nərgiz Qurbanova, ədliyyə nazirinin müavini Azər Cəfərov, Baş prokurorun müavini, Korrupsiyaya qarşı mübarizə baş idarəsinin rəisi Kamran Əliyev iştirak ediblər.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olublar.



# AŞPA-nın həmməruzəçiləri ilə Ədliyyə Nazirliyində görüş

**İyunun 13-də ədliyyə naziri Fikrət Məmmədov Avropa Şurası Parlament Assambleyası (AŞPA) Monitorinq Komitəsinin həmməruzəçiləri Sezar Florin Preda və Stefan Şennak ilə görüşüb.**

Görüşdə Azərbaycan və Avropa Şurasının səmərəli əməkdaşlıq etdiyi vurğulanıb, ədliyyə, o cümlədən penitensiar sistemdə aparılan islahatlar və yeniliklər barədə fikir mübadiləsi aparılıb.

Qonaqlara penitensiar sistemin fəaliyyətində qanunçuluğun möhkəmləndirilməsi, məhkumların hüquqlarının qorunması, tibbi təminatının yaxşılaşdırılması, o cümlədən vərəmlə mübarizədə ölkəmizin beynəlxalq aləmdə təqdir olunan və digər ölkələrə örnək kimi tövsiyə edilən müsbət təcrübəsi barədə məlumat verilib. Dövlət başçısı cənab İlham Əliyevin cari ilin fevralında imzaladığı penitensiar sistemin təkmilləşdirilməsi və cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamı ilə bu islahatların yeni mərhələyə keçdiyi vurğulanaraq ölkəmiz üçün yeni olan probasiya institutunun, elektron nəzarət vasitələrinin tətbiqi üzrə görülən işlərdən bəhs edilib.

Həmməruzəçilər Azərbaycan Prezidentinin qeyd olunan Sərəncamının insan hüquqlarının təminatı baxımından müstəsna əhəmiyyətini vurğulayaraq, bu mühüm sənədin icrası üzrə görülən işləri, o cümlədən azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan qətimkan tədbirlərinin və alternativ cəzaların tətbiqinin genişləndirilməsini məmnunluqla qarşılayıblar. Qonaqlar Ədliyyə Nazirliyi ilə səmərəli qarşılıqlı fəaliyyəti qeyd edərək əlaqələrin bundan sonra da uğurla davam etdiriləcəyinə əminliklərini ifadə ediblər.



Görüş zamanı, həmçinin bir sıra digər aidiyyəti məsələlər müzakirə olunaraq qonaqları maraqlandıran suallara aydınlıq gətirilib.

Tədbirdə ölkəmizin AŞPA-da daimi nümayəndə heyətinin rəhbəri, millət vəkili Səməd Seyidov iştirak edib.

# Azərbaycan və Belarus arasında ədliyyə sahəsində əlaqələr genişlənir





**Azərbaycan və Belarus Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair mühüm sazişlər imzalanaraq səmərəli qarşılıqlı fəaliyyət həyata keçirilir. Əlaqələrin genişləndirilməsi, ədliyyə və məhkəmə islahatları ilə tanış olmaq məqsədilə cari il iyunun 19-22-də Belarus Ədliyyə Nazirliyinin nümayəndə heyəti ölkəmizdə səfərdə olub.**

Səfər zamanı qonaqlar əvvəlcə Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad edərək məzarı önünə gül dəstələri qoyublar. Həmçinin, Şəhidlər Xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarlarını ziyarət ediblər.

Sonra Ədliyyə Nazirliyində Belarus nümayəndə heyəti ilə nazir müavini Toğrul Musayevin görüşü keçirilib.

Ölkələrimiz arasında səmərəli dostluq və əməkdaşlıq münasibətlərini qeyd edən nazir müavini bu əlaqələrin inkişafında dövlət başçılarının xüsusi rolunu vurğulayıb, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlərin beynəlxalq hüquq çərçivəsində həllində Belarus dövlətinin ədalətli mövqe və qətiyyətli addım nümayiş etdirdiyini bildirib. Nazir müavini ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə və məhkəmə sistemində aparılan islahatlar, nazirliyin çoxşaxəli fəaliyyət istiqamətləri barədə məlumat verib, əlaqələrin genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğunu söyləyib.

Azərbaycana səfərindən məmnunluqlarını ifadə edən qonaqlar respublikamızın hərtərəfli inkişafını, məhkəmə-hüquq sistemindəki nailiyyətləri təqdir edib, dövlətlərimiz arasında çox yaxşı münasibətlərin olduğunu vurğulayaraq qarşılıqlı fəaliyyətin dərinləşdirilməsinin əhəmiyyətini qeyd ediblər.

Görüşdə əməkdaşlığın prioritetləri və digər qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub, konkret təkliflər irəli sürülüb.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olublar.

Səfər zamanı Belarus nümayəndə heyəti Nazirliyin ayrı-ayrı istiqamətləri, o cümlədən qanunyaradıcı fəaliyyət, əhaliyə elektron xidmətlərin göstərilməsi, qeydiyyat və notariat, müxtəlif reyestrlər, habelə kommersiya hüquqi şəxslərin "bir pəncərə" prinsipi ilə qeydiyyatı, həmçinin Yasamal Rayon Məhkəməsinin müasir binası və elektron məhkəmə sisteminin tətbiqi ilə tanış olub.

Qonaqlar Azərbaycan brendi olan "ASAN xidmət"in fəaliyyətini böyük maraqla qarşılayaraq, müxtəlif dövlət orqanlarının, o cümlədən ədliyyənin göstərdiyi xidmətlərlə tanış olub, ASAN xidmətin fəaliyyət prinsiplərinin öz ölkəsində tətbiqi ilə bağlı niyyətini ifadə ediblər.

# Avropa İttifaqı ilə mediasiya sahəsində layihə təşviq olunur

**İyunun 9-da ədliyyə nazirinin müavini Azər Cəfərovun Avropa İttifaqının ölkəmizdəki Nümayəndəliyinin rəhbəri xanım Malena Mard ilə görüşü olub.**



Görüşdə Avropa İttifaqı və Azərbaycan arasında hüquqi sahədə səmərəli əməkdaşlığın davam etdirildiyi qeyd olunaraq birgə layihələrin həyata keçirildiyi bildirilib, ölkəmiz üçün yeni olan mediasiya institutunun yaradılması ilə bağlı fikir mübadiləsi aparılaraq bu sahədə əməkdaşlıq imkanları müzakirə olunub.

Nazir müavini ölkə Prezidenti cənab İlham Əliyevin ədalət mühakiməsinin səmərəliliyinin artırılması ilə bağlı tapşırıqlarına uyğun olaraq məhkəmələrə müraciət imkanlarının asanlaşdırılmasını, hakimlərin sayının iki dəfə artırılmasını vurğulayıb, son illər əhalinin məhkəmələrə inamının yüksəlməsinin təzahürü olaraq hakimlərin iş yükünün kəskin çoxalmasını qeyd edərək mübahisələrin məhkəmədən kənar alternativ həlli məqsədilə mediasiya institutunun tətbiqinin vacibliyini bildirib.

Xanım M.Mard Avropa İttifaqı üzv ölkələrində bu təcrübədən geniş istifadə olunduğunu söyləyib, mediasiyanın vətəndaşlar üçün üstünlüklərindən danışaraq Azərbaycanda da belə bir institutun yaradılmasının mübahisələrin daha operativ həllində, hakimlərin iş yükünün azaldılmasında müstəsna əhəmiyyətini qeyd edib, bu sahədə əməkdaşlıq etməyə hazır olduğunu vurğulayıb.

Görüşdə mediasiya sahəsində birgə layihənin həyata keçirilməsinə dair razılığa gəlinərək əməkdaşlıq edilə bilən sahələr, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi, mediatorların hazırlanması, əhalinin maarifləndirilməsi və s. ilə bağlı təkliflər irəli sürülüb, qarşılıqlı maraq doğuran məsələlərə aydınlıq gətirilib.

# Türkiyə ilə məhkəmə ekspertizası sahəsində əməkdaşlıq edilir

**Qədim tarixi köklərə malik Azərbaycan-Türkiyə strateji tərəfdaşlıq və əməkdaşlıq münasibətlərində hüquqi əlaqələr xüsusi yer tutur. İki ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair imzalanmış mühüm sənədlər əsasında səmərəli qarşılıqlı fəaliyyət həyata keçirilir. Ötən ilin martında ölkə Prezidenti cənab İlham Əliyevin Türkiyəyə səfəri zamanı Ədliyyə Nazirliyi ilə Türkiyənin Daxili İşlər Nazirliyi arasında məhkəmə ekspertizası sahəsində əməkdaşlıq haqqında Saziş imzalanaraq bu sahədə əlaqələrin inkişafına böyük təkan verib.**

Sazişin implementasiyası çərçivəsində qarşılıqlı fəaliyyətin genişləndirilməsi, məhkəmə ekspertizasından və kriminalistikanın müasir metod və vasitələrindən istifadə etməklə cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi məqsədilə cari il iyunun 5-



9-da Türkiyə Daxili İşlər Nazirliyi Jandarma Kriminal və Emniyet Genel Müdürlüyü Polis Kriminal dairə başkanlıqlarının nümayəndə heyəti ölkəmizdə səfərdə olub.

Qonaqlar əvvəlcə Fəxri Xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyublar. Həmçinin, Şəhidlər Xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarlarını ziyarət ediblər.

Sonra Ədliyyə Nazirliyində Türkiyə nümayəndə heyəti ilə nazir müavini Azər Cəfərovun görüşü keçirilib.

Dost və qardaş ölkələrimiz arasında əməkdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini söyləyən nazir müavini ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son illər məhkəmə sistemində aparılan islahatlar, qanunvericiliyin təkmilləşdirilməsi, infrastrukturun müasirləşdirilməsi, elektron məhkəmənin tətbiqi barədə məlumat verib, hakimlərin ən şəffaf seçiminə və tədrisinə toxunaraq Türkiyə Ədliyyə Akademiyasının dəstəyi ilə bu yaxınlarda hakimliyə namizədlərin qardaş ölkədə təlim keçdiyini məmnunluqla vurğulayıb. Həmçinin ədliyyə orqanlarının müasirləşdirilməsi, o cümlədən məhkəmə ekspertizası sahəsində görülən işlər və əldə olunan nailiyyətlərdən bəhs olunaraq bu sahədə qarşılıqlı fəaliyyətin genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirilib.

Respublikamıza səfərindən məmnunluğunu ifadə edən qonaqlar ədliyyə və məhkəmə sistemində aparılan islahatları maraqla qarşılayıb, Nazirliyin Məhkəmə ekspertizası mərkəzi ilə səmərəli əməkdaşlığı qeyd edərək bu əlaqələrin dərinləşdirilməsinə hazır olduqlarını vurğulayıblar.

Sonra qonaqlar Ədliyyə tarixi muzeyi ilə tanış olublar.

Səfər zamanı Türkiyə nümayəndə heyəti nazirliyin Məhkəmə ekspertizası mərkəzində olub, mərkəzin fəaliyyəti, ən müasir texnoloji yenilikləri ilə tanış olub, təcrübə mübadiləsi aparılıb. Həmçinin Sazişin implementasiyası məqsədilə iki ölkənin qurumları arasında fəaliyyət proqramı və 2017-2018-ci illər üzrə iş planı imzalanıb.

Qonaqlar, eyni zamanda, Ali Məhkəmənin, paytaxtda və bölgələrdə birinci instansiya məhkəmələrinin yeni müasir binaları və elektron məhkəmə sistemi, regional ədliyyə idarələrinin fəaliyyəti, habelə Azərbaycan brendi olan və ədliyyənin də müvafiq xidmətlər göstərdiyi "ASAN xidmət" mərkəzi, eləcə də bölgələrdə tarixi və mədəni abidələrlə tanış olub, Quba Soyqırımı Memorial Kompleksini ziyarət ediblər.

# Avropa ölkələri penitensiar və probasiya xidmətləri rəhbərlərinin 22-ci konfransı

**Cari il iyunun 20-21-də Norveç Krallığının Lillestrom şəhərində Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi baş direktorluğunun təşkilatçılığı ilə üzv ölkələrin həbsxana və probasiya xidmətləri rəhbərlərinin 22-ci illik konfransı keçirilib.**

"XXI əsrdə işə qəbul, təlim və inkişaf" mövzusuna həsr olunmuş tədbirdə Avropa Şurasına üzv və müşahidəçi statusuna malik olan dövlətlərin həbsxana və probasiya xidmətlərinin, Avropa Komissiyası, Avropa Probasiya Konfederasiyası, Avropa Həbsxana və İslah Xidmətləri Təşkilatı, BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsi, İşgəncələrə qarşı Avropa Komitəsi və digər beynəlx-




alq təşkilatların yüksək səviyyəli nümayəndələri, habelə penitensiar sahə üzrə tanınan beynəlxalq ekspertlər iştirak ediblər.

Konfransda ölkəmizi ədliyyə nazirinin müavini, Penitensiar xidmətin rəisi Ceyhun Həsənovun başçılıq etdiyi nümayəndə heyəti təmsil edib. Nümayəndə heyətinin tərkibinə Ədliyyə Nazirliyi Cəzaların icrasına nəzarət üzrə müfəttişliyinin rəisi Malik Ələkbərov və Penitensiar xidmətin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi vəzifəsini icra edən Mehman Sadıqov daxil edilib.

Norveç İslah Xidməti Direktorluğunun baş direktoru xanım Marianne Vollanın sədrliyi ilə keçirilmiş plenar iclasın açılışında Norveçin ədliyyə və ictimai təhlükəsizlik naziri Per-Uilly Amundsen, Avropa Şurası İnformasiya cəmiyyəti və cinayətkarlığa qarşı mübarizə idarəsinin direktoru Yan Kleyssen, Niderlandın Həbs Müəssisələri Agentliyinin baş direktoru Peter Hennephof, İşgəncələrə qarşı Avropa Komitəsinin prezidenti Mikola Qnatovski və digər rəsmi şəxslər çıxış ediblər.

Bildirilib ki, həbsxana və probasiya işçiləri öz gündəlik işləri zamanı məhkum kateqoriyalarının artan fərqliliyi, fərdi vəziyyətləri və kulturoloji keçmişi, mənəvi və psixoloji problemləri, vətəndaşlığı, yaşı, dini mənsubiyyəti, cinsi, ekstremizm, təhlükəlilik və digər müxtəlif tələblər və çətinliklərlə üzləşirlər. Bununla əlaqədar cəmiyyətin təhlükəsizliyi və mükəmməl həbsxana və probasiya idarəçiliyi baxımından yüksək keyfiyyətə malik olan personalın seçilməsi və təlimi çox vacibdir.

Avropa məkanında penitensiar və probasiya xidmətlərinə işə qəbul kriteriyaları, təlim müddəti və qaydaları, yekun imtahanlar, ayrı-ayrı xidmət sahələrində çalışan işçilər üçün müxtəlif yönümlü təkmilləşdirmə üsulları və digər aspektlər ölkələr üzrə bir çox hallarda yetərincə fərqlidir. Bu müxtəliflik yüksək etik standartlara cavab verən, peşəkar statusa malik, maddi və texniki cəhətdən hərtərəfli təmin olunmuş, əsaslı təlim keçmiş və ümumi qaydalara cavab verən işçilərin hazırlanması işində vahid standart və təcrübənin formalaşdırılması üçün mühüm məsələdir.

Həmçinin diqqətə çatdırılıb ki, cəzaçəkmə müəssisələrində informasiya və kommunikasiya texnologiyalarının istifadəsinin genişləndiyi bir dövrdə bu sahədə xüsusi təlimlər keçmiş işçilərə də tələbat artmaqdadır.

Sonra konfrans öz işini ayrı-ayrı işçi iclaslar və seminarlarla davam etdirib. Tədbirlərdə xidmətə qəbul, kadrlarla iş, komanda və liderlik keyfiyyətlərinin inkişafı, qurumlararası, rəqəmsal və innovasiyalar üzrə təlimlər, biliklərin təcrübədə həyata keçirilməsi və digər aktual mövzular üzrə ekspertlərin çıxışları dinlənilib. Azərbaycanın Penitensiar xidmətinə işə qəbulu qaydaları, müsabiqə komissiyasının şəffaf fəaliyyəti, hazırlıq və təkmilləşdirmə kursları barədə məlumat ekspertlər tərəfindən böyük maraqla qarşılanıb.

İki gün davam edən plenar iclasın bağlanış mərasimində xanım M.Vollan, Y.Kleyssen, Estoniya Ədliyyə Nazirliyi Həbsxanalar Departamentinin baş katibi Priit Kama, İrlandiya Probasiya Xidmətinin direktoru, Penoloji Əməkdaşlıq Şurasının sədri Vivian Geyran yekun nitq söyləyiblər.

Sonda konfransda əldə edilmiş əsas nəticələri özündə əks etdirən ümumi sənəd qəbul edilib.

Konfransın keçirildiyi Norveç İslah Xidmətinin qərargahı və universitet kollecinin yerləşdiyi binada, həmçinin tədbir iştirakçılarına Norveçdə islah işləri üçün kadrların hazırlanması və təlimi prosesi ilə tanış olmaq, üzv ölkələrin bu sahədə müxtəlif təcrübələri bölüşmək üçün geniş imkan yaradılıb.

Azərbaycanın nümayəndə heyəti, eyni zamanda, Halden əyalətində 130 milyon avroya tikilmiş və 15 hektar ərazidə yerləşən 260 məhkum üçün nəzərdə tutulmuş həbsxanaya baş çəkərək məhkumların saxlanma şəraiti, islah və tədris prosesi, cəzaların icrası və çəkilməsi qaydaları ilə tanış olub.

Səfər çərçivəsində, həmçinin bir sıra dövlətlərin, o cümlədən Norveç, İrlandiya, Estoniya, Rusiya, Türkiyə, Niderland, Bolqarıstan, Moldova, Yunanıstan, Kipr və İtaliyanın penitensiar və probasiya xidmətlərinin, habelə beynəlxalq təşkilatların yüksək səviyyəli rəhbər şəxsləri ilə görüşlər keçirilib.

Görüşlərdə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə, o cümlədən penitensiar sahədə aparılan mütərəqqi islahatlar və yeniliklər, qanunvericiliyin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi, probasiya institutunun tətbiqi üzrə görülən işlər barədə ətraflı məlumat verilib, əməkdaşlığın perspektivlərinə və digər maraq doğuran məsələlərə dair faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

# Ədliyyə Akademiyasında "İnsan Hüquqları Aylığı" çərçivəsində dəyirmi masa keçirilib

**Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 18 iyun tarixli Sərəncamına əsasən ölkəmizdə hər il qeyd olunan 18 iyun - İnsan Hüquqları Gününün təsis edilməsinin 10 ili tamam olur.**

Bu münasibətlə İnsan Hüquqları Aylığı çərçivəsində Ədliyyə Nazirliyi tərəfindən silsilə tədbirlər, o cümlədən gənc ədliyyə işçiləri ilə görüş, Ədliyyə Akademiyası, regional ədliyyə idarələri tərəfindən insan hüquq və azadlıqlarının təmin olunması, hüquq bərabərliyi üzərində qurulmuş multikultural dəyərlərin təşviqi və s. mövzularda hüquqi maarifləndirmə tədbirləri, seminar-müşavirələr, təlimlər təşkil olunub.

Davam edən tədbirlər çərçivəsində Ədliyyə Akademiyasında "İnsan hüquqlarının müdafiəsi sahəsində maarifləndirmə işinin təşkili məsələləri" mövzusunda "dəyirmi masa" keçirilib.

Nazirliyin, Penitensiar xidmətin, Akademiyanın məsul şəxslərinin, vətəndaş cəmiyyəti nümayəndələrinin, o cümlədən ədliyyə naziri yanında İctimai Komitənin üzvlərinin, eləcə də gənclərin iştirakı ilə keçirilmiş tədbirdə respublikamızda insan hüquqlarının qorunması ilə bağlı atılan addımlardan, beynəlxalq təşkilatlarla əməkdaşlıqdan, Azərbaycanda multikultural dəyərlərə böyük hörmətlə yanaşılmasından bəhs olunub, bu sahədə hüquqi maarifləndirmənin, hüquqşünasların insan hüquqları üzrə tədrisinin əhəmiyyətindən danışılıb.

Bildirilib ki, Ədliyyə Akademiyasında insan hüquqlarının tədrisinə daim xüsusi önəm verilir, təşkil olan təlim kurslarının proqramlarına bu mövzuda müxtəlif aktual məsələlərə dair mühazirələr daxil edilərək tədris olunur, həmçinin, Avropa Şurasının (AŞ) Hüquqşünasların insan hüquqları üzrə tədrisinə dair Proqramının (HELP) imkanlarından geniş istifadə olunur, AŞ ilə birgə "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi" layihəsi həyata keçirilir. Geniş dinləyici auditoriyasına malik olan Akademiyada cari ilin ötən dövründə 1000-ə yaxın ədliyyə işçiləri, vəkillər, hakimlər, prokurorlar, habelə bu kateqoriyaya aid hüquqşünas namizədlər aidiyyəti təlimlərə cəlb olunublar.

Tədbirdə dövlət başçısının cari ilin fevralında imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamının insan haqlarının, o cümlədən məhkumların hüquqlarının təmin olunmasında müstəsna əhəmiyyəti qeyd olunub, ölkəmiz üçün yeni olan probasiya institutunun tətbiqi, perspektivləri, bu sahədə xarici ölkələrin müsbət

təcrübəsi, habelə Akademiyada əhalinin aztəminatlı təbəqəsinə pulsuz hüquqi yardım göstərən Hüquq Klinikasının fəaliyyəti barədə məruzə ilə çıxışlar edilib.

Müzakirələr zamanı qeyri-hökumət təşkilatlarının nümayəndələri mövzu ətrafında fikir mübadiləsi aparıb, ictimai dinləmələrin, dəyirmi masaların, digər maarifləndirmə tədbirlərinin əhəmiyyətini vurğulayıb, bir sıra konkret təkliflər irəli sürüblər.

# Regional ədliyyə idarələri tərəfindən insan hüquq və azadlıqları mövzusunda tədbirlər təşkil edilib





**Ədliyyə Nazirliyinin regional ədliyyə idarələrinin təşkilatçılığı ilə bölgə üzrə yerli ədliyyə qurumlarının əməkdaşlarının və bələdiyyə nümayəndələrinin iştirakı ilə insan hüquq və azadlıqları mövzusunda tədbirlər keçirilib.**

Tədbirlərdə ümummilli lider Heydər Əliyev tərəfindən 1998-ci il iyunun 18-də Azərbaycan Respublikasında ilk "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq edildiyi və insan hüquqlarının təmin olunmasının dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edildiyi vurğulanıb, ölkə Prezidenti İlham Əliyevin 2007-ci il 18 iyun tarixli Sərəncamı ilə hər il iyunun 18-nin Azərbaycan Respublikasında İnsan Hüquqları Günü kimi qeyd edildiyi bildirilib.

Ölkəmizdə insan hüquq və azadlıqlarının təmini mexanizmlərinin təkmilləşdirilməsi, hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ-hüquqi bazanın möhkəmləndirilməsi, əhalinin müxtəlif qruplarının müdafiəsinin gücləndirilməsi, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin genişləndirilməsi üzrə görülən məqsədyönlü tədbirlərdən danışılaraq bu sahədə qəbul olunmuş Milli Fəaliyyət proqramlarının müstəsna əhəmiyyəti qeyd olunub.

Çıxışlarda həmçinin Azərbaycanda multikultural dəyərlərə böyük hörmətlə yanaşılmasından bəhs olunub, multikulturalizm və tolerantlığın tarixən azərbaycanlıların həyat tərzi olduğu vurğulanıb.

Tədbir iştirakçıları mövzu ətrafında faydalı fikir mübadiləsi aparıblar.

# İnsan hüquqlarının qorunması demokratik inkişafın ayrılmaz hissəsidir

***Faiq QURBANOV,***
*Ədliyyə Nazirliyi İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi*
*III dərəcəli dövlət ədliyyə müşaviri*

**Müasir və qloballaşan dünyada ən aktual və əhəmiyyətli məsələlərdən biri insan hüquq və azadlıqlarının təmin olunmasıdır. İnsan hüquqları bütün insanların malik olduğu hüquqlardır. Bu hüquqlar insan anadan olan andan yaranır. Yaşamaq, azadlıq, təhlükəsizlik, mülkiyyət, şəxsiyyətin ləyaqəti, şəxsi və ailə sirrini saxlamaq hüquqları insanın ayrılmaz və toxunulmaz hüquqlarıdır. İnsan hüquqları ideyasının tarixi kökü çox qədimdir. Bəşəriyyət yaranandan dünyanın ən ağıllı varlığı olan insan hər zaman öz hüquqları və azadlıqları uğrunda fədakarlıqla mübarizə aparmışdır. Bu mübarizə ən qəddar rejimlərdə də, ən liberal cəmiyyətlərdə də həmişə aktual olmuşdur.**

İnsan hüquqlarının rüşeymləri hələ o zamanlar Afinada və Romada meydana gəlməyə başlamış, ilk demokratlardan olmuş afinalı Periklin xalqın xeyrinə həyata keçirdiyi islahatlar və ya Qədim Romada plebeylərlə patrisilər arasında gedən mübarizə məhz insan hüquqlarının təmin olunması məqsədini daşıyırdı.

Cəmiyyət inkişaf etdikcə insanlar öz hüquqları uğrunda daha mütəşəkkil mübarizə aparmağa başlamışlar. 1215-ci ildə İngiltərədə dünya tarixində insan hüquqlarına dair ilk sənəd olan "Böyük Azadlıqlar Xartiyası"nın (Maqna Carta), 1689-cu ildə isə "Hüquqlar haqqında Bill"in qəbul olunması ilə bəşəriyyət bu sahədə nailiyyətə imza atmışdır.

Lakin insan hüquqları ilk dəfə XVIII əsrdə öz elmi izahını tapmış, bu dövrün böyük mütəfəkkirləri Monteskyö, Russo, Hobbs, Lokk və digərləri insanların ayrılmaz, təbii hüquqlarının olduğunu göstərmişlər. Məsələn, insan haqları ideyasının inkişafına əhəmiyyətli töhfə vermiş görkəmli ingilis filosofu C.Lokk insanların hüquq və azadlıqlarının müdafiəsini dövlətin ən ümdə vəzifəsi olduğunu və insanların da dövləti bu məqsədlə yaratdıqlarını əsaslandırır, hakimiyyət bölgüsünün aparılması prinsipini önə çəkərək hakimiyyət qollarının bir-birinə nəzarət etməsini və bir-birini qeyri-qanuni hərəkətlərdən çəkindirməsini vacib sayırdı. "Azadlıqlar qanunlarla icazə verilən hər bir şeyi etmək hüququndan ibarətdir" fikrini irəli sürən məşhur fransız mütəfəkkiri Ş.L.Monteskyö C.Lokkdan fərqli olaraq insanların hüquq və azadlıqlarının təmin olunması üçün hakimiyyətin qanunvericilik, icra və məhkəmə hakimiyyəti olaraq, üç qola bölünməsi və bir-birindən müstəqil şəkildə fəaliyyət göstərməsinin zəruriliyini vurğulamışdır.

İnsan hüquqları özünün tarixi inkişaf prosesinin kulminasiyasına 1776-cı ildə Amerika Birləşmiş Ştatlarında "İstiqlaliyyət Bəyannaməsi"nin, 1789-cu ildə isə Fransada İnsan və vətəndaş hüquqları Bəyannaməsi"nin qəbul edilməsi ilə çatmışdır. İstiqlaliyyət Bəyannaməsində insan hüquqlarının müdafiəsi dövlətin başlıca vəzifəsi kimi təsbit olunmuşdur. Orada göstərilirdi ki, xalq yalnız o hakimiyyətə tabedir ki, həmin hökumət xalqın azad inkişafını təmin etməyə səy göstərir. Digər Bəyannamənin ən mühüm xüsusiyyəti isə onun universal xarakter daşımasıdır. Yəni o, yalnız fransız xalqının deyil, bütün bəşər övladlarının təbii hüquqlarını bəyan edirdi.

Sonrakı dövrlərdə dövlətlərarası münasibətlərin inkişafı beynəlxalq hüququn rolunu artırsa da, hələ də biri digərinə güzəştə getmək istəməyən dövlətlər tez-tez müharibələr edirdilər. Həmin müharibələr nəticəsində kütləvi surətdə günahsız insanlar öldürülür, mülki əhalidən kölə kimi istifadə edilir, hərbi əsirlər işgəncələrə məruz qalırdı. XIX əsrdə Avropa və Amerika ölkələrində artıq köləlik rəsmən qadağan edilmiş, 1899-cu il və 1907-ci il Haaqa konvensiyalarının bağlanması ilə müharibələrin aparılma qaydaları xeyli humanistləşdirilmişdir.

XIX əsrin ikinci yarısından Avropada milli, dini və ya irqi müstəsnalığa əsaslanan ideologiyalar yayılmağa başlamışdır. Bunun qarşısını almaq məqsədilə XX əsrin 20-ci illərində Millətlər Liqası çərçivəsində milli, etnik və dini azlıqların hüquqlarını müdafiə etmək vəzifəsini müəyyən edən bir sıra anlaşmalar imzalanmışdır. Lakin bütün bu tədbirlər

o zaman artıq geniş yayılmış irqçi, faşist ideologiyasının dövlət siyasətinə çevrilməsinə mane ola bilməmiş və nəticədə İkinci Dünya müharibəsi başlanmışdı.

Məhz İkinci Dünya müharibəsi zamanı törədilmiş vəhşiliklər mütərəqqi dövlətləri ümumdünya ədalət meyarını müəyyən etməyə sövq etmişdir. Hələ 1945-ci ildə yaradılmış Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin müqəddiməsində insan hüquqlarına, insan şəxsiyyətinin ləyaqətinə, kişi və qadının, böyük və kiçik millətlərin hüquq bərabərliyinə inam ifadə olunmuşdu. 1946-cı ildə çıxarılmış Nürnberq tribunalının qərarlarında isə müəyyən edilmişdi ki, insan hüquqları artıq heç bir dövlətin müstəsna daxili məsələsi deyil və heç bir dövlət suverenliyini bəhanə gətirərək vətəndaşları ilə istədiyi kimi rəftar edə bilməz. Lakin bütün bunlar nə qədər vacib olsa da, kifayət etmirdi. İnsan hüquqlarının ümumbəşəri dəyərə çevrilməsi üçün vahid yazılı sənədə çox böyük ehtiyac var idi.

İkinci Dünya müharibəsinin törətdiyi dəhşətli nəticələrə cavab olaraq 1948-ci ilin dekabr ayının 10-da BMT-nin Baş Assambleyası tərəfindən qəbul olunmuş Ümumdünya insan hüquqları Bəyannaməsi insan hüquqları sahəsində miqyasına və əhəmiyyətinə görə ilk sənəd hesab olunur. Məhz 1948-ci il Bəyannaməsi insanın beynəlxalq hüququn obyektindən subyektinə çevrilməsinə ilk işarə idi. Bəyannamənin məqsəd və məramları, həmçinin "Mülki və Siyasi hüquqlar haqqında" və "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" paktlarda, Avropa Şurası tərəfindən qəbul olunmuş İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyada və digər beynəlxalq sənədlərdə özünün gələcək inkişafını tapmışdır.

Ümumdünya insan hüquqları Bəyannaməsi qəbul ediləndə Azərbaycan, o zaman müstəqil dövlət olmadığından, ona səs verə bilməmişdi. Yalnız müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası insan hüquqları və demokratiyaya sadiq qalacağını bəyan etmiş, bu yolda Azərbaycan dövləti mürəkkəb dövr keçərək bütün sınaqlardan mətinliklə çıxmış və demokratiyanın dönməzliyini bir daha təsdiq etmişdir.

1995-ci ildə ümummilli lider Heydər Əliyevin müəllifi olduğu ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında dövlətimizin ali məqsədlərindən biri kimi məhz insan haqlarının qorunması təsbit edilmiş, Konstitusiyanın maddələrinin üçdə bir hissəsi insan hüquq və azadlıqlarına həsr edilmiş və Bəyannamənin müddəalarını özündə əks etdirmişdir. 2002, 2009 və 2016-cı illərdə referendum yolu ilə Əsas Qanuna bir sıra mühüm əlavə və dəyişikliklərin edilməsi tam mütərəqqi xarakter daşımaqla insan və vətəndaş hüquq və azadlıqlarının, vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsinə, insan ləyaqətinin qorunması və ona hörmət edilməsinə, hüquqlardan sui-istifadənin yolverilməzliyinə, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilməsinə xidmət etmişdir.

Qeyd olunmalıdır ki, insan hüquqlarının təminatı məsələsi hər bir dövlətin ən ümdə vəzifəsi olmaqla onun fəaliyyətinin əsas prioritetini təşkil edir. Bu fəaliyyət isə özünü insan hüquqlarına dair milli qanunvericilik bazasının yaradılmasında, bu sahədə beynəlxalq sənədlərin ratifikasiyası və orada nəzərdə tutulan beynəlxalq hüquq normalarının milli hüquqi implementasiyasında, bu istiqamətdə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla sıx əməkdaşlığın qurulmasında və bu hüquqların təmin olunması üzrə işlək institusional mexanizmlərin təsis edilməsində büruzə verir.

İnsan hüquq və azadlıqlarına verilən böyük əhəmiyyətin təzahürü olaraq Ulu Öndər tərəfindən 1998-ci ildə xüsusi Fərmanın və onun əsasında insan hüquqlarının müdafiəsi sahəsində mühüm fundamental sənəd olan Dövlət Proqramının qəbul olunması bu sahədə qanunvericilik və institusional islahatlara təkan vermişdir.

Respublikada hərtərəfli köklü islahatların aparıldığı bir dövrdə, ilk növbədə, mükəmməl qanunvericilik bazasının formalaşdırılması məqsədilə qısa müddət ərzində ölkəmizin bu günü və gələcəyi naminə son dərəcə vacib və əhəmiyyətli, xüsusilə insan hüquqlarının etibarlı təminatına xidmət edən tam yeni qanunlar və məcəllələr qəbul edilmişdir.

Qanunvericiliyin təkmilləşdirilməsi hər zaman davam edən bir prosesdir və qəbul olunan yeni normativ-hüquqi aktlar, o cümlədən "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında", "Uşaq hüquqları haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" və s. yeni-yeni qanunlar məhz əhalinin müxtəlif qruplarının hüquq və azadlıqlarının qorunmasına xidmət edir.

Bu prosesin məntiqi davamı olaraq insan hüquqlarının müdafiəsinə dair 2006-cı ildə Milli Fəaliyyət Planının və 2011-ci ildə Milli Fəaliyyət Proqramının qəbul olunması ilə ölkəmizdə normativ-hüquqi bazanın möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının təmini mexanizmlərinin təkmilləşdirilməsi, əhalinin müxtəlif qruplarının müdafiəsinin gücləndirilməsi və s. üzrə məqsəd-

yönlü tədbirlərin davamlılığı təmin olunmuşdur.

Ötən dövrdə bu mühüm sənədlərin məqsədlərinə uyğun olaraq demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə yönəlmiş tədbirlər nəticəsində bir çox nailiyyətlər əldə edilmişdir. Ona baxmayaraq ki, həmin sənədlərdə bir sıra tədbirlərin həyata keçirilməsi mütəmadi xarakter daşıyır, müasir çağırışlar, cəmiyyətimizin sürətli inkişafı, yeni ictimai münasibətlərin, innovativ təşəbbüslərin meydana gəlməsi bu sahədə yeni proqramın qəbul olunmasını labüd edir.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının başlıca məqsədi də insan hüquqları amilini, mövcud imkan və resursları nəzərə almaqla Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və qanunun aliliyinin inkişafının davamlılığına nail olmaqdır.

Bütün bunlar onu göstərir ki, insan hüquq və azadlıqlarının təminatı məsələsi Azərbaycan dövlətinin siyasi iradəsinin, bu sahəyə həssas münasibətinin təzahürüdür. Və bu məsələ ölkəmizin müəyyən inkişaf prosesində və ya hansısa öhdəliklərdən irəli gərən vəzifələrin icrası ilə əlaqədar meydana gəlməmişdir. Əksinə, demokratiya və insan hüquqları, sosial tərəqqi kimi ümumbəşəri dəyərlərə sadiq olan və hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyən ölkəmiz, həmçinin bu sahədə bütün əsas beynəlxalq konvensiyalara qoşulmuş, nüfuzlu beynəlxalq təşkilatlara sıx inteqrasiya nəticəsində Avropa Şurasına üzv qəbul edilmiş, eyni zamanda, İnsan Hüquqları haqqında Avropa Konvensiyasını ratifikasiya etməklə Azərbaycan Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyasını öz ərazisinə şamil etmişdir. Bu da insan hüquqlarının təmin olunmasının işlək mexanizmlərindən biridir.

Bununla əlaqədar Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi işinin təşkili və onun məhkəmə təcrübəsində nəzərə alınması məqsədilə hakimlər və digər hüquqşünaslarla keçirilən tədris kurslarının proqramlarında bu mövzuya xüsusi diqqət yetirilir, həmçinin Avropa Şurasının Hüquqşünasların insan hüquqları üzrə tədrisinə dair Proqramının (HELP) imkanlarından geniş istifadə olunur, Avropa Şurası ilə birgə "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi" layihəsi həyata keçirilir.

Ümumiyyətlə, zaman keçdikcə Avropa Məhkəməsinin özünün də islahatına ehtiyac yaranmış, son illər Avropa Məhkəməsinə edilən şikayətlərin sayı həddindən çox olduğundan bu problemin həlli yollarının araşdırılması məqsədilə bir neçə konfrans keçirilmiş və Məhkəmənin işinin effektivliyinin artırılmasına, üzv dövlətlərdə məhkəmə sistemlərinin təkmilləşdirilməsinə dair müvafiq fəaliyyət planlarını nəzərdə tutan Bəyannamələr qəbul olunmuşdur ki, bu mühüm sənədlərin implementasiyasında Azərbaycan da öz dəyərli töhfəsini vermişdir.

Yeri gəlmişkən, Avropa Məhkəməsinin statistikasına diqqət yetirsək görərik ki, həm məhkəməyə edilən şikayətlərin, həm də çıxarılan qərarların sayına görə Azərbaycan digər dövlətlərlə müqayisədə müsbət göstəricilərlə xarakterizə olunur. Ölkəmizdən Avropa Məhkəməsinə daxil olan şikayətlərin sayı ümumavropa göstəricisindən demək olar ki, 2 dəfə azdır. Eyni zamanda, Azərbaycana qarşı Avropa Məhkəməsi tərəfindən çıxarılan qərarların sayı ötən il cəmi 16 təşkil etmişdir. Əhalisinin sayı ölkəmizlə təxminən eyni olan Bolqarıstana qarşı 33, Macarıstana qarşı 40, Yunanıstana qarşı isə 41 qərar çıxarılmışdır. Bütövlükdə isə, çıxarılan bütün qərarların təxminən yarısı yalnız 4 ölkəyə: Rusiya, Ukrayna, Türkiyə və Rumıniyaya qarşı olmuşdur.

Eyni zamanda, digər nüfuzlu Avropa strukturları, o cümlədən Avropa İttifaqı ilə qarşılıqlı hörmət və tərəfdaşlıq prinsipləri əsasında tərəqqiyə nail olunması istiqamətində mühüm addımlar atılır, Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlığa dair yeni saziş üzrə danışıqlara başlanılmış və bu danışıqlar konstruktiv ruhda davam edir.

Bununla yanaşı, İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsi (CPT), BMT-nin eyni adlı Alt Komitəsi (SPT) və Özbaşına Saxlanma üzrə İşçi Qrupu və digər ixtisaslaşmış beynəlxalq strukturlarla əhalinin həssas təbəqələrinin, xüsusilə azadlıqdan məhrum edilmiş şəxslərin hüquqlarının təmin edilməsi sahəsində səmərəli əməkdaşlıq qurularaq həyata keçirilir. Nüfuzlu xarici ekspertlərin, həmçinin bilavasitə məhkumların özlərinin iştirakı ilə Azərbaycanın penitensiar müəssisələrində tədbirlərin təşkil olunması, o cümlədən ilk dəfə olaraq "İşgəncəsiz cəmiyyət" mövzusunda dəyirmi masanın keçirilməsi insan hüquqlarının qorunmasına göstərilən həssas münasibəti təcəssüm etdirir.

Onu da qeyd etmək lazımdır ki, beynəlxalq konvension öhdəliklərin yerinə yetirilməsinə dövlət səviyyəsində olduqca ciddi münasibət bəslənilir, bununla əlaqədar ölkəmiz tərəfindən insan hüquqları, qadın hüquqları, uşaq hüquqları, əlillərin hüquqları, irqi-ayrı seçkilik ilə bağlı və digər dolğun, hərtərəfli, əsaslandırılmış şəkildə hazırlanmış dövrü hesabatlarının BMT-nin aidiyyəti komitələrində dinlənilməsində, eyni zamanda, ölkədə insan hüquqlarının bütün sahələri ilə bağlı vəziyyə-

tin qiymətləndirilməsinə dair BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövrü İcmal Mexanizmi çərçivəsində Azərbaycanın milli məruzələrinə baxılmasında fəal iştirak edilir.

Lakin bir faktı unutmaq olmaz ki, bütün bunlara baxmayaraq Azərbaycan həm də vətəndaşlarının bir qisminin hüquqlarının pozulduğu bir ölkədir. Ermənistanın həm azərbaycanlıları deportasiya etməsi, həm də torpaqlarımızın bir hissəsini işğala məruz qoyması nəticəsində 1 milyondan artıq azərbaycanlının mülkiyyət, təhlükəsiz yaşamaq hüququ pozulmuşdur. XXI əsrdə Avropanın qonşuluğunda yerləşən, Avropa Şurasının üzvü olan bir dövlətin vətəndaşlarının bu cür ağır və mənəvi iztirablara səbəb olan hüquq pozuntusuna məruz qalması yolverilməzdir.

Ermənistanın BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən müvafiq dörd qətnamənin icrasına məhəl qoymadan hələ də torpaqlarımıza hərbi təcavüzünü, cəbhə xəttində təxribatlar törətməklə mülki əhalini və mülki obyektləri hədəfə almaq siyasətini davam etdirməsi, dinc sakinlərin, o cümlədən qadınların, uşaqların öldürülməsi insanlıq əleyhinə ən ağır hərbi cinayətdir, beynəlxalq hüququn və insan haqlarının, 1949-cu il Cenevrə, həmçinin BMT-nin Uşaq hüquqları haqqında konvensiyaların və digər sənədlərin kobud şəkildə pozulmasıdır.

Bu hərbi təcavüz faktı, həmçinin həyata keçirilən hərtərəfli islahatların, beynəlxalq konvension öhdəliklərin icrasının bütün ölkə üzrə tətbiq olunmasında ən ciddi maneədir.

Ona görə də beynəlxalq birlik Ermənistanın işğalçılıq və terror siyasətinə son qoymaq üçün daha təsirli tədbirlər görməli, günahsız insanların qətlə yetirilməsinə, bütövlükdə Dağlıq Qarabağ münaqişənin beynəlxalq hüquq normalarına uyğun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə laqeyd və susqun münasibət bəsləməməlidir.

Azərbaycan hər zaman öz ərazisində hər bir vətəndaşının konstitusion hüquq və azadlıqlarına, təhlükəsizliyinə təminat verməklə müxtəlif konfessiyalara və millətlərə məxsus insanların dinc yanaşı yaşamasını təmin etmiş və bu gün də təmin etməkdədir. Müasir dünyada getdikcə dərinləşən sivilizasiyalararası toqquşmalar və ziddiyyətlər fonunda insanların hüquq və azadlıqlarının, etnik-milli dözümlülüyün, habelə tolerantlıq və multikulturalizm kimi dəyərlərin bəşəriyyət üçün daha önəmli olduğunu göstərir. İnsan hüquqları ilə vəhdət təşkil edən multikulturalizm dəyərləri olmadan humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, dostluq və əməkdaşlıq mümkün deyil. Təsadüfi deyil ki, bu gün dünyada hərbi toqquşmaların, terrorizmin, dini ekstremizmin, islamafobiyanın, ksenofobiyanın tüğyan etdiyi bir dövrdə yüksək tolerantlığın və multikulturalizmin bir həyat tərzinə çevrildiyi Azərbaycan bütün dini və siyasi baxışlara sahib, müxtəlif mədəniyyətlərə mənsub xalqların vahid dialoq mərkəzinə çevrilmişdir.

Bütün bunlar bir daha onu göstərir ki, Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mərkəzində vətəndaş dayanır. İnsana qayğı, insan ləyaqətinə hörmət, layiqli həyat səviyyəsi, vətəndaş məmnunluğu ölkədə həyata keçirilən köklü iqtisadi, sosial və hüquqi islahatların təməl prinsipləridir.

Həyata keçirilən demokratik islahatlar çərçivəsində, həmçinin institusional mexanizmlərin, o cümlədən İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman) institutunun təsis olunması da məhz insan hüquqlarının etibarlı müdafiəsinə xidmət etmişdir.

Eyni zamanda, vətəndaş cəmiyyətinin inkişafı, açıq hökumətin və ictimai iştirakçılığın geniş təşviqi, korrupsiyaya qarşı qəti mübarizə, müasir İKT-lərin, elektron və innovativ xidmətlərin tətbiqi sahəsində əldə olunan nailiyyətlər, habelə dövlət idarəetməsinin təkmilləşdirilməsi, ciddi struktur dəyişiklikləri, idarəçilikdə şəffaflığın artırılması bilavasitə insanlara layiqli xidmətlər göstərilməsinə, vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulmasına hesablanmışdır. Möhtərəm Prezidentimizin təşəbbüsü ilə yaradılmış və Azərbaycan brendi olan "ASAN xidmət" bu gün korrupsiyaya qarşı mübarizə və dövlət orqanlarının transparentliyinin təmin edilməsi sahəsində uğurlu islahat nümunəsidir. Təsadüfi deyil ki, ASAN sosial infrastrukturu beynəlxalq aləmdə nadir, innovasiyalı və korrupsiyadan uzaq sistem adlandırılaraq, digər dövlətlərə nümunə kimi tövsiyə edilir.

Həmçinin, hər bir demokratik cəmiyyətdə insan hüquqlarının təmin olunmasında müstəqil məhkəmə hakimiyyətinin müstəsna rol oynadığı nəzərə alınaraq son illər bu sahədə ardıcıl və məqsədyönlü islahatlar aparılır, məhkəmə fəaliyyətini tənzimləyən qanunvericilik daim təkmilləşdirilir, müstəqil məhkəmə özünü idarə orqanı olan Məhkəmə-Hüquq Şurasının səlahiyyətləri genişləndirilir, hakimlərin Avropada örnək kimi dəyərləndirilən ən şəffaf seçimi aparılmaqla hakim korpusu komplektləşdirilir. Eyni zamanda, Dünya Bankı ilə birgə məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun infrastrukturunun müasirləşdirilməsi, yeni məhkəmə bina və komplekslərinin tikilib istifadəyə verilməsi, müasir İKT-lərin və "Elektron məhkəmə"

informasiya sisteminin tətbiqi məhkəmə fəaliyyətinin daha səmərəli təşkil olunmasına, ədalət mühakiməsinə çatımlılığın asanlaşdırılmasına, onun səmərəsinə və keyfiyyətinə əsaslı təsir göstərir, insanlara daha əlverişli və rahat şərait yaradır.

Ədliyyə və məhkəmə-hüquq islahatları çərçivəsində cəmiyyətin həssas təbəqələrindən olan azadlıqdan məhrum edilmiş şəxslərin hüquqlarının etibarlı müdafiəsi istiqamətində də mühüm tədbirlər həyata keçirilir.

Təsadüfi deyil ki, dövlətimizin humanizm siyasəti ulu öndər Heydər Əliyevin müəyyən etdiyi möhkəm təməl əsasında uğurla inkişaf etdirilir, möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən imzalanmış əfv sərəncamları, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə elan olunmuş amnistiya qərarları ilə on minlərlə şəxsin müxtəlif cəzalardan, o cümlədən azadlıqdan məhrum etmə cəzasından azad olunması insanların azadlıq hüququnun təmin olunmasına xidmət etmişdir.

Bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti kimi Mehriban xanım Əliyevanın çoxşaxəli və əzmkar fəaliyyəti ölkəmizin hərtərəfli tərəqqisinə, cəmiyyətin müxtəlif təbəqələrinin - qadınların, uşaqların, məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılmasına, elmin, təhsilin və səhiyyənin inkişafına hesablanmış mühüm layihələrin müvəffəqiyyətlə icrasına, humanizm, tolerantlıq ideya və prinsiplərinin, bu sahədə dövlət siyasətinin həyata keçirilməsinə mühüm töhfələr verir.

Cari ilin fevralında ölkə Prezidentinin cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı imzaladığı mühüm Sərəncam bu sahədə islahatların daha intensiv davamına rəvac verməklə yeni yanaşmaların tətbiqinin əsasını qoymuşdur. Bu, həm də humanizm ideyalarına daim sadiq qalan dövlətimizin siyasi iradəsinin təzahürü olaraq cəza siyasətinə, cinayət qanunvericiliyinə baxışın yenilənməsi və bu sahədə dünyada mövcud olan mütərəqqi təcrübələrin tətbiqi məqsədini daşıyır.

Dövlət başçısının Sərəncamı ilə yaradılmış ölkəmiz üçün yeni olan Probasiya xidməti məhz məhkumların cəmiyyətdən tam təcrid etmədən cəzasını çəkməsində mühüm institut olmaqla bu istiqamətdə hazırda mühüm tədbirlər görülür, o cümlədən bu sahədə beynəlxalq təcrübələr öyrənilir, həmçinin Avropa İttifaqı ilə birgə layihə çərçivəsində Probasiya xidmətinin fəaliyyətinin əsasları, qanunvericiliyin təkmilləşdirilməsi, təlim kurslarının və səfərlərinin, maarifləndirmə tədbirlərinin təşkili ilə bağlı pilot layihələr həyata keçirilir. Eyni zamanda, Avropa İttifaqı ilə mediasiya sahəsində də ayrıca layihənin təşviqinə dair razılığa gəlinmiş və bu il layihənin icrasına başlanılması nəzərdə tutulur.

Bu yaxınlarda ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə Cinayət Məcəlləsinə kompleks dəyişiklikləri əhatə edən qanun layihəsi göndərilmişdir ki, burada da bir sıra əməllərin dekriminallaşdırılaraq cinayət kateqoriyasından inzibati xəta kateqoriyasına keçirilməsi, məhkumu cəmiyyətdən tam təcrid etmədən azadlığın məhdudlaşdırılması ilə bağlı yeni növ cəzanın müəyyən edilməsi, bir çox cinayətlərə görə müəyyən edilmiş azadlıqdan məhrumetmə cəzasının hədlərinin azaldılması, mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində törədilən bir sıra cinayətlərə münasibətdə qanunvericiliyin liberallaşdırılması, zərərçəkmiş şəxslə barışma institutunun təkmilləşdirilməsi, narkotik vasitələrin əldə edilməsi və saxlanılması cinayəti törətmiş şəxslərə qarşı münasibətin dəyişdirilməsi və s. nəzərdə tutulur.

İnsan hüquqları sahəsində tədris və maarifləndirmə tədbirləri də xüsusilə önəmlidir. Bu məqsədlə əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, ayrı-seçkiliyin yolverilməzliyi, sülh və dözümlülük mədəniyyətinin, xalqımızın milli-mənəvi dəyərlərinin, tolerantlıq və multikulturalizmin təbliği istiqamətində mütəmadi maarifləndirmə işi aparılır.

Dövlət başçısının 2007-ci ildə imzaladığı Sərəncamla ilk Dövlət Proqramının qəbul olunduğu günün - 18 iyun tarixinin ölkəmizdə İnsan Hüquqları Gününün elan olunması dövlətimizin insan hüquqlarına həssas münasibətinin bariz təzahürüdür və bu il həmin tarixin təsis olunmasının 10 ili tamam olur. Bu münasibətlə respublikamızın müxtəlif yerlərində, ictimaiyyətin, vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin iştirakı ilə dövlət və hüquq-mühafizə orqanları tərəfindən əhalinin müxtəlif təbəqələrini əhatə etməklə insan hüquq və azadlıqlarının təmin olunmasını, hüquq bərabərliyi üzərində qurulmuş multikultural dəyərləri təbliğ edən silsilə tədbirlərin keçirilməsi ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasına hər zaman yüksək diqqət və qayğı ilə yanaşılmasını əyani təsdiq edir.

Əminliklə söyləmək olar ki, insan hüquqlarının təmin olunmasında möhkəm iradə nümayiş etdirən dövlətimizin müasirləşən cəmiyyətimizdə təşəkkül tapmış və ardıcıl olaraq davam etdirilən məqsədyönlü tədbirlər nəticəsində bundan sonra da müsbət nəticələrə nail olunacaq, ədliyyə orqanları da insan hüquqlarının qorunması, demokratik hüquqi dövlət quruculuğu prosesində fəal iştirak etməklə öz layiqli töhfələrini verəcəkdir.

# Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi daim diqqətdədir

## *Məhkəmə-Hüquq Şurası aparatının rəhbəri Cavid Hüseynovun "Ədalət" qəzetinə müsahibəsi*

*Mətbuatdan məlum olduğu kimi Milli Məclisin son iclasında bir qrup ali və apellyasiya məhkəmələri hakimlərinin təyinatı aparılmışdır. Bununla əlaqədar Məhkəmə-Hüquq Şurası aparatının rəhbəri Cavid Hüseynova müraciət edib onun fikirlərini bölüşdük.*

**- Cavid müəllim məhkəmə sistemində olan son dəyişikliklər ictimaiyyətin də marağına səbəb olmuşdur. Bu məsələlərlə bağlı oxucularımıza məlumat verməyinizi xahiş edərdik.**

- Bildiyiniz kimi ölkəmizdə həyata keçirilən mütərəqqi məhkəmə islahatının əsas istiqamətlərindən biri də yüksək hazırlıqlı və peşəkar hakim korpusunun formalaşdırılmasıdır. Bununla əlaqədar, mütəmadi olaraq hakimliyə namizədlərin seçimi aparılır, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi həyata keçirilərək onların işini davam etdirməyə yararlılıqları müəyyən edilir.

Qeyd etdiyiniz dəyişikliklərə də məhz cari ilin iyul ayında səlahiyyət müddəti bitən hakimlərin fəaliyyətinin qiymətləndirilməsinin nəticəsi kimi baxmaq lazımdır. Belə ki, Məhkəmə-Hüquq Şurası tərəfindən səlahiyyət müddətləri başa çatan ali və apellyasiya məhkəmələrinin 42 hakiminin fəaliyyəti ətraflı təhlillər aparılmaqla qiymətləndirilmişdir.

Bunun nəticəsi olaraq 8 nəfərin fəaliyyətində olan nöqsan və çatışmazlıqlar nəzərə alınaraq aşağı məhkəmələrə keçirilməsi, vətəndaşların haqlı narazılığını doğuran pozuntulara yol verən 6 nəfərin isə səlahiyyətlərinə xitam verilməsi qərara alınmışdır. Eyni zamanda 25 nəfərin tutduqları vəzifəyə təyinatı, 3 nəfərin iş yerinin dəyişdirilməsi barədə müvafiq təkliflər verilmişdir.

Həmçinin, hakim kadrlardan səmərəli istifadə edilməsi, xüsusilə əhalinin daha çox təmasda olduğu birinci instansiya məhkəmələrinin kadr korpusunun möhkəmləndirilməsi məqsədilə yuxarı məhkəmələrdə böyük təcrübə qazanmış bir sıra hakimlərin birinci instansiya məhkəmələrində istifadəsi nəzərdə tutulmuşdur.

Qeyd etmək istərdim ki, Məhkəmə-Hüquq Şurasının yuxarıda göstərilən təkliflərinin möhtərəm Prezidentimiz tərəfindən dəstəklənərək Milli Məclisə təqdimat verilməsi və müvafiq təyinatların aparılması məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Şuraya yüksək etimadın növbəti təzahürüdür.

**- Bəzi hallarda son illər məhkəmələrin iş yükünün xeyli artdığı, hakim kadrlarının azlığı ilə bağlı fikirlərə də rast gəlinir. Bəs bu istiqamətdə hansı işlər görülür?**

- Doğrudur. Əvvəla onu deyim ki, məhkəmələrin iş yükünün çoxluğu təkcə Azərbaycanda deyil, bütün dünyada məhkəmə fəaliyyətinin ən aktual cəhətlərindəndir. Bu mənada Azərbaycan da istisna deyil. Ölkəmizin sosial-iqtisadi inkişafı və mülki dövriyyənin genişlənməsi, habelə əhalinin məhkəmələrə çatımlığının asanlaşması üzrə görülən ardıcıl tədbirlər məhkəmələrə daxil olan işlərin sayına da əsaslı təsir göstərmişdir. Təkcə onu demək kifayətdir ki, yeni məhkəmə sisteminin fəaliyyətə başladığı 2000-ci illə müqayisədə məhkəmələrdə baxılan mülki işlərin sayı 20 dəfədən artıq çoxalmışdır.

Bununla belə iş yükü çox olsa da hakimlərimiz onun öhdəsindən layiqincə gəlməyə çalışırlar.

Ədalət Mühakiməsinin Səmərəliliyinə dair Avropa Komissiyasının (CEPEJ) 2016-cı ildə dərc etdiyi hesabata əsasən Azərbaycanda mülki işlərin məhkəmədə həllolma faizi 99,5 faiz, orta həlletmə müddəti isə bütün Avropada ən aşağı - 33 gün təşkil edir. Əslində bu göstəricilər özlüyündə böyük nai-

liyyətdir. Bir çox Avropa dövlətləri belə göstəriciləri arzu edə bilərlər.

Məsələn qonşu Gürcüstanda hər 100 nəfərə düşən mülki işlərin sayı Azərbaycana nisbətən 2 dəfə az olsa da, işlərin həllolma faizi 93 faiz, orta həlletmə müddəti isə 3 dəfə daha artıq - 100 gün təşkil edir.

Eyni zamanda ölkəmizdə mülki xarakterli işlər üzrə birinci instansiya məhkəmələri qərarlarının 98.5 %-nin, inzibati işlər üzrə qərarların isə təxminən 90 %-nin sabit qalması hüquqların məhkəmə müdafiəsinin real göstəricisi hesab olunmalıdır.

Təbii ki, bu göstəricilər qətiyyən arxayınlıq yaratmır, hakimlərin iş yükünün azaldılması, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə ardıcıl tədbirlər görülür.

İlk növbədə hakimlərin sayının son illər ərzində əhəmiyyətli dərəcədə - 2 dəfə artırılması qeyd olunmalıdır. Bu illər ərzində dövlət başçısı cənab İlham Əliyevin tapşırıqlarına uyğun aparılan mütərəqqi məhkəmə islahatları çərçivəsində hakimlərin seçiminə yanaşma da tamamilə dəyişmiş, şəffaf üsullarla, o cümlədən yerli və beynəlxalq müşahidəçilərin iştirakı ilə keçirilən çoxmərhələli seçim proseduru yaradılmışdır.

Bu mütərəqqi qaydalar əsasında 4 dəfə keçirilmiş seçim prosesi müvəffəqiyyətlə başa çatmışdır. Çoxsaylı yerli və beynəlxalq təşkilatların, diplomatik korpusların nümayəndələrinin iştirakı ilə keçirilmiş imtahanlar ölkəmizin kadr seçimi tarixində ilk dəfə olaraq onlayn recimində canlı yayımlanmışdır. Bütün müşahidəçilər imtahanların şəffaf və obyektivliyi ilə bağlı müsbət rəylər vermiş, nüfuzlu beynəlxalq təsisatlar, o cümlədən Avropa Şurası Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyası (CEPEC) və Avropa İttifaqı bu sahədə Azərbaycan təcrübəsinin öyrənilməsini tövsiyə etmişlər.

Yeni qaydalarla 2600-dən çox namizəd sırasından seçilmiş 307 nəfər yüksək hazırlıqlı hüquqşünas müxtəlif hakim vəzifəsinə təyin olunmuşlar. Hazırda bütün hakim korpusunun 60%-ni, o cümlədən Bakı şəhərinin rayon məhkəmələri hakimlərinin 80 faizdən çoxunu məhz bu, yeni nəsil hakimlər təşkil edirlər.

Eyni zamanda ötən il hakim olmaq üçün namizədliyi irəli sürülmüş 800-dən çox hüquqşünasla keçirilmiş müsabiqədə 126 nəfər uğur qazanaraq hakim vəzifəsinə hazırlanmaları üçün Ədliyyə Akademiyasında 1 illik tədris kurslarına cəlb olunmuşlar.

Kursun proqramı müasir tədris metodu və beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmışdır. Hazırda davam edən kurs zamanı insan haqlarının etibarlı qorunması, məhkəmə etikası, qərarların tərtibi, qanunvericiliyin yenilikləri və digər aktual məsələlərə dair mövzular təcrübəli hakimlər və mütəxəssislər tərəfindən tədris olunur, namizədlər məhkəmələrdə stac keçir, xarici dövlətlərdə, Avropa Məhkəməsində olmaqla qabaqcıl beynəlxalq təcrübələri öyrənirlər.

Yəqin ki, bu gənc hüquqşünasların təyinatı hakim kadrlarına olan ehtiyacın ödənilməsində mühüm rol oynayacaq.

**- Bildiyimizə görə məhkəmələrin iş yükünün digər üsullarla azaldılması üzrə də tədbirlər görülür.**

- Tamamilə doğrudur. Məhkəmələrə daxil olan işlərin ilbəil çoxaldığı vəziyyətdə hakimlərin sayının artırılması təbii ki, kifayət sayıla bilməz. Bu sahədə qanunvericilik və institusional tədbirlərin əhəmiyyəti nəzərə alınaraq, tərəfimizdən mütəmadi təhlillər aparılır, digər dövlətlərin müsbət təcrübəsi öyrənilir. Bu məsələ həmçinin Məhkəmə-Hüquq Şurasının iclaslarında mütəmadi müzakirə edilərək müvafiq təkliflər hazırlanır.

Bu baxımdan ötən il məhkəmə qərarları tam icra edildikdən sonra icra işinə xitam verilməsi səlahiyyətinin hakimlərdən alınaraq icra məmurlarına verilməsi məhkəmələrin iş yükünün azaldılmasına əsaslı təsir göstərmişdir.

Eyni zamanda bu gün məhkəmələrdə mülki xarakterli işlərin təxminən 60 faizini əmr icraatı qaydasında baxılan mübahisəsiz tələblər təşkil edir. Bu sahədə beynəlxalq təcrübə öyrənilməklə aparılan təhlillər göstərmişdir ki, bu işlərə məhkəmədən kənar, elektron qaydada baxılması daha effektivdir. Bununla əlaqədar hazırda məsələ üzrə müvafiq qanunvericilik layihələri hazırlanmışdır. Hesab edirəm ki, yeni prosedurun tətbiqi məhkəmələrin iş yükünün xeyli azalmasına, işlərə daha qısa müddətdə baxılmasına müsbət təsirini göstərəcəkdir.

Bununla yanaşı, məhkəmələrdə həyata keçirilən icraatlarda operativliyə nail olmaq, insan və vaxt resurslarına qənaət etmək üçün də müvafiq tədbirlər həyata keçirilir. Bu zaman isə əsas diqqət informasiya texnologiyaları sahəsində əldə edilmiş nailiyyətlərin məhkəmə icraatında istifadə edilməsinə yönəlir.

Artıq dövlət başçısının 13 fevral 2014-cü il tarixli sərəncamına uyğun olaraq yaradılan Elektron Məhkəmə İnformasiya Sisteminin əsas komponentlərinin bir sıra məhkəmələrdə tətbiqinə başlanılmışdır. Bu sistemin tətbiqi ilə insanlar məhkəmələrə elektron qaydada müraciət etmək, iclaslar barədə məlumatları və digər məhkəmə aktlarını elektron qaydada almaq imkanı əldə edirlər. Bu ilin sonunadək elektron məhkəmə sisteminin ölkə üzrə bütün məhkəmələrin 60%-ni əhatə etməsi nəzərdə tutulur.

Hesab edirəm ki, görülən bu tədbirlər, qısa müddət ərizində məhkəmələrin iş yükünün azalmasına təsirini göstərəcəkdir.

**- Avropa Məhkəməsinin ölkəmizə qarşı qərarları ilə bağlı bu günlərdə mətbuatda maraqlı statistika ilə rastlaşdıq...**

- Məlumdur ki, dövlətimiz Avropa Məhkəməsinin yurisdiksiyasını 2002-ci ildən tanıyır. Bununla əlaqədar olaraq, Məhkəmənin presedent hüququnun öyrənilməsinə, hüquq sistemimizdə tətbiqinə xüsusi önəm verilir və bu sahədə mütəmadi tədbirlər həyata keçirilir.

Hələ 19 yanvar 2006-cı il tarixli Fərmanı ilə ölkə Prezidenti məhkəmələrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi işinin təşkil edilməsi və onun məhkəmə təcrübəsində nəzərə alınmasını tövsiyə etmiş, habelə məsələ ilə əlaqədar həmin ildə Ali Məhkəmənin Plenum qərarı qəbul olunmuşdur.

Təbii ki, Avropa Məhkəməsinin presedent hüququnun düzgün tətbiqi ilk növbədə onun nə dərəcədə effektiv öyrənilməsi ilə bağlıdır. Bu zaman isə hədəf qrupları yalnız hakimlərlə məhdudlaşmamalı, daha geniş spektri, o cümlədən prokuror və vəkilləri də əhatə etməlidir. Bununla əlaqədar olaraq, son illərdə beynəlxalq təşkilatlarla əməkdaşlıq şəraitində 100-dən çox hakim, prokuror və vəkillərin Strasburqa tədris səfərləri təşkil olunmuş, hakimliyə namizədlərin Məhkəmənin fəaliyyəti ilə yerində tanış olmaları təmin edilmişdir. Eləcə də, mütəmadi olaraq Avropa Məhkəməsinin hakimləri ölkəmizə dəvət edilir, seminarlar və mühazirələr təşkil edilir.

Statistikaya gəldikdə isə, yəqin ki, Siz Avropa Məhkəməsinin ölkəmizə münasibətdə qərarları ilə bağlı statistikanı nəzərdə tutursunuz…

**- Bəli, elədir.**

- Bu açıq məlumatlardır və hər kəs onunla məhkəmənin saytı vasitəsilə tanış ola bilər. Belə ki, Azərbaycana qarşı Avropa Məhkəməsi tərəfindən çıxarılan qərarların sayı digər ölkələrlə müqayisədə qat-qat azdır. Məsələn 2016-cı ilin statistikasına nəzər salsaq görərik ki, əhalisinin sayı Azərbaycanla təxminən eyni olan ölkələrə (Bolqarıstan, Macarıstan, Yunanıstan) qarşı çıxarılan qərarların sayı ölkəmizlə müqayisədə 2 dəfədən çoxdur.

Məhkəmələrimiz tərəfindən Avropa Konvensiyasının və Avropa Məhkəməsinin presedent hüququnun tətbiqi nəticəsində vətəndaşlar əksər hallarda Avropa Məhkəməsinə üz tutmağa lüzum görmür. Müqayisə üçün qeyd edim ki, bütün Avropa üzrə Avropa Məhkəməsinə hər 10 min əhaliyə orta hesabla 0.64 şikayət daxil olduğu halda, Azərbaycan üzrə bu göstərici təxminən 2 dəfə az - 0.34 təşkil edir.

Lakin təbii ki, insan və vətəndaş hüquq və azadlıqlarının təminini ali məqsəd hesab edən dövlətimiz üçün Avropa İnsan Hüquqları Məhkəməsinin müsbət təcrübəsindən faydalanmaq, onun presedent hüququnun daha geniş tətbiqini təmin etmək və bu sahədə fəaliyyəti davam etdirmək hər zaman faydalıdır.

**Cavid müəllim, bizə ayırdığınız vaxta və dəyərli fikirlərə görə təşəkkürümüzü bildirir, gələcək işlərinizdə uğurlar arzu edirik.**

# Avropa Məhkəməsinin presedentlərinin milli səviyyələrdə öyrənilməsi və tətbiqi olduqca əhəmiyyətlidir

## *Ədliyyə Nazirliyi Beynəlxalq əməkdaşlıq idarəsinin rəisi Adil Əbilovun "525-ci qəzet"ə müsahibəsi*

*Son illər ölkəmizdə məhkəmə-hüquq sistemində ardıcıl və məqsədyönlü islahatlar aparılır, bu sahədə beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq edilir. Həmçinin məhkəmə sisteminin inkişafında mühüm əhəmiyyət kəsb edən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin öyrənilməsi və tətbiqinə xüsusi diqqət yetirilir.*

**Bununla əlaqədar ətraflı məlumat almaq üçün Ədliyyə Nazirliyinin Beynəlxalq əməkdaşlıq idarəsinin rəisi Adil Əbilovun fikirlərini öyrənmək istədik. Nazirlik rəsmisi müxbirimizin suallarını cavablandıraraq bunları şərh edib:**

- Avropa məkanında hüquq sistemlərinin təkmilləşdirilməsi və inkişafında İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Məhkəmənin yurisdiksiyası Avropa Şurasına üzv olan bütün dövlətlərə şamil olunur və 820 milyondan artıq insanın hüquqlarının təmin olunmasına xidmət edir. Lakin onun yurisdiksiyası bununla məhdudlaşmır. Məsələn, Məhkəmənin icraatında olan işlərə nəzər yetirsək görərik ki, Məhkəmə Böyük Britaniyanın İraqda keçirdiyi hərbi əməliyyatlar zamanı dinc insanların təsadüfən öldürülməsini, İtaliya sərhədçilərinin Afrikadan gəmilərlə gələn miqrantları yarı yoldan Liviyaya - müharibə zonasına qaytarmaqla onların həyatına təhlükə yaratmasını, Makedoniyanın ərazisində aşkar olunmuş gizli həbsxanalarda ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsinin yerli hökumətin xəbəri olduğu halda işgəncələr tətbiq etməsini İnsan Hüquqları üzrə Avropa Konvensiyasının pozulması kimi qiymətləndirmişdir. Göründüyü kimi, Məhkəmənin yurisdiksiyası genişlənərək Avropa məkanından xeyli kənara çıxmışdır.

Bu baxımdan Konvensiyanın implementasiyasında mühüm rol oynayan Avropa Məhkəməsinə insanlar daha tez-tez üz tuturlar. Belə bir mülahizə mövcuddur ki, Avropa Məhkəməsi "öz uğurunun qurbanı"na çevrilmişdir. Belə ki, şikayətlərin axınının xeyli dərəcədə artması Məhkəmənin hədsiz işlə yüklənməsinə gətirib çıxarmışdır. Statistikaya nəzər yetirsək görərik ki, hazırda Məhkəmədə 80 minə yaxın şikayətə baxılmaqdadır ki, onların təxminən yarısı cəmi 3 ölkədən: Ukrayna, Türkiyə və Macarıstandan daxil olmuşdur.

Məhkəmənin icraatında çoxlu sayda iş həcminin mövcudluğu və hər il müxtəlif dövlətlərdən minlərlə yeni ərizələrin daxil olması Avropa Məhkəməsinin islahatını şərtləndirmişdir. 2010-cu ildən Konvensiya sisteminin uzunmüddətli effektivliyini təmin etmək üçün Məhkəmənin gələcəyinə dair dörd yüksək səviyyəli konfrans təşkil edilmiş, problemin həlli yolları araşdırılmış, Məhkəmədə hədsiz iş yükünün mövcudluğu üzv dövlətlərdə milli məhkəmə sistemlərinin qüsurlu olması ilə əlaqələndirilmiş və bununla bağlı əhatəli tədbirləri nəzərdə tutan bəyannamələr qəbul olunmuşdur.

Yeri gəlmişkən, üzv-dövlətlərin məhkəmə sistemlərindəki problemlər ötən ilin aprelində Sofiyada keçirilmiş Avropa ədliyyə nazirlərinin konfransında geniş müzakirə olunmuşdur.

Belə ki, konfransda çıxış edən məhkəmə hakimiyyətinin təmsilçiləri qarşılaşdıqları problemlərdən danışaraq öz ölkələrində məhkəmə fəaliyyətinə digər hakimiyyətlər tərəfindən müdaxilə edilməsi, o cümlədən KİV-lərin yolverilməz təzyiqi faktlarını diqqətə çatdırmış, məhkəmələrin maliyyələşdirilməsinin pisləşməsi, hakimlərin əmək haqlarının və sayının azaldılması kimi neqativ tendensiyaları vurğulamışlar. Eyni zamanda bildirmişlər ki, məhkəmə sistemlərinin müstəqilliyi möhkəmləndirilməli, hakimlər tam siyasətsizləşdirilməli və bu sahədə korrupsiyanın qarşısının alınması üçün əlavə təsirli tədbirlər görülməlidir.

Təsadüfi deyil ki, 2016-cı ildə Avropa Məhkəməsinin qəbul etdiyi pozuntunu müəyyən edən qərarlarının hər dördündən biri məhz Konvensiyanın 6-ci maddəsinin - ədalətli məhkəmə hüququnun pozulması ilə bağlı olmuşdur.

Qeyd olunan konfranslarda ölkəmiz ədliyyə naziri səviyyəsində təmsil olunmuş, Azərbaycanda dövlət başçısının rəhbərliyi ilə məhkəmə sistemində

aparılan və məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin olunmasına xidmət edən islahatlara böyük maraq göstərilərək təqdir edilmişdir.

Bildirməliyəm ki, hər il Məhkəmə öz fəaliyyəti və hər bir dövlət üzrə daxil olan şikayətlər və çıxarılan qərarlarla bağlı statistik hesabatları onun saytında dərc edir. Statistikaya əsasən, çıxarılan qərarların təxminən yarısı 4 ölkəyə: Rusiya, Ukrayna, Türkiyə və Rumıniyaya qarşı olmuşdur. Məhkəmənin fəaliyyəti dövründə isə qərarların 25 faizi Türkiyə və İtaliyaya qarşı çıxarılmışdır.

Azərbaycana qarşı isə Avropa Məhkəməsi tərəfindən 2016-cı ildə digər ölkələrlə müqayisədə çox az, cəmi 16 qərar qəbul olunmuşdur. Halbuki əhalisinin sayı Azərbaycanla təxminən eyni olan Bolqarıstana qarşı 33, Macarıstana qarşı 40, Yunanıstana qarşı isə 41 qərar çıxarılmışdır.

Məhkəməyə edilən şikayətlərin sayı ilə bağlı qeyd olunmalıdır ki, Məhkəmənin statistik hesabatlarında bu rəqəm dövlətlər üzrə hər 10 min əhaliyə münasibətdə hesablanır və Avropa üzrə orta rəqəm 0.64-dür. Azərbaycan üzrə isə bu rəqəm təxminən 2 dəfə aşağı - 0.34 təşkil edir. Ölkəmizlə müqayisədə Avropa İttifaqına üzv və digər dövlətlərdən, məsələn, Macarıstandan 16 dəfə, Rumıniyadan 12 dəfə, Bosniya və Herseqovinadan 8 dəfə çox şikayət daxil olmuşdur.

Unutmaq olmaz ki, Avropa Məhkəməsinə edilən şikayətlərin böyük əksəriyyətinin Konvensiyaya uyğun olmadığından rədd edilməsi, əksər ərizələrin təkrar olması faktı düzgün hüquqi məlumatlandırmanın aparılmaması ilə əlaqədardır. Ona görə də Avropa Məhkəməsinin presedentlərinin milli səviyyələrdə öyrənilməsi və tətbiqi, insan hüquqlarının müdafiəsi sahəsində əsas iştirakçılar olan hakimlər, prokurorlar və vəkillərin tədrisi olduqca əhəmiyyətlidir. Bunun üçün üzv-dövlətlər tərəfindən müxtəlif, o cümlədən maarifləndirici tədbirlər görülməlidir ki, Məhkəməyə şikayətlərin sayı azalsın və müraciətlərin keyfiyyəti artsın.

Bununla əlaqədar ölkəmiz tərəfindən bir sıra mühüm tədbirlər görülmüş, o cümlədən Avropa Məhkəməsinə şikayətlərin qəbul edilmə kriteriyalarına dair Praktiki Bələdçi Azərbaycan dilinə tərcümə olunaraq Avropa Şurasının və Ədliyyə Nazirliyinin internet saytında yerləşdirilmişdir.

Eyni zamanda, tədris prosesinin səmərəsinin artırılmasına, təlimlərin, xaricdə təhsilin təşkilinə, hakimlər üçün Avropa Məhkəməsinin presedentləri və qərarları üzrə vəsaitlərin nəşri və yayılmasına xüsusi önəm verilir. Son illər çoxsaylı xarici nüfuzlu mütəxəssislər, həmçinin Avropa Məhkəməsinin hakimləri, o cümlədən sədrləri ölkəmizdə konvensiya üzrə təlimlərdə iştirak etmişlər. Həmçinin, konvensiyanın tətbiqi problemləri ilə bağlı Ali Məhkəmədə mütəmadi həftəlik seminarlar keçirilir, hakimlər və digər hüquqşünaslar üçün Strasburq məhkəməsinə tədris səfərləri təşkil olunur.

Bununla yanaşı, Avropa Şurası ilə birgə Ədliyyə Akademiyası tərəfindən "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi" adlı ikiillik layihə çərçivəsində paytaxtda və bölgələrdə hakimlər, hakimliyə namizədlər, prokurorlar və vəkillər üçün silsilə, o cümlədən video-konfrans vasitəsilə təlimlər keçirilir.

**İdarə rəisi həmçinin, ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları zamanı beynəlxalq təşkilatlarla müxtəlif sahələr üzrə əməkdaşlıqdan söhbət açıb:**

- Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə və ədliyyə, o cümlədən penitensiar sistemdə ardıcıl islahatlar həyata keçirilir. Cari il fevralın 10-da dövlət başçısının imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamı ilə bu islahatlar yeni mərhələyə qədəm qoymuşdur.

Bununla əlaqədar artıq müəyyən addımlar atılmış, beynəlxalq təcrübə öyrənilmiş, həmçinin Avropa İttifaqı ilə birgə həyata keçirilən "Azərbaycanda ədliyyə sisteminin inkişafına və cinayət işləri üzrə məhkəmə qərarlarını icra edən qurumların göstərdiyi xidmətlərin təkmilləşdirilməsinə dəstək" adlı ikiillik layihə çərçivəsində Sərəncamla yaradılmış Probasiya xidmətinin əsasları, qanunvericiliyin təkmilləşdirilməsi, təlim kurslarının və səfərlərinin, maarifləndirmə tədbirlərinin təşkili, məhkumlar üzərində elektron monitorinqin tətbiqi ilə bağlı pilot layihələr hazırlanır.

Eyni zamanda, dövlət başçısının tapşırığına əsasən mübahisələrin məhkəmədən kənar alternativ həllində mühüm rol oynayan mediasiya institutunun tətbiqi də gündəmdədir. Bununla əlaqədar Avropa İttifaqı ilə mediasiya sahəsində də ayrıca layihənin təşviqinə dair razılığa gəlinmiş və bu il layihənin icrasına başlanılması nəzərdə tutulur. Paralel olaraq Almaniya Federal Ədliyyə Nazirliyi yanında Beynəlxalq Hüquq Əməkdaşlığı Fondu ilə də səmərəli əməkdaşlıq edilir. Ötən ay Fondun icraçı direktoru ölkəmizdə səfərdə olmuş və yeni əməkdaşlıq sahələrinə, o cümlədən probasiya və mediasiya institutlarının tətbiqi ilə bağlı təcrübə mübadiləsinin aparılmasına dair müzakirələr keçirilmişdir.

Bildirməliyəm ki, Ədliyyə Nazirliyi tərəfindən, həmçinin Avropa Şurasının Azərbaycan üçün Fəaliyyət Planının icrası çərçivəsində bir çox sahələr üzrə, o cümlədən hüquqşünasların insan hüquqları üzrə tədrisi, məhkəmələrin səmərəliliyinin artırılması, penitensiar sistemdə islahatlara əlavə dəstək, regiona ədliyyə idarələrinin potensialının gücləndirilməsi, vətəndaş cəmiyyətinin inkişafı ilə bağlı birgə layihələr təşviq olunaraq öz real nəticələri verir.

Azərbaycanda məhkəmə islahatlarına nüfuzlu beynəlxalq maliyyə qurumu olan Dünya Bankı tərəfindən də dəstək göstərilərək məhkəmə infrastrukturunun müasirləşdirilməsi, elektron məhkəmənin tətbiqi və digər sahələrdə dünyada nümunəvi uğurlu layihələr həyata keçirilir. Paytaxtda və bölgələrdə müasir məhkəmə kompleks və binalarının, o cümlədən bu günlərdə dövlət başçısının iştirakı ilə istifadəyə verilmiş Nəriman Rayon Məhkəməsinin yeni binasının inşası məhz Dünya Bankı ilə birgə icra olunan layihələr çərçivəsində ərsəyə gəlmiş, hazırda da bu istiqamətdə işlər uğurla davam olunur.

**A.Əbilov həmçinin, digər dövlətlərlə ədliyyə sahəsində əməkdaşlıqdan, qarşılıqlı təcrübə mübadiləsinin aparılmasından bəhs edib:**

Həyata keçirilən hərtərəfli uğurlu islahatlar, həmçinin beynəlxalq hüquq əməkdaşlığının genişləndirilməsini sürətləndirmişdir. Ədliyyə Nazirliyi bir çox xarici dövlətlərlə səmərəli ikitərəfli əməkdaşlıq edir. Artıq 30 ölkənin Ədliyyə nazirlikləri ilə əməkdaşlığa dair mühüm sənədlər, o cümlədən cari ilin aprelində Azərbaycan ədliyyə nazirinin Əlcəzairə səfəri zamanı nazirliklərimiz arasında məhkəmə, ədliyyə, o cümlədən penitensiar sistemin təkmilləşdirilməsi, elektron ədliyyə, qanunvericilik, ədliyyə işçilərinin və hakimlərin tədrisi sahəsində birgə tədbirlərin keçirilməsini nəzərdə tutan əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır. Xüsusi qeyd olunmalıdır ki, bu, iki ölkə arasında imzalanmış ilk sənəddir. Səfər çərçivəsində əməkdaşlığa dair məhsuldar danışıqlar aparılmış, əhaliyə göstərilən elektron ədliyyə xidmətləri, hakimlərin və penitensiar xidmət əməkdaşlarının tədrisi prosesi və şəraiti ilə tanış olunmuş, hər iki tərəf üçün faydalı olan yaxşı təcrübələr bölüşülmüşdür.

Eyni zamanda, əvvəldə qeyd etdiyimiz probasiya və mediasiya sahələrində ikitərəfli səviyyədə də təcrübələrin öyrənilməsinə böyük önəm verilir. Dövlət başçısının 2017-ci il 10 fevral tarixli Sərəncamının imzalandığı ərəfədə Gürcüstan ədliyyə nazirinin Azərbaycana səfəri zamanı probasiya xidməti və "elektron qolbaq"ın tətbiqi ilə bağlı müzakirələr aparılmış, qonşu ölkənin bu sahədə müəyyən təcrübəsinin olduğu nəzərə alınaraq onunla tanış olmaq barədə razılığa gəlinmiş və qısa müddətdən sonra nümayəndə heyətimiz Gürcüstana səfər etmişdir. Bundan əvvəl isə Türkiyənin bu sahədə təcrübəsi yerində öyrənilmişdir.

Bununla yanaşı, Azərbaycanda aparılan ədliyyə və məhkəmə islahatları, elektron məhkəmə sisteminin tətbiqi, əhaliyə göstərilən xidmətlər, o cümlədən Azərbaycan brendi olan "ASAN xidmət"lə tanış olmaq məqsədilə cari ilin aprelində Latviyanın ədliyyə üzrə dövlət katibi, ötən həftə isə Belarus Ədliyyə Nazirliyinin nümayəndə heyəti ölkəmizə səfərlər etmiş, əməkdaşlıq edilə bilən sahələr üzrə faydalı fikir və təcrübə mübadiləsi aparılmışdır.

Bu günlərdə isə Ukraynanın ədliyyə naziri əməkdaşlığın genişləndirilməsi məqsədilə Azərbaycanda səfərdə olmuş, hər iki dövlətdə ədliyyə və məhkəmə sahəsində aparılan islahatlar, probasiya və mediasiya institutunun tətbiqi, əhaliyə hüquqi xidmətlərin göstərilməsi və s. üzrə əməkdaşlığın perspektivləri müzakirə olunmuşdur.

Azərbaycan hüquqi yardım, ekstradisiya, məhkumların verilməsi sahəsində bir çox dövlətlərlə, o cümlədən İran İslam Respublikası ilə səmərəli əməkdaşlıq edir. Bu sahədə əlaqələrin genişləndirilməsi və təcrübə mübadiləsi məqsədilə İranın ədliyyə naziri bu ilin fevralında respublikamıza səfər etmiş, iki ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Birgə Bəyanat imzalanmış, iranlı nazir ölkəmizdə məhkəmə-hüquq islahatlarına maraq göstərərək Yasamal Rayon Məhkəməsinin müasir binası və elektron məhkəmə informasiya sistemi ilə tanış olmuş, təcrübə mübadiləsi aparılmışdır.

İndoneziyanın ədliyyə naziri də ölkəsində hüquq sistemində islahatların aparıldığı nəzərə alınaraq bir çox dövlətlərin qabaqcıl təcrübələrinə, o cümlədən Azərbaycanda da bu sahədə görülən işlərə maraq göstərmiş və aprel ayında ölkəmizdə yolüstü səfərdə olarkən nazirliyin rəhbərliyi ilə görüşmüş və qarşılıqlı fəaliyyətin dərinləşdirilməsi ilə bağlı bir sıra konkret təkliflər irəli sürmüşdür.

Göründüyü kimi, 2017-ci ilin ötən dövrü Ədliyyə Nazirliyinin beynəlxalq hüquqi əməkdaşlığı islahatların müxtəlif sahələr üzrə təcrübə mübadiləsi baxımından zəngin və məhsuldar olmuşdur. Bu istiqamətdə tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

# Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı növbəti test imtahanı keçirilib




**Ədliyyə Nazirliyinin kadr korpusunun yeni nəsil ədliyyə işçiləri ilə möhkəmləndirilməsi məqsədilə iyun ayının 10-da qulluğa qəbulla bağlı növbəti müsabiqə üzrə test imtahanı keçirilib.**

Dövlət İmtahan Mərkəzi (DİM) ilə birlikdə Bakı İdman Zalında şəffaf şəraitdə keçirilmiş imtahanı aidiyyəti dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının nümayəndələri izləyib, həmçinin tədbirin gedişi Nazirliyin internet səhifəsi (www.justice.gov.az) vasitəsilə "on-line" rejimində birbaşa yayımlanıb.

"Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi Qaydaları"na əsasən test imtahanında namizədin hüquqi biliklərini, məntiqi nəticələr çıxarmaq qabiliyyətini və ümumi dünyagörüşünü müəyyən etmək üçün verilən test tapşırığı 100 sualdan ibarət olub.

529 namizədin iştirak etdiyi imtahanın nəticələrinə görə 248 nəfər müvəffəqiyyət qazanıb (siyahı Nazirliyin və DİM-nin (www.dim.gov.az) internet səhifələrində yerləşdirilib).

Bildiririk ki, test imtahanında uğur qazanmış namizədlər müsabiqənin söhbət mərhələsində iştirak etmək üçün qanunvericilikdə nəzərdə tutulmuş sənədlərini 15 gün ərzində, saat 9-dan 18-dək Ədliyyə Nazirliyinin Kadrlar idarəsinə (Bakı şəhəri, İnşaatçılar prospekti 1) təqdim etməlidirlər. Kadr sənədlərinin siyahısını və müvafiq nümunələri Nazirliyin internet səhifəsindən əldə etmək mümkündür.

Xatırladırıq ki, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanunla müəyyən edilmiş bütün tələblərə cavab verən namizədlər növbəti mərhələyə buraxılacaq və onlarla fərdi qaydada söhbət aparılacaqdır. Söhbətin keçirilmə vaxtı və yeri barədə namizədlərə məlumat veriləcəkdir.

Əlavə informasiyanı Nazirliyin internet səhifəsindən, eləcə də (012) 538-01-62, (012) 537-05-90 nömrəli telefonlar vasitəsilə almaq olar.

# Vərəmlə mübarizədə Azərbaycanın müsbət təcrübəsi öyrənilir

**Ölkəmizdə ümumbəşəri sosial bəla olan vərəm əleyhinə səmərəli mübarizə aparılaraq, bu sahədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyələrinə uyğun strategiyalar hazırlanıb, xüsusi qanun qəbul olunub, beynəlxalq təşkilatlarla birgə müvafiq proqramlar və layihələr həyata keçirilir, o cümlədən penitensiar müəssisələrdə bu xəstəliyə qarşı mübarizəyə xüsusi diqqət yetirilir.**

Ədliyyə Nazirliyi tərəfindən Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) ilə birgə məhkumlara yüksək ixtisaslı tibbi yardımın göstərilməsi sahəsində qarşılıqlı fəaliyyət həyata keçirilərək tibb xidməti, məhkumların dərman təminatı yaxşılaşdırılıb, penitensiar müəssisələr ən yeni tibb avadanlığı ilə təchiz olunub. Həmçinin, vərəmli məhkumlar üçün müasir laborator və diaqnostik avadanlıqlarla təchiz edilmiş ayrıca müalicə müəssisəsi fəaliyyət göstərir.

Həyata keçirilən kompleks tədbirlər hesabına cəzaçəkmə müəssisələrində dərmanlara həssas və-



rəmli məhkumların müalicəsi üzrə ÜST-nin müəyyən etdiyi hədəflərdən çox - 90 faiz, həmçinin müalicəyə çətin tabe olan vərəmə düçar olmuş xəstələrin müalicəsi üzrə 80 faiz müsbət nəticələrə nail olunub ki, bu da dünyada ən yüksək göstəricilərdəndir. Bunun nəticəsi olaraq, son 20 ildə cəzaçəkmə müəssisələrində vərəmə yoluxma hallarının sayında ilbəil kəskin azalma müşahidə olunub, vərəmdən ölüm isə 100 dəfə azalıb.

Azərbaycanın bu sahədə nailiyyətləri ÜST, Qlobal Fond, BQXK, "Vərəmi Dayandırmaq üzrə Tərəfdaşlıq" və digər beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilərək region ölkələri üçün nümunəvi təcrübə kimi göstərilib, habelə BMT-nin İqtisadi və Sosial Şurasında məşvərətçi statusuna malik olan ABŞ-ın İslah Müəssisələri və Həbsxanalar Beynəlxalq Assosiasiyası tərəfindən illik Səhiyyə Mükafatına layiq bilinib.

Eyni zamanda, BQXK birgə fəaliyyətin nəticələrinə əsaslanaraq ölkəmizin penitensiar müəssisələrdə vərəmlə mübarizədə müsbət təcrübəsini digər dövlətlər üçün örnək kimi dəyərləndirərək onun dünyada yayılmasının əhəmiyyətini bildirib.

Bununla əlaqədar praktiki olaraq dünyada ilk dəfə cəzaçəkmə müəssisələrində bu spesifik təcrübəni yaymaq məqsədilə 2012-ci ildə İxtisaslaşdırılmış müalicə müəssisəsinin nəzdində Beynəlxalq təlim mərkəzi yaradılıb. Mərkəz ölkəmizin penitensiar müəssisələrində işləyən istər tibbi, istərsə də qeyri-tibbi ixtisaslı əməkdaşların vərəm üzrə biliklərə yiyələnməsinə xidmət etməklə yanaşı, digər ölkələrin nümayəndələrinin hazırlığını da həyata keçirir.

Son illər 15-ə yaxın dövlətdən tərkibində səhiyyə, penitensiar xidmət və beynəlxalq təşkilatların vərəmlə mübarizə sahəsində işləyən 120-dək nümayəndələri Bakıda səfərdə olub və müsbət təcrübəmizdən bəhrələniblər. Artıq bəzi ölkələrdə bizim təcrübəyə oxşar modellərin tətbiqinə başlanılıb.

Azərbaycanın bu sahədə təcrübəsini öyrənmək və vərəmlə mübarizədə son yenilikləri əldə etmək məqsədilə beynəlxalq qurumların dəstəyi ilə bu günlərdə Şərqi Avropa və Mərkəzi Asiya ölkələrinin nümayəndələri respublikamızda səfərdə olublar. Ümumilikdə 26 nəfərdən ibarət olan nümayəndə heyətinin tərkibinə Filippin, Makedoniya, Belarus, Ukrayna, Qırğızıstan, Tacikistan və Özbəkistanın Ədliyyə, Daxili İşlər, Səhiyyə nazirliklərini, Cəza-icra qurumlarını, qeyri-hökumət təşkilatlarını təmsil edən penitensiar müəssisələrdə vərəm əleyhinə xidmətlər göstərən həkimlər və rəhbər vəzifəli şəxslər daxildirlər.

Səfər zamanı nümayəndə heyəti üçün ÜST ilə Əməkdaşlıq Mərkəzi statusu olan Beynəlxalq Təlim Mərkəzi tərəfindən "Çoxsaylı / Geniş Dərmanlara Davamlı Vərəmin yüksək yükü olan ölkələrin həbsxanalarında vərəmə nəzarət tədbirlərinin təkmilləşdirilməsi" mövzusunda rus və ingilis dillərində beynəlxalq tədris kursu təşkil olunub.

Qonaqlar əvvəlcə Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad edərək məzarı önünə gül dəstələri qoyublar.

Kursun açılışında Ədliyyə Nazirliyi Tibb baş ida-





rəsinin rəisi, tibb xidməti general-mayoru Rəfail Mehdiyev, ÜST Avropa Regional Bürosu Mərkəzi Aparatının və Azərbaycan üzrə Ölkə Ofisinin məsul şəxsləri iştirak edib, beynəlxalq səviyyədə artıq üçüncü dəfə keçirilən tədbirin mühüm əhəmiyyəti qeyd olunub. 5 gün davam edən tədris kursunda dinləyicilər üçün yerli mühazirəçilər, həmçinin dəvət olunmuş ÜST Baş Ofisinin və BQXK-nın həbsxanalarda səhiyyə departamentinin (İsveçrə), ÜST Avropa Regional Bürosunun (Danimarka), "Sağlamlıq naminə tərəfdaşlar" (ABŞ) və "Vərəmi Dayandırmaq üzrə Tərəfdaşlıq" təşkilatlarının ekspertləri tərəfindən xüsusi proqram üzrə müxtəlif mövzular tədris olunub, onları maraqlandıran suallar ətrafında müzakirələr aparılıb.

Eyni zamanda, nümayəndə heyətinə Azərbaycanın penitensiar müəssisələrində vərəmə nəzarət fəaliyyətləri ilə əyani tanışlıq imkanı yaradılıb, dinləyicilər İxtisaslaşdırılmış müalicə müəssisəsinə, Bakı istintaq təcridxanasına və 15 saylı cəzaçəkmə müəssisəsinə səfər edərək vərəmin aşkarlanması, laborator diaqnostikası və müalicəsi ilə bağlı tədbirləri bilavasitə izləyib, həmçinin praktiki məşğələlər keçirilib.

Təlim prosesində müalicənin mərkəzləşdirilmiş qaydada aparılması, dərmanlara həssaslıq göstəricilərinə müvafiq standartlaşdırılmış müalicə rejimlərinin təyini, beynəlxalq standartlara uyğun innovativ laborator diaqnostika metodlarının geniş tətbiqi, məhbusların saxlanma rejiminin gözlənilməsi şərti ilə infeksiyaya nəzarət tədbirlərinə riayət olunması, azadlığa buraxılan xəstələrin müalicəsinin sonadək izlənilməsi və sosial dəstək kimi Azərbaycanın unikal təcrübəsi dinləyicilər tərəfindən böyük maraqla qarşılanıb.

Kursun yekununda təəssüratlarını bölüşən dinləyicilər səmimi qonaqpərvərliyə və yüksək təşkilatçılığa görə Ədliyyə Nazirliyinə minnətdarlıqlarını ifadə edib, penitensiar sistemdə vərəmə nəzarət üzrə Azərbaycanın müsbət təcrübəsini əyani öyrənərək onu örnək kimi qəbul etdiklərini və gələcəkdə öz ölkələrində tətbiq edəcəklərini vurğulayıb, tədbirin onlar üçün faydalı olduğunu qeyd ediblər.

Səfər çərçivəsində, həmçinin ölkəmizin tarixi və mədəni abidələri, o cümlədən Bakının müasir rəmzlərindən sayılan möhtəşəm Heydər Əliyev Mərkəzi ilə tanışlıq qonaqlarda xoş təəssürat yaradıb, onlara son illər ərzində respublikamızın hərtərəfli inkişafı, habelə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı həqiqətləri barədə dolğun məlumatlar verilib.

# Ədliyyə naziri yanında İctimai Komitənin hesabat yığıncağı

**Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən vətəndaş cəmiyyətinin inkişafına, dövlət orqanlarının fəaliyyətində ictimai iştirakçılığın geniş tətbiqinə böyük önəm verilir. Bu məqsədlə Ədliyyə Nazirliyi fəaliyyətində şəffaflığa, ictimaiyyətlə əlaqələrə xüsusi önəm verərək vətəndaş cəmiyyəti institutları ilə səmərəli qarşılıqlı fəaliyyət həyata keçirir, 2006-cı ildən ədliyyə naziri yanında tərkibi qeyri-hökumət hüquq müdafiə təşkilatlarının nümayəndələrindən ibarət formalaşdırılmış İctimai Komitə uğurla fəaliyyət göstərir.**

Ötən dövrdə Komitənin fəaliyyəti xeyli təkmilləşdirilib, o cümlədən "İctimai iştirakçılıq" haqqında Qanuna uyğun olaraq səlahiyyətləri genişləndirilib, həmçinin qurumun ayrıca internet səhifəsi yaradılaraq fəaliyyət göstərir.

Müxtəlif ədliyyə sahələri üzrə fəaliyyətə geniş cəlb olunan İctimai Komitə mütəmadi olaraq cəzaçəkmə müəssisələrinə başçəkmələr həyata keçirir, məhkumların islah prosesində, onlara hüquqi yardımın göstərilməsində, cəzadan şərti olaraq vaxtın-




dan əvvəl azad etmə institutunun tətbiqində fəal iştirak edir. Eyni zamanda, Nazirliyin kollegiya iclaslarında, konfrans və seminarlarda, habelə qulluğa qəbulla bağlı müsabiqələrdə Komitə üzvlərinin iştirakları təmin olunur, birgə "açıq qapı" günləri keçirilir, vətəndaş cəmiyyətinin nümayəndələri ədliyyə orqanlarının fəaliyyəti ilə bağlı ictimai rəyin öyrənilməsi üzrə monitorinqlərə cəlb olunurlar.

Ötən dövrdə İctimai Komitə bu təsisata daxil olmayan digər QHT və KİV nümayəndələri, habelə Ombudsmanın Milli preventiv mexanizm qrupu ilə birgə müxtəlif cəzaçəkmə müəssisələrinə 340-dək başçəkmə həyata keçirib, məhkumların saxlanma şəraitinə və islah prosesinə xüsusi diqqət yetirib, 2000 nəfərdən artıq məhkuma müxtəlif istiqamətlər üzrə hüquqi yardım göstərib.

Həmçinin cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutunun tətbiqində nazirlik tərəfindən yaradılmış Komissiyanın üzvləri ilə birgə, habelə məhkumların valideynləri və yaxınları, hətta zərərçəkmiş şəxslər dəvət olunmaqla cəzaçəkmə müəssisələrinə 320-dən artıq səfər edilərək məhkumlarla görüşlər keçirilib, həqiqi islah yoluna qədəm qoymuş 7.000-dən çox məhkum şərti azad olunmağa və ya yüngül rejimli müəssisəyə keçirilməyə layiq bilinərək məhkəmələr tərəfindən baxılmış həmin işlərdən 97%-i müsbət həll edilib və həmin şəxslər arasında residiv hallarının sayı xeyli azalıb.

Vətəndaş cəmiyyəti ilə hüquq mühafizə orqanları arasında faydalı əməkdaşlıq mexanizmi və nümunəvi model kimi İctimai Komitə özünü doğruldur, müsbət təcrübəsi BMT, Avropa Şurası, Beynəlxalq Qızıl Xaç Komitəsi kimi nüfuzlu beynəlxalq təşkilatların diqqətini cəlb edir.

Komitənin işinin səmərəliliyinin artırılması daim diqqətdə saxlanılır, mütəmadi olaraq nazirliyin rəhbərliyi və onu formalaşdıran Seçki Komissiyası ilə görüşlər keçirilərək fəaliyyəti ilə bağlı təhlillər aparılır, qiymətləndirilir və tövsiyələr verilir.

Cari il iyun ayının sonlarında qurumun iki illik səlahiyyət müddətinin başa çatması ilə əlaqədar tərkibi millət vəkillərindən, nüfuzlu ictimaiyyət nümayəndələrindən, alimlərdən, din xadimlərindən və aidiyyəti orqanların təmsilçilərindən ibarət olan Seçki Komissiyası ilə İctimai Komitə üzvlərinin iyunun 21-də Beynəlxalq Mətbuat Mərkəzində hesabat görüşü keçirilib.

İclasda Komitənin hazırkı tərkibinin fəaliyyəti dövründə gördüyü işlər barədə məlumat dinlənilib, ədliyyə fəaliyyətinin müxtəlif istiqamətləri, o cümlədən məhkumların hüquqlarının qorunması, onların islahı üzrə tədbirlərdə qurumun əhəmiyyətli töhfələr verdiyi vurğulanıb, Komitənin ədliyyə sistemində səmərəli ictimai nəzarət mexanizmi kimi fəaliyyəti qeyd olunub.

Bildirilib ki, Komitənin yeni tərkibinin formalaşdırılması barədə kütləvi informasiya vasitələrində müvafiq elanlar verilərək qeyri-hökumət təşkilatları və hüquq müdafiəçiləri qurumun fəaliyyətində iştirak etməyə dəvət olunublar.

Eyni zamanda, qurumun hesabatına dair faydalı fikir mübadiləsi aparılıb, Seçki Komissiyası tərəfindən diqqət yetirilməsi vacib olan məsələlər müzakirə olunub, Komitənin işinin daha da canlandırılması, şəffaflığının daha da artırılması, qurumun beynəlxalq əlaqələrinin genişləndirilməsi, ictimai iştirakçılığın müxtəlif formaları ilə bağlı tövsiyələr verilib.

Tədbirdə qarşılıqlı maraq doğuran suallara aydınlıq gətirilib.

# Uşaqların Beynəlxalq Müdafiə Günü ədliyyə orqanlarında qeyd olunub



**BMT Baş Assambleyasının qərarı ilə müəyyən edilmiş 1 iyun - Uşaqların Beynəlxalq Müdafiə Günü münasibətilə Ədliyyə Nazirliyinin qeydiyyat orqanlarında silsilə tədbirlər keçirilib.**

Tədbirlərdə əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət uşaq siyasətinin ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirildiyi, uşaqların firavan və sağlam mühitdə layiqli şəxsiyyət kimi böyüyüb formalaşması üçün mühüm işlərin aparıldığı qeyd olunub. Eyni zamanda, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın ölkəmizdə uşaqların hərtərəfli inkişafına böyük diqqət və qayğısı, bu sahədə çoxşaxəli təşəbbüslərin gerçəkləşməsində xidmətləri vurğulanıb.

Diqqətə çatdırılıb ki, hər bir uşağın doğumunun qeydiyyata alınması ölkədə demoqrafik inkişafa ciddi təsir göstərir və bu istiqamətdə Ədliyyə Nazirliyi tərəfindən mühüm tədbirlər həyata keçirilir. Müasir elektron informasiya sistemlərinin və elektron xidmətlərin geniş tətbiqi, o cümlədən əhalinin ən çox istifadə etdiyi e-xidməti vasitəsilə uşaqların doğulması ilə bağlı həyatlarında ən gözəl anları yaşayan valideynlərə ad seçilməsində köməkliyin göstərilməsi, həmçinin nazirliyin təşəbbüsü ilə doğumun dövlət qeydiyyatının səyyar qaydada bilavasitə doğum evlərində aparılması cəmiyyətimizdə rəğbətlə qarşılanır.

Eyni zamanda, ölkə Prezidentinin təşəbbüsü yaradılaraq Azərbaycan brendinə çevrilmiş və ədliyyənin də müvafiq xidmətlər göstərdiyi "ASAN xidmət" mərkəzlərinin bu sahədə vətəndaş məmnunluğunu təmin edən fəaliyyəti qeyd olunub.

Əlamətdar gün münasibətilə yeni anadan olmuş 930 uşağın doğumu səyyar qaydada onların doğulduğu tibb müəssisələrində təntənəli şəraitdə qeydiyyata alınıb və körpələrin valideynlərinə şəhadətnamələr, habelə şəxsiyyət vəsiqələri təqdim olunub.

# Ədliyyə Nazirliyi tərəfindən göstərilən elektron xidmətlərə dair ictimai təqdimat

**"Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası çərçivəsində Şirvan şəhərində Ədliyyə Nazirliyi tərəfindən göstərilən elektron xidmətlərə dair ictimai təqdimat keçirilib.**

Tədbirdə Nazirliyin məsul əməkdaşları, Şirvan şəhəri və Hacıqabul rayonunun ictimaiyyəti, dövlət orqanları və qeyri-hökumət təşkilatlarının nümayəndələri, eləcə də sahibkarlar iştirak ediblər.

Təqdimat zamanı Ədliyyə Nazirliyində elektron xidmətlərin tətbiqi sahəsində görülmüş işlərdən bəhs olunaraq onların çevik idarəetmənin təmin edilməsində, şəffaflığın artırılmasında, işin səmərəli təşkilində və vaxt itkisinin qarşısının alınmasında xüsusi önəm kəsb etdiyi qeyd olunub. Bildirilib ki, nazirlik tərəfindən 25 istiqamət üzrə elektron xidmətlər göstərilir və onlardan yararlanmaq üçün Ədliyyə Nazirliyinin rəsmi internet saytına və ya "Elektron hökumət" portalına müraciət oluna bilər.

Tədbirdə ədliyyə orqanları tərəfindən göstərilən elektron xidmətlər əyani nümayiş etdirilərək hər bir elektron xidmətin mahiyyəti və funksiyası barədə ətraflı məlumat verilib, ondan istifadə qaydası izah olunub.

Diqqətə çatdırılıb ki, hazırda nazirlik tərəfindən göstərilən elektron xidmətlər vasitəsilə ədliyyə

orqanlarının iş rejimi, dislokasiyası, əlaqə vasitələri, qeyri-hökumət təşkilatları və vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı, notariat hərəkətlərinin aparılması qaydası, zəruri sənədlər və ödəmələr, məhkəmə qərarlarının icrası, eləcə də vətəndaşların fərdi identifikasiya nömrələri, vərəsəlik işlərinin açılıb-açılması, həmçinin mülki dövriyyə nəticəsində baş verən hüquqi hadisələrdən yaranan yeni hüquq və vəzifələr barədə məlumat əldə etmək mümkündür.

Eyni zamanda, uşaqlara ad seçilməsinə kömək məqsədilə Azərbaycan adları, onların mənşəyi və izahı, əhali arasında yayılma səviyyəsi, habelə sənədlərin qüvvədən düşməsi barədə informasiya almaq üçün geniş axtarış sisteminin imkanları nümayiş etdirilib.

Mətbu nəşrlərin uçotu və qeyri-kommersiya hüquqi şəxslərin ləğvi barədə müraciət və sənədlərin qəbulunun elektron qaydada aparılması, borcun, icra ödənişi, icra hərəkətləri ilə bağlı xərclərin, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı və notariat hərəkətlərinin rəsmiləşdirilməsi üçün tələb olunan ödənişlərin internet vasitəsilə həyata keçirilməsi, habelə vətəndaşların rahatlığı üçün məsul ədliyyə işçilərinin qəbuluna elektron qaydada birbaşa yazılmağın mümkünlüyü vurğulanıb.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 iyun tarixli Fərmanına uyğun olaraq nazirliyin saytında "Elektron xidmət" bölməsi təkmilləşdirilib, həmçinin ədliyyə orqanları tərəfindən hüquqi və fiziki şəxslərə göstərilən bütün xidmətlər barədə ətraflı məlumat əks olunan "Dövlət xidmətləri" bölməsi yaradılıb.

Tədbir iştirakçılarının nəzərinə çatdırılıb ki, təkcə son 3 il ərzində elektron xidmətlərə müraciətlərin sayı 3 dəfədən çox artaraq ötən ildə 1,8 milyonu ötmüşdür.

Bununla yanaşı, tədbirdə Ədliyyə Akademiyası Hüquq klinikasının fəaliyyəti, əhaliyə pulsuz hüquqi yardım göstərilməsi və s. məsələlər diqqətə çatdırılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## Ədliyyə Akademiyasının məlumatları

**Cari ilin mayın 14-dən iyunun 3-dək Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının, Məhkəmə ekspertizası mərkəzinin və Baş Prokurorluğun əməkdaşları Koreya Respublikasının Seul şəhərində təlim səfərində olublar.**




Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi tərəfindən təşkil edilmiş təlimdə bu ölkənin Ədliyyə və Daxili İşlər nazirliklərinin, Baş Prokurorluğun, Prokurorluq yanında Elmi Araşdırmalar Mərkəzinin və digər qurumların məsul şəxsləri tərəfindən ədliyyə və prokurorluq orqanlarının fəaliyyəti, hüquqi yardım, məhkəmə ekspertizasının bəzi məsələləri, cinayət prosesi, kibercinayətkarlıqla mübarizə, elektron monitorinq sistemi və digər aktual mövzularda mühazirələr tədris olunub.

Səfər zamanı nümayəndə heyəti tərəfindən ixtisasartırma kursunda əldə olunan biliklərdən istifadə etməklə "Kibercinayətkarlıqla mübarizədə istintaq və ekspertiza orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi üsulları" mövzusunda Fəaliyyət Planı hazırlanaraq təqdimat keçirilib.

Təqdimatda layihənin aktuallığı əsaslandırılıb, qarşıya qoyulan məqsədlər işıqlandırılıb, kibercinayətkarlıqla mübarizədə hüquq-mühafizə orqanlarının fəaliyyətinin hazırkı vəziyyəti və mövcud problemlər araşdırılıb, Azərbaycanda bu sahədə atılan addımlar - Budapeşt Konvensiyasının ratifikasiyası, kibercinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlıq diqqətlərə çatdırılıb. Təqdimat böyük maraqla qarşılanaraq, bu sahədə əməkdaşlığa dair, o cümlədən təlimlərin keçirilməsi ilə bağlı təkliflər irəli sürülüb.

Təlimin sonunda Koreyanın Ədliyyə Nazirliyi İnstitutunun Xarici Əməkdaşlıq Mərkəzinin direktoru Do Jeong-Seo ölkəmizin Ədliyyə Akademiyası ilə əməkdaşlığın qurulması, o cümlədən birgə təlimlərin və təlim səfərlərinin təşkil olunması və təcrübə mübadiləsinin aparılması ilə bağlı niyyətini ifadə edib.




**Avropa Şurası İnsan hüquqları və qanunun aliliyi üzrə Baş Direktorluğunun Hüquqşünaslar üçün insan hüquqlarının tədrisi üzrə Avropa Proqramı (HELP) çərçivəsində iyunun 19-20-də Strasburqda HELP şəbəkəsinin İllik Konfransı keçirilib.**

Avropa Şurasına üzv 47 ölkədən 150-dən çox təmsilçinin iştirak etdiyi tədbirdə Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü Anar Bağırov, HELP proqramının hakimlər və vəkillər arasında təbliğatına məsul nümayəndələri iştirak ediblər.

Konfransda qanunun aliliyinin təmin olunmasında HELP proqramının rolu, məhkəmə sisteminin müstəqilliyi ilə bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsi, insan hüquqları üzrə hüquqşünasların tədrisi, HELP platformasının təbliği və digər aktual məsələlər ətrafında faydalı fikir və təcrübə mübadiləsi aparılıb, təqdimatlar dinlənilib.

Tədbir çərçivəsində "Birlikdə yaşamağa öyrənirik. Demokratiyanın ümumi öhdəlikləri" mövzusunda keçirilmiş plenar sessiyada Avropa Şurasının baş katibinin müavini xanım Qabriela Battaini-Draqoni giriş nitqi ilə çıxış edərək HELP proqramının hüquqşünaslar üçün İnsan Hüquqları üzrə Avropa Konvensiyasının səmərəli və düzgün implementasiyasında mühüm alətlərdən biri olduğunu vurğulayıb. Eyni zamanda, insan hüquqları üzrə seminarlar keçirilib.

Bununla yanaşı, bütün üzvlər və tərəfdaşlar arasında təlimlərin nəticələri, eləcə də Avropa Konvensiyasının milli səviyyədə icrasının gücləndirilməsi və əməkdaşlığın genişləndirilməsi ilə bağlı müzakirələr aparılıb. Bildirilib ki, HELP platforması nəinki Avropa Şurasına üzv olan dövlətlərdə, həmçinin ABŞ, Meksika, Avstraliya və s. bu kimi ölkələrdə fəaliyyət göstərən hüquqşünaslar tərəfindən istifadə olunur. Hazırda dünyada HELP platformasının istifadəçilərinin sayı 18 mindir. Buna baxmayaraq onlardan 8 mini son 2 il ərzində qeydiyyatdan keçib. HELP platformasının istifadəçilərinin sayına və fəallığına görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır.

Tədbirdə Azərbaycanın 2016-cı il üzrə HELP platformasının təbliği və təşviqi üzrə fəaliyyəti Avropa Şurası tərəfindən ən yaxşı nümunələrdən biri kimi qiymətləndirilib.



**Ədliyyə Akademiyası tərəfindən Avropa Şurası ilə birgə həyata keçirilən "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi" layihəsi çərçivəsində 800-dən çox hakimlər və vəkillər üçün Konvensiyanın müxtəlif maddələrinin öyrənilməsi və tətbiqi, Hüquqşünasların insan hüquqları üzrə tədrisinə dair Avropa Proqramı (HELP) barədə silsilə təlimlər keçirilib.**

Layihənin imkanlarından hakimliyə namizədlərin təlim kurslarında geniş istifadə olunaraq onların proqramına Avropa İnsan Hüquqları Konvensiyası ilə bağlı aktual mövzular daxil edilib, Avropa Şurasının ekspertləri tədrisə cəlb olunublar. Eyni zamanda, namizədlərin Avropa

İnsan Hüquqları Məhkəməsinin təcrübəsinin öyrənilməsi, məhkəmənin fəaliyyəti ilə tanış olmaları məqsədilə cari ilin iyununda Strasburq Məhkəməsinə təlim səfəri təşkil olunub.

Avropa Məhkəməsinin, Venesiya Komissiyasının, İnsan hüquqları üzrə Avropa Komissarlığının, İnsan hüquqları və qanunun aliliyi üzrə Baş Direktorluğunun və HELP proqramının mütəxəssislərinin iştirakı ilə keçirilən təlimdə Konvensiyanın bir sıra müddəaları, Avropa Məhkəməsinə şikayətlərin qəbul edilmə kriteriyaları, fərdi şikayətlərin seçilmə üsulları, Avropa Şurası strukturlarının fəaliyyəti, HELP proqramı və s. barədə təqdimatlar dinlənilib, faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

Səfər zamanı hakimliyə namizədlər, həmçinin Avropa İnsan Hüquqları Məhkəməsinin fəaliyyəti, palatalar, iclas zalları ilə tanış olub, Avropa Məhkəməsinin Azərbaycandan olan hakimi Lətif Hüseynov ilə görüşüblər. Görüşdə namizədləri maraqlandıran suallar, məhkəmə və onun iş prinsipləri barədə geniş məlumat verilib.

**İyunun 16-da Ədliyyə Akademiyasında hakimlər üçün "Ayrı-ayrı kateqoriyalara aid cinayətlərin xüsusiyyətləri" mövzusunda ixtisasartırma kursu keçirilib.**



30-dək hakimin iştirak etdiyi kursda qətimkan tədbirlərinin seçilməsi xüsusiyyətləri, ayrı-ayrı cinayət işləri üzrə məhkəmə təcrübəsindən irəli gələn problemlər, korrupsiyaya qarşı mübarizədə hüquq mühafizə orqanlarının qarşılıqlı əlaqəsi mövzularında təqdimatlar dinlənilib.

Akademiyanın Avropa Şurası birgə təşkilatçılığı ilə iyunun 29-30-da hakimlər və prokurorlar üçün keçirilmiş təlim isə "Qadınların ədalət mühakiməsinə çıxışının təkmilləşdirilməsi" mövzusuna həsr olunub. Təlimdə hakimlərin və prokurorların qadınların ədalət mühakiməsinə çıxışının təkmilləşdirilməsində rolu, qadın hüquqları, cinsi mənsubiyyətindən asılı olaraq diskriminasiyaya, ayrı-seçkiliyə yol verilməməsi, gender stereotipləri və qərəzlilik, məişət və seksual xarakterli zorakılıq, milli qanunvericilik və təcrübə, sübutlar, məhkəmə hökmləri, məhkəmə qərarlarının icrası, qadın sahidlərin iştirakı ilə keçirilən məhkəmə iclaslarında idarəçilik və s. mövzular tədris edilib, mövzu ilə əlaqəli kazuslar müzakirə olunub.

Bundan əlavə, məhkəmə aparatı işçilərinin tədrisi diqqətdə saxlanılaraq Sumqayıt Apellyasiya Məhkəməsində yurisdiksiyasına aid olan birinci instansiya məhkəmələri aparatlarının işçiləri üçün "Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi (Ədalətli məhkəmə araşdırması hüququ)" mövzusunda ixtisasartırma kursu keçirilib. 30-a yaxın dinləyicinin iştirak etdiyi kursda "İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsi: Ümumi baxış," "Ədalətli məhkəmə araşdırması hüququnun tətbiq dairəsi", "Ədalətli məhkəmə araşdırması hüququ üzrə təqsirləndirilən şəxsin təminatları" mövzuları üzrə mühazirələr tədris olunub.

**Ədliyyə Akademiyasının Avropa Şurası ilə birgə həyata keçirdiyi "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi" layihəsinin icrası ilə əlaqədar paytaxtda və regionlarda silsilə təlimlər davam etdirlir.**

İyunun 29-30-da Bakıda vəkillər üçün "Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi (Ədalətli məhkəmə araşdırması hüququ) mövzusunda iki günlük təlim keçirilib. Təlim proqramında nəzərdə tutulmuş mövzular Avropa Şurasının beynəlxalq eksperti xanım İvana Roagna və bu layihə çərçivəsində keçirilmiş təlimçilər üçün təlim proqramının iştirakçıları tərəfindən tədris olunub. Təlimdə 30-a yaxın vəkil iştirak edib.



**Ədliyyə işçilərinin nəzəri bilik və peşə hazırlığının yüksəldilməsi daim diqqətdə saxlanılaraq Ədliyyə Akademiyası tərəfindən ardıcıl tədris tədbirləri təşkil olunur. Cari ilin iyununda 270-dən çox ədliyyə işçisi, o cümlədən icra məmurları, Məhkəmə Ekspertizası Mərkəzinin, Tibb xidmətinin, rayon (şəhər) qeydiyyat şöbələrinin, nikah evlərinin və notariat qurumlarının əməkdaşları Akademiya tərəfindən müxtəlif aktual mövzularda keçirilmiş ixtisasartırma kurslarına cəlb olunub.**

Kurslarda bır sıra aktual mövzular, o cümlədən korrupsiyaya qarşı mübarizə, etik davranış qaydaları, etika və ünsiyyət psixologiyası, icra işinin təkmilləşdirilməsi, probasiya xidməti, İKT-nin müasir imkanları və ədliyyə orqanlarında tətbiqi, ədliyyə orqanları tərəfindən əhaliyyə göstərilən elektron xidmətlər, mülki müdafiə, vətəndaşların qəbulu, kargüzarlıq işinin təşkili və s. məsələlər aidiyyəti əməkdaşlar üçün tədris olunub, dinləyiciləri maraqlandıran mövzular ətrafında müzakirələr aparılıb.

**Cari ilin iyununda Ədliyyə Akademiyası tərəfindən, həmçinin Xaçmaz və Göyçay reginal ədliyyə idarələri ilə birgə həmin rayonların və ətraf bölgələrin bələdiyyə üzvləri və qulluqçuları üçün tədris kursları təşkil edilib.**

Ümumilikdə 90 nəfərdən çox dinləyicinin iştirak etdiyi tədbirlərdə "İnsan hüquqlarının qorunmasında bələdiyyələrin rolu", "Bələdiyyələrin fəaliyyətində şəffaflığın artırılması və korrupsiya hüquqpozmalarının qarşısının alınması", "Bələdiyyə qulluğuna qəbulun müsabiqə yolu ilə həyata keçirilməsi və bələdiyyə qulluqçularının etik davranış qaydaları", "Bələdiyyələrdə və bələdiyyə müəssisələrində kargüzarlığın təşkili", "İstirahət vaxtı və işçilərin məzuniyyət hüquqları"," Əmək müqaviləsinin bağlanması, dəyişdirilməsi və xitam olunması", "Yerli (bələdiyyə) vergi və ödənişlərin yığılmasında bələdiyyələrin hüquq və vəzifələri", "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn vəzifələr" mövzuları üzrə mühazirələr oxunub.



### "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununu "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 437-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 5, maddə 413; 1999, N 5, maddə 284, N 7, maddə 396, N 10, maddə 570; 2001, N 5, maddə 292, N 6, maddə 379, N 7, maddə 455; 2002, N 1, maddə 4, N 12, maddə 706; 2003, N 6, maddə 278; 2004, N 2, maddə 57, N 3, maddə 133, N 4, maddə 199, N 8, maddələr 597, 598, N 9, maddə 669; 2005, N 1, maddə 7, N 8, maddə 686; 2006, N 1, maddə 4, N 12, maddə 1005; 2007, N 5, maddələr 439, 446, N 7, maddə 712, N 11, maddə 1078, N 12, maddə 1222; 2008, N 3, maddə 163, N 7, maddə 609; 2009, N 2, maddə 46, N 11, maddə 878; 2010, N 7, maddə 596, N 10, maddə 842; 2011, N 4, maddə 265; 2013, N 1, maddə 21; 2014, N 2, maddə 85, N 7, maddələr 782, 784; 2015, N 2, maddə 98, N 4, maddə 346, N 5, maddə 483, N 11, maddə 1286; 2016, N 6, maddə 1004, N 11, maddə 1789, N 12, maddə 2033) 93-1-ci maddəsinin birinci hissəsində "və hakimlərin" sözləri ", hakimlərin və məhkəmə sisteminin" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 25 aprel 2017-ci il*

### "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq, "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununu "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 377-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, N 1, maddə 8, N 8, maddə 686; 2006, N 1, maddə 4; 2007, N 4, maddə 321; 2010, N 7, maddə 596; 2011, N 2, maddə 71, N 6, maddə 484; 2012, N 12, maddə 1228; 2013, N 12, maddə 1467; 2014, N 7, maddə 783; 2015, N 2, maddə 99, N 4, maddə 347, N 11, maddə 1287;

2016, N 12, maddə 2032) aşağıdakı dəyişikliklər edilsin:

1. 11.0.1-ci maddədən ", ərazi yurisdiksiyası" sözləri çıxarılsın.

2. Aşağıdakı məzmunda 11.0.1-1-ci maddə əlavə edilsin:

"11.0.1-1. məhkəmələrin ərazi yurisdiksiyasını müəyyən edir;".

3. 12.0.26-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"12.0.26-1. birinci instansiya və apellyasiya məhkəmələrinin maliyyə təminatı üçün nəzərdə tutulan xərclər barədə təkliflərə onlar müvafiq icra hakimiyyəti orqanına təqdim edilməzdən əvvəl rəy vermək;".

4. Aşağıdakı məzmunda 22.4-cü maddə əlavə edilsin:

"22.4. İntizam məsuliyyəti məsələsinə baxılan hakimin öz arzusu ilə vəzifəsindən çıxmaq barədə yazılı ərizəsinə "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 112-1-ci maddəsində nəzərdə tutulmuş qaydada baxılır.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 16 may 2017-ci il*

### Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Əmək Məcəlləsini "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 334-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 4, maddə 213; 2001, N 3, maddə 143, N 6, maddə 362, N 11, maddələr 672, 679, N 12, maddə 731; 2002, N 1, maddə 2, N 5, maddə 241, N 6, maddə 328; 2003, N 1, maddələr 9, 23; 2004, N 1, maddə 10, N 2, maddə 57, N 3, maddə 133, N 6, maddə 413, N 7, maddə 505, N 9, maddə 672, N 12, maddə 981; 2005, N 3, maddə 151, N 4, maddə 278, N 7, maddə 560, N 10, maddə 874, N 11, maddə 1001, N 12, maddə 1094; 2006, N 3, maddələr 220, 222, N 5, maddə 385, N 11, maddə 923, N 12, maddələr 1004, 1025, 1030; 2007, N 5, maddələr 401, 437, N 6, maddə 560, N 8, maddə 756, N 11, maddələr 1049, 1053; 2008, N 3, maddə 156, N 7, maddələr 600, 602, N 10, maddə 887, N 11, maddə 960; 2009, N 2, maddə 48, N 5, maddə 294, N 6, maddə 399, N 12, maddələr 949, 969; 2010, N 2, maddələr 70, 75, N 4, maddə 275; 2011, N 1, maddə 11, N 2, maddələr 70, 71, N 6, maddə 464, N 7, maddə 598; 2012, N 11, maddə 1054; 2013, N 2, maddələr 89, 101, N 11, maddə 1268; 2014, N 2, maddə 92, N 10, maddə 1162, N 11, maddə 1339, N 12, maddə 1527; 2015, N 2, maddə 97, N 3, maddə 250, N 6, maddə 680; 2016, N 2 (I kitab), maddələr 190, 201, N 5, maddə 847, N 11, maddə 1767) aşağıdakı dəyişikliklər edilsin:

1. 65-ci maddə üzrə:

1.1. aşağıdakı məzmunda 5-1-ci hissə əlavə edilsin:

"5-1. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat vermiş işçi attestasiyadan keçirildikdə, idarə, müəssisə və ya təşkilatın korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatların verilməsi üçün müəyyən edilən müvafiq vəzifəli şəxsi və ya struktur bölməsinin nümayəndəsi attestasiya komissiyasının iclasında iştirak etməlidir.";

1.2. aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

"Qeyd: Bu Məcəllənin 65-ci maddəsinin 5-1-ci hissəsində və 187-ci maddəsinin 4-cü hissəsində "idarə, müəssisə və ya təşkilat" dedikdə, dövlət və bələdiyyə orqanlarının, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslər və büdcə təşkilatları başa düşülməlidir.".

2. 187-ci maddəyə aşağıdakı məzmunda 4-cü hissə əlavə edilsin:

"4. İdarə, müəssisə və ya təşkilatın korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat vermiş işçisi barəsində intizam tənbehini tətbiq edən idarə, müəssisə və ya təşkilat intizam tənbehinin qanunla müəyyən edilmiş hallardan irəli gəlməsini və korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumata aidiyyəti olmadığını əsaslandırmalıdır.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 25 aprel 2017-ci il*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2, I kitab, maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 9, maddə 1559, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 139, 147, 152, 162; Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 509-VQD nömrəli, 14 fevral tarixli 529-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 54.2-ci maddəyə "594-1," rəqəmlərindən sonra "594-2," rəqəmləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 594-2-ci maddə əlavə edilsin:

"Maddə 594-2. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsin dövlət müdafiəsi ilə bağlı qanunvericiliyin tələblərinin pozulması

594-2.0. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsin dövlət müdafiəsi ilə bağlı qanunvericiliyin tələblərinin pozulmasına, yəni:

594-2.0.1. konfidensiallığı təmin edilməli olan korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxs barədə məlumatın açıqlanmasına;

594-2.0.2. korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsə və ya onun yaxın qohumuna verdiyi məlumatla bağlı hədə-qorxu gəlmə, təzyiqlərə məruz qoyma, təhqir etmə və ya maddi zərər vurulmasına görə -

səkkiz yüz manatdan min üç yüz manatadək məbləğdə cərimə edilir.

Qeyd: Bu Məcəllənin 594-2.0.2-ci maddəsində nəzərdə tutulmuş əməllərdə cinayət tərkibinin əlamətləri olduqda, həmin əməllər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olur.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 25 aprel 2017-ci il*

## ”Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununu "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının

Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 334-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, N 11, maddə 1248) aşağıdakı məzmunda 9.2-1-ci maddə əlavə edilsin:

"9.2-1. Barəsində məlumat verilən şəxsə, həmçinin araşdırmanın nəticəsində birbaşa və ya dolayısı ilə maraqlı olan şəxslərə korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatın araşdırılması həvalə edilə bilməz.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 25 aprel 2017-ci il*

## ”İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, "Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 474-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"İcra haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 3, maddə 114; 2003, N 6, maddə 277; 2004, N 8, maddə 598, N 11, maddə 901, N 12, maddə 973; 2007, N 1, maddə 3, N 6, maddə 562, N 11, maddə 1053; 2008, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 12, maddə 952; 2010, N 2, maddə 75, N 7, maddə 591; 2011, N 6, maddə 482, N 7, maddə 618; 2012, N 11, maddə 1052; 2013, N 6, maddə 613, N 7, maddə 787, N 12, maddə 1494; 2015, N 12, maddə 1434; 2016, N 12, maddə 2050; 2017, N 2 maddə 157) aşağıdakı məzmunda 20.1.4-1-ci maddə əlavə edilsin:

"20.1.4-1. qanun əsasında borclunun dövlətə olan borcu silindikdə;".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 31 may 2017-ci il*

## Bələdiyyə üzvlərinin etik davranış qaydaları haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq, bələdiyyə üzvləri üçün etik davranış qaydalarını, prinsiplərini və onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmləri müəyyən edir.

**1-ci fəsil**
**ÜMUMİ MÜDDƏALAR**

**Maddə 1. Qanunun əhatə dairəsi**

1.1. Bu Qanun bələdiyyə üzvü olan bütün şəxslərə şamil edilir.

1.2. Hər bir bələdiyyə üzvü qanunun aliliyini, insan hüquqlarını, demokratik prinsipləri və etik davranış qaydalarını rəhbər tutaraq, bu Qanunun müddəalarına əməl etməyə borcludur.

**Maddə 2. Qanunun məqsədləri**

2.0. Bu Qanunun məqsədləri aşağıdakılardan ibarətdir:

2.0.1. yerli özünüidarə orqanlarının və bələdiyyə üzvlərinin nüfuzunun artırılması, vətəndaşların yerli özünüidarə orqanlarına və bələdiyyə üzvlərinə etimadının yüksəldilməsi;

2.0.2. yerli özünüidarə orqanlarının və bələdiyyə üzvlərinin fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması;

2.0.3. yerli özünüidarə orqanlarında korrupsiyanın və bələdiyyə üzvlərinin fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması;

2.0.4. bələdiyyə üzvləri tərəfindən etik davranış qaydalarına əməl olunmasının təmin edilməsi;

2.0.5. bələdiyyə üzvlərindən gözlənilən davranış barədə vətəndaşların məlumatlandırılması;

2.0.6. yerli özünüidarə orqanlarının və bələdiyyə üzvlərinin fəaliyyətinin qiymətləndirilməsinə vətəndaşların təsir imkanlarının genişləndirilməsi.

## 2-ci fəsil
## ETİK DAVRANIŞ QAYDALARI

**Maddə 3. Peşəkarlıq və fərdi məsuliyyətin artırılması**

3.1. Bələdiyyə üzvü etik davranışı və peşəkar fəaliyyəti ilə yerli özünüidarə orqanlarına inamı artırmalı və möhkəmləndirməlidir.

3.2. Bələdiyyə üzvü öz fəaliyyətini qanunla müəyyən olunmuş səlahiyyətlər çərçivəsində peşəkarlıqla həyata keçirməyə və yerli özünüidarə orqanının fəaliyyətində fəal iştirak etməyə borcludur.

3.3. Şəxsin, cəmiyyətin, bələdiyyənin və dövlətin maraqları uğrunda bələdiyyə üzvü öz vəzifələrini səmərəli yerinə yetirməyə borcludur.

**Maddə 4. Loyallıq**

4.1. Bələdiyyə üzvü vəzifəsinə aid olmadığı hallarda, yerli özünüidarə orqanlarının, onların rəhbərlərinin və digər bələdiyyə üzvlərinin fəaliyyəti ilə əlaqədar (qanunsuz fəaliyyət istisna olmaqla) tənqidi ictimai mülahizələrdən, çıxışlardan və onların fəaliyyətinə ictimai qiymət verilməsindən çəkinməlidir. Bu, bələdiyyə üzvünün elmi-pedaqoji fəaliyyəti ilə bağlı çıxışlarına və ya elmi yazılarına şamil edilmir.

4.2. Bələdiyyə üzvü vəzifələrin icrasına uyğun olmayan və onun adına xələl gətirə biləcək, habelə yerli özünüidarə orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir.

**Maddə 5. İnsan hüquq və azadlıqlarına, şəxslərin qanuni maraqlarına, şərəf və ləyaqətinə, işgüzar nüfuzuna hörmət**

5.1. Bələdiyyə üzvünün fəaliyyəti insan hüquq və azadlıqlarının, şəxslərin qanuni maraqlarının təmin olunmasına (qorunmasına) xidmət etməlidir.

5.2. Bələdiyyə üzvü insan hüquq və azadlıqlarını, şəxslərin qanuni maraqlarını pozan, onların şərəf və ləyaqətini, işgüzar nüfuzunu ləkələyə biləcək qərarlara və hərəkətlərə (hərəkətsizliyə) yol verməməlidir.

5.3. Bələdiyyə üzvü vəzifələrinin icrası ilə bağlı insanların, habelə digər bələdiyyə üzvlərinin şəxsi həyatı, şərəf və ləyaqəti barədə ona məlum olan məlumatların konfidensiallığını təmin etməlidir.

5.4. Bələdiyyə üzvü hüquqi şəxslərin işgüzar nüfuzuna hörmətlə yanaşmalı və onların işgüzar nüfuzunu ləkələyə biləcək hərəkətlərə (hərəkətsizliyə) yol verməməlidir.

**Maddə 6. Mədəni davranış**

6.1. Bələdiyyə üzvü bütün şəxslərlə, o cümlədən bələdiyyə qulluqçuları və vətəndaşlarla münasibətdə nəzakətli, xeyirxah, diqqətli, səbirli və qərəzsiz olmalı, haqsız irad tutmamalı, kobudluq etməməlidir.

6.2. Bələdiyyə üzvü bələdiyyə iclaslarının keçirilməsinə və gedişinə mane olan davranış və hərəkətlərdən çəkinməli, iclasın anlaşıqlı və işgüzar şəraitdə keçirilməsinə çalışmalıdır.

**Maddə 7. Qərəzsizlik**

7.1. Bələdiyyə üzvü vəzifəsini yerinə yetirərkən və ya qərar qəbul edərkən, qərəzsiz olmalı və bu zaman irqinə, milliyyətinə, dininə, dilinə, cinsinə, sosial mənşəyinə, əmlak vəziyyətinə, qulluq mövqeyinə, əqidəsinə, ictimai və ya hər hansı digər birliyə mənsubiyyətinə görə hər hansı şəxsin və ya şəxslər qrupunun üstünlüyünə və ya belə üstünlüyün əldə edilməsi üçün şərait yaradılmasına yol verməməlidir.

7.2. Bələdiyyə üzvü özünün və ya maraqlı şəxslərin mənafelərinin onun vəzifələrinin yerinə yetirilməsinə təsir göstərməsinə yol verməməli və belə

təsir üçün şərait yaratmamalıdır.

**Maddə 8. Maddi və qeyri-maddi nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi**

8.1. Bələdiyyə üzvünün qanunsuz olaraq maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməyə yönəlmiş hərəkətlər (hərəkətsizlik) etməsi qadağandır.

8.2. Bələdiyyə üzvü onun hərəkətlərinin (hərəkətsizliyinin) maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməyə gətirib çıxarmasını istisna edən tədbirlər görməlidir.

**Maddə 9. Korrupsiyanın qarşısının alınması**

Bələdiyyə üzvünə qanunsuz maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunduğu hallarda, o, belə təkliflərdən imtina etməlidir. Maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər bələdiyyə üzvündən asılı olmayan səbəblərdən verilərsə, o, bu barədə növbəti bələdiyyə iclasında bələdiyyə üzvlərinə məlumat verməli, maddi nemətlər akt üzrə bələdiyyəyə təhvil verilməlidir.

**Maddə 10. Hədiyyə alma ilə əlaqədar məhdudiyyətlər**

10.1. Bələdiyyə üzvü vəzifələrinin qərəzsiz icrasına təsir edə bilən və ya belə təsir təəssüratı yaradan, yaxud onun vəzifələrinin icrası qarşılığında mükafat qismində verilən və ya belə mükafat təəssüratı yaradan hədiyyələri özü və digər şəxslər üçün tələb edə və ya qəbul edə bilməz. Bu qayda qonaqpərvərliklə bağlı və dəyəri "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məbləğdən yuxarı olmayan hədiyyələrin təqdim olunduğu hallara şamil edilmir.

10.2. Bələdiyyə üzvü hədiyyənin qəbul edilməsi və ya qonaqpərvərlikdən istifadə ilə bağlı qərara gələ bilmədiyi hallarda bu məsələ barədə bələdiyyə iclasının rəyini öyrənməlidir.

**Maddə 11. Maraqlar toqquşmasının qarşısının alınması**

11.1. Bələdiyyə üzvü fəaliyyəti dövründə maraqların toqquşmasına yol verməməli və qanunsuz olaraq öz vəzifə səlahiyyətlərindən şəxsi maraqları üçün istifadə etməməlidir.

11.2. Bələdiyyə üzvü başqa vəzifəyə keçməklə əlaqədar ona verilən təkliflərin maraqların toqquşmasına səbəb ola biləcəyi hallarda, bu barədə bələdiyyə iclasına məlumat verməlidir.

11.3. Bələdiyyə üzvü etik davranış qaydaları, korrupsiyaya qarşı mübarizə və maraqlar toqquşmasının qarşısının alınması ilə bağlı normativ hüquqi və normativ xarakterli aktları bilməlidir.

**Maddə 12. Əmlakdan istifadə**

12.1. Bələdiyyə üzvü istifadəsində olan bələdiyyə əmlakından və maliyyə vəsaitlərindən qənaətlə və səmərəli istifadə etməlidir.

12.2. Bələdiyyə üzvünə bələdiyyə əmlakından, maliyyə vəsaitlərindən şəxsi maraqları naminə, habelə vəzifələrinin icrası ilə əlaqədar olmayan digər məqsədlər üçün istifadə etməsi qadağandır.

**Maddə 13. Məlumatlardan istifadə**

13.1. Bələdiyyə üzvü yerli özünüidarə orqanında xidməti informasiyanın təqdim edilməsi qaydalarına əməl etməlidir.

13.2. Bələdiyyə üzvü fəaliyyəti zamanı əldə etdiyi məlumatlardan şəxsi maraqları üçün istifadə etməməlidir.

**Maddə 14. İctimai və siyasi fəaliyyət**

14.1. Bələdiyyə üzvünün ictimai və siyasi fəaliyyəti, yaxud ictimai birliklərə və ya siyasi partiyalara mənsubiyyəti onun xidməti vəzifələrini qərəzsiz və obyektiv yerinə yetirdiyinə ictimai şübhə doğurmamalıdır.

14.2. Bələdiyyə üzvü səlahiyyətlərindən istifadə edərək, digər bələdiyyə üzvlərini və ya qulluqçularını ictimai birliklərin və ya siyasi partiyaların, yaxud dini təşkilatların fəaliyyətində iştiraka təhrik etməməlidir.

14.3. Bələdiyyə üzvünə bələdiyyə orqanlarında ictimai birliklərin və siyasi partiyaların (həmkarlar ittifaqları istisna olmaqla), yaxud dini təşkilatların struktur bölmələrini yaratmaq və ya həmin orqanlarda göstərilən struktur bölmələrin yaradılmasına yardım etmək qadağandır.

14.4. Bələdiyyə üzvünə seçkilər zamanı öz vəzifə mövqeyindən və səlahiyyətlərindən özünün və ya digər namizədlərin, siyasi partiyaların, siyasi partiyaların bloklarının xeyrinə istifadə etməsi qadağandır.

**3-cü fəsil**

**ETİK DAVRANIŞ QAYDALARININ HƏYATA**

KEÇİRİLMƏSİNİN TƏMİN EDİLMƏSİ

**Maddə 15. Etik davranış qaydalarına əməl olunmasına nəzarət**

15.1. Etik davranış qaydalarına əməl olunmasına bələdiyyənin sədri nəzarət edir.

15.2. Bələdiyyənin sədri:

15.2.1. öz davranışı ilə etik davranış qaydalarına əməl olunmasına nümunə göstərməlidir;

15.2.2. bələdiyyə üzvlərini hüquqa və hamılıqla qəbul edilmiş etik normalara zidd olan hərəkətə və qərarlar qəbul etməyə sövq etməməlidir;

15.2.3. etik davranış qaydalarının pozulmasının qarşısının alınması və profilaktikası üzrə tədbirlər görməlidir;

15.2.4. bələdiyyə üzvlərinə etik davranış qaydalarını izah etməli və müraciət olunduğu təqdirdə, etik davranış qaydalarına əməl edilməsinə dair onlara tövsiyələr verməlidir;

15.2.5. etik davranış qaydalarını pozan bələdiyyə üzvlərinin intizam məsuliyyətinə cəlb edilməsi məqsədi ilə müvafiq məsələnin bələdiyyə iclasında müzakirəyə çıxarılması üçün tədbirlər görməlidir;

15.2.6. vətəndaşları və hüquqi şəxsləri etik davranış qaydaları, eləcə də bələdiyyə üzvlərinin həmin qaydalara əməl etməsini tələb etmək hüququna malik olduqları barədə məlumatlandırmaq üçün tədbirlər görməlidir;

15.2.7. etik davranış qaydalarının pozulması halları ilə bağlı həyata keçirilmiş tədbirlər barədə vətəndaşları, hüquqi şəxsləri və bələdiyyə üzvlərini məlumatlandırmalıdır;

15.2.8. etik davranış qaydalarının pozulmasının nəticələrinin aradan qaldırılması, habelə bələdiyyəyə ictimai etimadın artırılması üçün tədbirlər görməlidir.

15.3. Bələdiyyə üzvü tərəfindən etik davranış qaydalarına əməl olunmasını təmin etmək üçün bələdiyyə üzvlərinin davranışının etik normalara uyğunluğu ildə bir dəfədən az olmayaraq, bələdiyyə iclasında müzakirə edilməli və nəticəsi üzrə tədbirlər görülməlidir.

**Maddə 16. Etik davranış qaydalarının pozulmasına görə məsuliyyət**

16.1. Etik davranış qaydalarının pozulması bələdiyyə üzvünün intizam məsuliyyətinə cəlb edilməsi üçün əsasdır.

16.2. Aşağıdakı hallarda intizam icraatına başlanıla bilər:

16.2.1. bu Qanunun müddəalarının bələdiyyə üzvü tərəfindən pozulması barədə hüquqi və ya fiziki şəxslərdən şikayət, yaxud digər məlumatın daxil olması;

16.2.2. kütləvi informasiya vasitələrində bələdiyyə üzvü tərəfindən bu Qanunun müddəalarının pozulmasına və maraqların toqquşmasına yol verildiyi barədə məlumatın dərc edilməsi.

16.3. İntizam icraatı zamanı bələdiyyə üzvü tərəfindən yol verilən hüquq pozuntusunda cinayət tərkibinin əlamətləri aşkar edildikdə, bu barədə cinayət təqibi orqanına məlumat verilməlidir.

**Maddə 17. İntizam məsuliyyətinin növləri**

17.1. Bələdiyyə iclasının qərarı əsasında etik davranış qaydalarının pozulmasına görə aşağıdakı intizam məsuliyyəti tədbirlərindən biri tətbiq edilə bilər:

17.1.1. xəbərdarlıq;

17.1.2. töhmət.

17.2. İntizam tənbehi tətbiq edilərkən, bələdiyyə üzvünün şəxsiyyəti, kollektivdə nüfuzu, peşəkarlıq səviyyəsi, onun törətdiyi xətanın xarakteri nəzərə alınmalıdır.

17.3. Etik davranış qaydalarını pozmuş bələdiyyə üzvü barəsində intizam məsuliyyəti tədbiri pozuntunun aşkar edildiyi gündən etibarən 30 gün ərzində tətbiq edilir.

17.4. Etik davranış qaydalarını pozmuş bələdiyyə üzvü üzvlükdən çıxmaq barədə bələdiyyə iclasına ərizə verdikdə və bunun əsasında üzvlüyünə xitam verildikdə, ona qarşı intizam məsuliyyəti tədbirləri tətbiq edilmir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 31 may 2017-ci il.*